**Hər kəs ədalətli olacaq**

www.adalet.az

# ƏDALƏT

Qurucusu: Adil Minbaşıyev | *İctimai-siyasi, hüquq qəzeti* | Qəzet 1990-cı ilin iyulundan çıxır | № 35 (6078) 13 sentyabr 2024-cü il | Qiyməti 40 qəpik

# Prezident COP29-a hazırlıq işləri ilə tanış oldu



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Bakı Olimpiya Stadionunun ərazisində COP29-a hazırlıqla bağlı görülən işlərlə tanış olub.**

**Adalet.az xəbər verir ki, Prezidentin köməkçisi Anar Ələkbərov dövlətimizin başçısına COP29 məkanının tədbirə hazırlıq vəziyyətinə gətirilməsi barədə məruzə edib.**

**Eyni zamanda, dövlətimizin başçısına ümumilikdə bu tədbirlə bağlı stadionun 49 hektarlıq perimetrində Mavi Zona üzrə aparılan tikinti işləri, məkanların dizaynı, qonaqlar üçün müxtəlif xidmətlərin təşkili, paytaxtda nəqliyyat əməliyyatlarının hazırlığı, qonaqların yerləşdirilməsi prosesi və digər işlər barədə məlumat verildi. Həmçinin 8 hektar ərazidə qurulan Yaşıl Zona ilə bağlı görülən işlər məruzə edilib.**

**Qeyd olunub ki, ölkəmizdə COP29-un yüksək səviyyədə keçirilməsi üçün bütün zəruri tədbirlər görülür, lazımi infrastruktur yaradılır.**

**Prezident İlham Əliyev görüləcək işlərlə bağlı tapşırıq və göstərişlərini verib.**

## "Ukraynanın ərazi bütövlüyünə dəstəyimiz daimidir"



**"Ukraynanın ərazi bütövlüyü, suverenliyi və müstəqilliyinə dəstəyimiz daimidir".**

Adalet.az "TRT HABER"-ə istinadən xəbər verir ki, bu barədə Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Krım Platforması Liderlər Zirvəsinə video müraciətində bildirib.

"Krımın Ukraynaya qaytarılması beynəlxalq hüququn tələbidir"- deyə Türkiyə lideri vurğulayıb.

## NƏ MAZARAT ADAMDI BU İRANLILAR





**İranın guya əzəli və əbədi düşməni ABŞ Ermənistanla İran sərhədinə 200 "rembo" göndərib. Əslində bu qeyri-rəsmi ABŞ-ın Ermənistanda bir bazasıdı, özü də İranın sərhədində. İran isə buna susur. Görəsən, İranı susmağa nə məcbur edir? Yoxsa, İran ABŞ-la gündüz dalaşıb, gecə birlikdə camış oğurluğuna gedir?**

## HƏLƏ KABİNETİNİ İSİTMƏMİŞ GƏLDİ İRƏVANA





**Fransanın çiçəyi burnunda (az qalmışdı şeyi burnunda yazam) baş naziri hələ kabinetini isitməmiş gəlib İrəvana, Nikol Paşinyanla görüşüb. Yəqin Paşinyandan xeyir-dua alacaq.**

Filmdə necə deyilir?

**- Bircə anbardar Məmmədxanın yeri əskikdi.**

**- Gələcək, o da gələcək!**

İndi bircə Ermənistanın böyük bacısı Makronun yeri əskikdi.

**- Gələcək, o da gələcək bu ayın axırına yaxın!**

Əslində ABŞ-ın və Fransanın məqsədi Ermənistanı müharibəyə sürükləyib olan-qalan dövlətlərini də məhv eləyəcəklər.

Paşinyan da bunu bilir, amma əlindən bir şey gəlmir.

## *BAKI-SUMQAYIT YOLUNDA TIXACI NECƏ ARADAN QALDIRMAQ OLAR!*

**Hər gün səhər və axşam bu yolda elə bir tıxac yaranır ki, təkcə insanların ömrünü-gününü əlindən almır, həm də əsəb xəstəliyinə salır. Bizə müraciət edirlər ki, bu tıxacı necə aradan qaldırmaq olar?**

Çox sadə. Bakı-Sumqayıt yolunda velosipedçilər üçün də bir yol ayırsalar tıxac mütləq aradan qalxacaq.

Mejduproçim, şəhərdəki velosiped yollarında heç velosipedçi görən olubmu?

**Aqil ABBAS**
**aqilabbas@rambler.ru**

# MƏİŞ KİŞİ QƏDİR RÜSTƏMOVU NECƏ PƏRT ELƏDİ?



***Məiş kişi Qarabağın ən məşhur ovçularından biri idi, necə deyərlər, quşu gözündən vururdu. Özü də gözü tox ovçu idi. Heç vaxt lazım olandan artıq ov eləməzdi. Hər ovdan qayıdanda da məhlədəki bütün uşaqları yığıb onlara quş ətindən kabab verərdi.***

***Bütün nəvələri də Birinci Qarabağ Müharibəsində könüllü olaraq cəbhədə vuruşurdu. Şəhid olanları oldu, qazi olanları oldu.***

***Milli Qəhrəman Fred Asifin və 16 yaşında döyüşlərdə ağır yaralanan və bu gün də ayağında 4 santimetrlik qəlpə gəzdirən Hacı Elməddin Sərdarın babası idi.***

***Bir gün yenə ovdan gəlib məhlədəki uşaqlara kabab yedirdən zaman darvaza açılır, Qədir Rüstəmov əlində bir qoşalülə girir həyətə.***

**Bax:səh-2**

## BİZİMKİLƏR QIRILIB Kİ?!



**Millimiz Slovakiya ilə oyunda sübut etdi ki, baş məşqçisiz də oynamaq olar.**

Yadıma Seyran Səxavətin Qədir Rüstəmovdan aldığı məşhur müsahibədən bir yer düşdü.

Seyran Qədirdən soruşur ki, yəqin uşaqlara arvad qohumlarının adını qoymusan.

Qədir Rüstəmov:

**- Niyə, bizimkilər qırılıb ki?**

İndi Qədirin sözü olmasın, bizimkilər qırılıb ki (Allaha şükür, Rəşad Sadıqov da sağdı, Tərlan Əhmədov da, Yunis Hüseynov da, İqor Ponamaryov da), AFFA bir ətək pul qoyub "arvad qohumlarını" baş məşqçi gətirir.

## AFFA-nın BAŞBİLMƏYƏN RƏHBƏRLİYİNƏ





**Görən, bizim hörmətli AFFA-mız milli komandamızın dahi baş məşqçisi Santuşun üstündə 1 milyon dollar gürcülərə versə, gürcülər öz baş məşqçilərini bizə verərlər?**

**Bir təklifdi də verdim AFFA-nın başbilməyənlərinə.**

# Prezident sərəncam imzaladı



**Prezident İlham Əliyev cəzaçəkmə müəssisələrində peşə təhsilinin keyfiyyətinin yüksəldilməsi ilə bağlı tədbirlər haqqında sərəncam imzalayıb.**

Sərəncamda deyilir:

"Cəzaçəkmə müəssisələrində keyfiyyətli peşə təhsilinin həyata keçirilməsi cəzaçəkmə müəssisələrindən azadlığa buraxılmış şəxslərin sosial adaptasiyasının asanlaşdırılması, əmək bazarının ixtisaslı işçi qüvvəsinə tələbatının davamlı təmin olunması baxımından böyük önəm kəsb edir.

Bu baxımdan, cəzaçəkmə müəssisələrində peşə təhsilinin müasir standartlara, əmək bazarında mövcud və gələcəkdə təklif ediləcək iş yerlərinə uyğun qurulması cəza çəkməkdən azad edilmiş şəxslərin sosial mühitə uyğunlaşdırılmasında, hüquq və azadlıqlarının, qanuni mənafelərinin qorunmasında, bu şəxslər tərəfindən törədilə biləcək yeni cinayətlərin və onlara təsir göstərə bilən kriminogen amillərin qarşısının alınmasında vacib rol oynayacaqdır.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, cəzaçəkmə müəssisələrində peşə təhsilinin keyfiyyətinin yüksəldilməsi, habelə cəza çəkməkdən azad edilmiş şəxslərin sosial adaptasiyasının təmin edilməsi məqsədilə qərara alıram:

1. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

1.1. Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin, Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin, Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin və Azərbaycan Respublikası Maliyyə Nazirliyinin təklifləri nəzərə alınmaqla, cəzaçəkmə müəssisələrində peşə təhsilinin keyfiyyətinin yüksəldilməsinə və mövcud infrastrukturun təkmilləşdirilməsinə dair fəaliyyət planının layihəsini altı ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.2. fəaliyyət planı layihəsinin hazırlanması ilə əlaqədar aidiyyəti dövlət orqanlarının (qurumlarının) nümayəndələrindən ibarət işçi qrupun yaradılmasını təmin etsin;

1.3. fəaliyyət planının layihəsi hazırlanarkən ixtisaslaşmış ekspertlərlə və mütəxəssislərlə səmərəli əməkdaşlığın həyata keçirilməsini, habelə elmi təşkilatların və vətəndaş cəmiyyəti institutlarının cəlb olunmasını təmin etsin;

1.4. bu Sərəncamdan irəli gələn digər məsələləri həll etsin.

2. Aidiyyəti dövlət orqanları (qurumları) bu Sərəncamdan irəli gələn məsələlərin həlli üçün zəruri tədbirlər görsünlər".

# Prezident İlham Əliyev Əlcəzair Prezidentini təbrik edib

**Prezident İlham Əliyev Əlcəzair Xalq Demokratik Respublikasının Prezidenti Abdelmacid Tebbuna təbrik məktubu ünvanlayıb.**

Məktubda deyilir:

"Hörmətli cənab Prezident,

Əziz Qardaşım,

Əlcəzair Xalq Demokratik Respublikasının Prezidenti vəzifəsinə yenidən seçilməyiniz münasibətilə Sizi səmimi-qəlbdən təbrik edirəm. Seçkilərdə qazandığınız inamlı qələbə qardaş Əlcəzair xalqının şəxsən Sizə, tutduğunuz siyasi xəttə böyük inam və etimadının aşkar təzahürüdür.

Biz Azərbaycan-Əlcəzair dostluq və əməkdaşlıq münasibətlərinin inkişafına xüsusi əhəmiyyət veririk. Dövlətlərarası əlaqələrimizin bugünkü səviyyəsi məmnunluq doğurur.

Əminəm ki, xalqlarımızın mənafelərinə uyğun olaraq ölkələrimiz arasında əlaqələrin dərinləşdirilməsi, qarşılıqlı faydalı əməkdaşlığın daha da genişləndirilməsi istiqamətində birgə səylərimizi bundan sonra da uğurla davam etdirəcəyik.

Sizə möhkəm cansağlığı, xoşbəxtlik, qardaş Əlcəzair xalqının rifahı naminə ali dövləti fəaliyyətinizdə daim müvəffəqiyyətlər arzulayıram".

# Azərbaycan XİN-dən Paşinyana cavab

**Ermənistan baş nazirinin 10 sentyabr tarixində "Yerevan Dialoqu" adlı forumda çıxışı zamanı həm "sülh sazişi" layihəsi, həm də ümumilikdə 10 noyabr tarixli üçtərəfli bəyanatla bağlı səsləndirdiyi iddialar reallıqların açıq-aşkar təhrif olunmasıdır.**

Adalet.az xəbər verir ki, bu barədə Xarici İşlər Nazirliyinin mətbuat katibi Ayxan Hacızadənin Ermənistan baş nazirinin 10 sentyabr tarixində "Yerevan Dialoqu" adlı forumda çıxışı zamanı Azərbaycana qarşı səsləndirdiyi fikirlərə dair şərhində bildirilib.

Qeyd edilib ki, Ermənistan rəsmilərinin "sülh sazişi" layihəsini razılaşdırılmamış müddəalar çıxarılmaqla imzalanması çağırışı, bununla ikitərəfli münasibətlərdə mövcud problemlərin həllini növbəti mərhələyə saxlamaq cəhdləri qəbuledilməzdir.

"Bir daha xatırladırıq ki, Ermənistan tərəfinin "sülh sazişi" layihəsini hansı formada imzalamaq niyyətindən asılı olmayaraq, Azərbaycanla Ermənistan arasında real və davamlı sülh müqaviləsinin imzalanması üçün əsas şərt, başda "Ermənistan və Dağlıq Qarabağın birləşməsi"nə çağıran Ermənistanın Müstəqillik Aktına açıq şəkildə istinad edən Ermənistan Konstitusiyası olmaqla, bu ölkənin çoxsaylı hü-



quqi və siyasi sənədlərində təsbit edilmiş Azərbaycana qarşı davam edən ərazi iddialarına son qoyulmasıdır.

Guya Azərbaycanın Konstitusiya aktında Ermənistana qarşı ərazi iddialarının olması barədə iddialara gəldikdə bir daha qeyd edək ki, Azərbaycan Konstitusiyası ilə Ermənistan Konstitusiyası arasında paralellik və bərabərlik yaratmaq cəhdi heç bir nəticə verməyəcək. Ermənistan Konstitusiyasından fərqli olaraq, Azərbaycan Konstitusiyasında istinad olunan 1991-ci il Dövlət Müstəqilliyi haqqında Konstitusiya Aktı və 1918-ci il İstiqlal Bəyannaməsində Ermənistana qarşı heç bir ərazi iddiası mövcud deyil.

Ermənistan tərəfinin sülh müqaviləsi layihəsində mövcud olan "heç bir tərəf sülh sazişi çərçivəsində öz öhdəliklərini yerinə yetirməməsi ilə əlaqədar öz daxili qanunvericiliyinə istinad edə bilməz" müddəasını qeyd edərək, bu ölkənin Konstitusiyasında mövcud olan ərazi iddiasının zərərsiz olduğunu bildirməsi də tamamilə əsassızdır. Bir daha qeyd edirik ki, heç bir beynəlxalq sazişin Konstitusiyadan üstün olmadığı hər kəsə yaxşı məlum olan faktdır.

Almatı bəyannaməsi çərçivəsində Azərbaycan və Ermənistanın bir-birinin ərazi bütövlüyünü tanıdığı barədə baş nazirin açıqlamasına gəldikdə, baş nazirin təmsil etdiyi ölkənin məhz bu öhdəliyi kobud şəkildə pozaraq Azərbaycan ərazilərini işğal altında saxladığı faktını xatırlatmaq istərdik.

Kommunikasiyaların açılması məsələsində də Ermənistan Baş naziri növbəti dəfə üzərinə götürdüyü öhdəlikləri yanlış şərh edib. Üçtərəfli bəyanatın 9-cu bəndində Ermənistanın hansı öhdəliklərinin olduğu, nəqliyyat əlaqəsi üzrə nəzarət necə təşkil olunacağı açıq-aydın yazılıb.

Ümumilikdə, üçtərəfli bəyanat imzalanandan sonra öhdəliklərinə zidd olaraq 2023-cü ilin sentyabr ayınadək Azərbaycan ərazilərində hərbi fəaliyyətini davam etdirmiş və erməni silahlı qüvvələrini Azərbaycan ərazilərindən çıxarmayan Ermənistan tərəfinin guya qaçqın və məcburi köçkünlərin geri qayıtmasına maneçilik törədildiyini, yerli ermənilərə qarşı etnik təmizləmə həyata keçirildiyini, hərbi əsirlərin qaytarılmadığını iddia etməsi reallıqların təhrif olunmasıdır. Bununla yanaşı, 2023-cü il anti-terror tədbirlərindən sonra erməni əsilli şəxslərin könüllü əsasda Azərbaycanı tərk edərək Ermənistana və digər ölkələrə köçməsinin etnik təmizləmə kimi qələmə verilməsi növbəti böhtandır.

Hərbi əsirlərin qaytarılması məsələsinə gəldikdə, hərbi cinayətkarların və separatçı xunta rejiminin nümayəndələrinin azad edilməsi barədə Azərbaycan hər hansı bir öhdəliyə malik deyil. Azərbaycan indiyə qədər humanizm prinsipinə sadiq qalaraq hərbi əsirlərin hər birini Ermənistana təhvil verib. Lakin Azərbaycan tərəfindən qaytarıldıqdan sonra hərbi əsirlərin Ermənistan dövləti tərəfindən kütləvi surətdə həbslərə və təqiblərə məruz qalmaları bu dövlətin öz vətəndaşlarına "qayğısı" kontekstində xüsusi təəccüb doğurub.

**Müxtəlif platformalardan istifadə etməklə ölkəmizə qarşı aqressiv böhtan xarakterli ritorikanı davam etdirən Ermənistan tərəfini sülh perspektivlərinə xələl gətirən açıqlamalardan əl çəkməyə çağırırıq", - XİN sözçüsü bəyan edib.**

*Aqil ABBAS*

# MƏİŞ KİŞİ QƏDİR RÜSTƏMOVU NECƏ PƏRT ELƏDİ?

*Məiş kişi Qarabağın ən məşhur ovçularından biri idi, necə deyərlər, quşu gözündən vururdu. Özü də gözü tox ovçu idi. Heç vaxt lazım olandan artıq ov eləməzdi. Hər ovdan qayıdanda da məhlədəki bütün uşaqları yığıb onlara quş ətindən kabab verərdi.*

*Bütün nəvələri də Birinci Qarabağ Müharibəsində könüllü olaraq cəbhədə vuruşurdu. Şəhid olanları oldu, qazi olanları oldu.*

*Milli Qəhrəman Fred Asifin və 16 yaşında döyüşlərdə ağır yaralanan və bu gün də ayağında 4 santimetrlik qəlpə gəzdirən Hacı Elməddin Sərdarın babası idi.*



*Bir gün yenə ovdan gəlib məhlədəki uşaqlara kabab yedirdən zaman darvaza açılır, Qədir Rüstəmov əlində bir qoşalülə girir həyətə.*

*Qədir peşəkar balıq ovçusu idi, amma həvəskar quş ovçusu.*

*Məiş kişi onu süfrəyə dəvət edir:*

*- Xoş gəlmisən, Qədir, gəl sən də bir tikə ov əti ye.*

*Qədir görür ki, hamısı çolma-çocuqdu kabab yeyənlər, gülüb deyir:*

*- Məiş dayı, mən deyəsən, bir az böyümüşəm axı... Sənə bir işim düşüb ona görə gəlmişəm.*

*- Buyur.*

*Qədir əlindəki tüfəngi verir Məiş kişiyə və deyir:*

*- Bu tüfəngi mənə təzə bağışlayıblar, amma əyri atır. İstədim ki, bunu düzəldəsən.*

*Məiş kişi tüfəngi alır, sökür, diqqətlə lüləsinə baxır və deyir:*

*- Qədir, bu tüfəngdə heç bir əyrilik yoxdu.*

*Qədir:*

*- Məiş dayı, vallah, nə qədər atıram hamısı əyri gedir, vura bilmirəm. Bir yaxşı bax.*

*Məiş kişi bir də tüfəngi sökür, bir də diqqətlə yoxlayır və yenidən yığıb deyir:*

*- Qədir, mən sənə deyirəm ki, bu tüfəngdə əyrilik yoxdu, təmiz tüfəngdi.*

*Qədir yenə razılaşmır.*

*Məiş kişi:*

*- Üstündə patronun vaar? Çıxart birini ver mənə.*

*Qədir cibindən bir patron çıxarıb verir Məiş kişiyə. Məiş kişi tüfəngi doldurur və baxır Xan qızı Natəvanın İmarətdə əkdiyi çinarlara başına. Ən uca çinarın başında təxminən 60-70 metr məsafədə bir quş görür və tüfəngi qaldırmaqla quşu vurur. Və sonra silahı qaytarıb verir Qədir Rüstəmova və gülüb deyir:*

*- Qədir, nə vaxt məndən xanəndə olsa, səndən də ovçu olar.*

# Viktor Orban: Azərbaycan Aİ üçün strateji əhəmiyyətli ölkədir



**İtaliyada keçirilən Çernobbio Beynəlxalq Forumunda jurnalistlərin suallarını cavablandıran Macarıstanın Baş naziri Viktor Orban Azərbaycanı Avropa İttifaqı üçün strateji əhəmiyyətli ölkə adlandırıb.**

Adalet.az xəbər verir ki, Macarıstan hökumətinin başçısı deyib: "Azərbaycan Avropa ilə sıx əməkdaşlıq edir. Hazırda Azərbaycan strateji əhəmiyyətə malik ölkəyə çevrilib. Ona görə də Avropa Şurasının sədri kimi, biz Azərbaycanla strateji əməkdaşlığın inkişafını dəstəkləyirik".

# Binəqədi polis rəisi kimlərə savaş elan edib?

**Azərbaycanda və elə dünyanın hər yerində polisin işi qədər məsuliyyətli, riskli peşələr azdır. Həqiqətən polisin gecəsi-gündüzü olmur. Halbuki biz bir çox hallarda unuduruq ki, polisin də öz şəxsi həyatı, şəxsi qayğıları var. Amma ictimai həyatda biz hesab edirik ki, polis hər şeyi kənara qoyub çağırışlarımızı eşitməlidir. Ona görə də bəzən tənqid edənlər olsa belə, polis bizim hər gün həyatımızda bir faktdır.**

Baxın: küçədə bir qadına qarşı quldurluq ediləndə, yaxud kimsə sataşanda, ərindən və ya qardaşından qabaq polisə zəng edir. Biz evimizin qapısı döyülüb hansısa təhdidlə üzləşəndə dostumuzu, yaxud qonuşumuzu deyil, polisi köməyə çağırırıq. Bir uşaq itəndə, ya bir ahıl insan intensiv magistral yolu keçməyə çətinlik çəkəndə yenə polis dadımıza çatır. Yəni hər addımda polisin gücünə ehtiyacımız yaranır. Bu, hələ adi, gündəlik həyatımızdan kiçik fraqmentlərdir. Biz hələ daha böyük cinayətlərin, mütəşəkkil banda üzvlərinin, narkotacirlərin törətdiyi ağır cinayətlərin ifşasını, dəhşətli qətllərin üstünün açılmasını, müxtəlif kibercinayətlərin, elektron dələduzluqların polis tərəfindən aşkarlanıb məsuliyyətə cəlb olunmasını qeyd etmirik. Yəni polisin işi çoxdur, sahəsi genişdir, ağılasığmayan hadisələr baş verir, inanılmaz cinayətlər törədilir, lakin hələ biri də olmayıb ki, polis tərəfindən müəyyən edilməsin. Çünki operativ, çevik reaksiya, peşəkar əməliyyat qrupları var və onlar çağırışlara dərhal reaksiya verirlər.

Elə götürək Bakının Binəqədi rayonu, 7-ci mikrorayon ərazisi, Abay Kunanbayev küçəsindəki mənzillərdən birində ailənin təhdid olunaraq 30 milyon manat tələb olunması faktını. Cinayətkar silahlıdır, ev sahibinin başına tapança dirəyib, onu öldürməklə hədələyir və deyilən



məbləği tələb edir. Ailənin evdə olmayan üzvlərindən biri isə işdə olarkən mənzilin girişində quraşdırılan təhlükəsizlik kamerasından bu hadisəni görür və o saat polisə müraciət edir. Hadisə yerinə gələn Binəqədi rayon Polis Şöbəsinin Əlahiddə Çevik Polis Alayı cinayətkarı silahı yerə qoymağa və təslim olmağa dəvət edirlər. Lakin bu çağırışa məhəl qoymadan silahlı müqavimət göstərdiyi və atəş açdığı üçün polis əməkdaşları tərəfindən zərərsizləşdirilir. Məlum olur ki, ev sahibindən 30 milyon pul tələb edən şəxs özünü "MTN əməkdaşı" kimi təqdim edib. Ancaq göründüyü kimi, Binəqədi RPŞ-nin peşəkar və operativ əməliyyatı nəticəsində cinayətkar zərərsizləşdirilib. Anaxeber.info məlumat verir ki, ümumiyyətlə, Binəqədi RPŞ-nə polis polkovniki İlqar Məmmədov rəis təyin olunduğu vaxtdan bu rayonda cinayətkarlığa qarşı amansız mübarizə tədbirləri həyata keçirilir. İlqar Məmmədov böyük təcrübə sahibi olan polis polkovnikidir və buna qədər də rəis olduğu həm Bakının Xətai rayonunda, həm Bərdə şəhərində istər narkotiklərin qanunsuz dövriyyəsinə, istərsə quldurluq, dələduzluq və digər cinayətlərə münasibətdə güzəştsiz, sərt biri kimi seçilib.

Bunun nəticəsində polis rəisi işlədiyi müddətdə Bərdədə xeyli "təmizləmə"lər aparıb. İlqar Məmmədovun bu uğurlu əməliyyatları və tez bir vaxtda nəticə əldə edə bilməsi birbaşa nazirdən gələn tapşırıqlar əsasında həyata keçirilib.

İlqar Məmmədovun rəhbərliyi və təlimatları əsasında keçirilən ardıcıl əməliyyatlar nəticəsində Bərdədə kriminogen vəziyyət yenidən öz axarına qayıdıb. Ardınca onun paytaxtın Xətai rayonunda rəis olduğu dövrdə genişmiqyaslı tədbirlər həyata keçirilib. Şəhərin Xətai kimi böyük rayonunda cinayətkarlığa qarşı mübarizə aparmaq elə də asan deyildi, amma polis rəisi İlqar Məmmədov komandası ilə birlikdə bu işin öhdəsindən ən yüksək səviyyədə gəlməyi bacarmışdı. Çünki İlqar Məmmədovun fəaliyyət və prinsipi ən kiçik cinayəti bağışlamamaqdır.

Hazırda isə o, Binəqədi rayon Polis Şöbəsinin rəisidir və nazir Vilayət Eyvazov tərəddüd etmədən ona növbəti dəfə etimad göstərib və növbəti bir böyük rayonun ictimai asayişinin qorunmasını tapşırıb. Bəli, etiraf edək ki, Binəqədi də bu cəhətdən problemli rayonlardan biri olub. Lakin indi İlqar Məmmədovun polis rəisi kimi rəhbərliyi altında burada narkotikin kökünün kəsilməsi prosesi gedir, ən kiçik xuliqanlıq hadisəsinə Binəqədi polis çevik reaksiya verir, bu rayonda polisin işi mobil şəkildə qurulur. Ona görə də mənzil sahibi heç bir zərər görmədən polis əməkdaşları tərəfindən zamanında cinayətin qarşısı alınıb. Bu, İlqar Məmmədovun işinə peşəkar, tələbkar, məsuliyyətli yanaşmasının, vətəndaşların müraciətlərinə ani, həssaslıqla göstərdiyi münasibətin nəticəsidir. Həqiqətən də Binəqədi rayon camaatı tam arxayın şəkildə gecələr parkda gəzə, mənzilində rahat yata bilər, onları qoruyan polis əməkdaşları və vətənpərvər rəis var.

Ümumiyyətlə, onun tabeliyində fəaliyyət göstərən polis əməkdaşlarının cinayətkarlığa, onun transmilli növlərinə qarşı mübarizədə, asayişin və təhlükəsizliyin təmin olunmasında mühüm xidmətlərini xüsusi vurğulamaq lazımdır.

**Məhz bu peşəkarlığın nəticəsində əksər cinayətlər isti izlərlə açılır, qanunu pozan şəxslər məsuliyyətə cəlb olunurlar. O baxımdan Binəqədi sakinlərinin yaxşı mənada bəxti gətirib...**

**Azər Talıbov**
**Anaxeber.info**

*Rüstəm Hacıyev*



## İstanbul razılaşmasını ABŞ pozub

***ABŞ dövlət katibinin eks müavini Viktoriya Nuland, Rusiyada xarici agent elan edilmiş jurnalist Mixail Zıqarya verdiyi müsahibəsində bəyan edib ki, Ukrayna 2022-ci ildə ABŞ-la məsləhətləşmələrdən sonra, Rusiya ilə əldə etdiyi İstanbul razılaşmasından çıxmışdı.***

***"Türklər meydan təklif etmişdilər, biz o otaqda da yox idik. Biz hətta razılaşmanın detallarından belə məlumatsız idik. Sona yaxın ukraynalılar məsləhətləşmək istədiklərini bildirdilər və bizdən bu razılaşmanın onlara nə kimi xeyir ola bilər sualına cavab istədilər... Və elə həmin vaxt pazılaşma pozuldu"- deyə Nuland bildirib.***

***Nuland əlavə edib ki, ABŞ-ın fikirincə, guya razılaşmanın detalları ukraynalıların xeyrinə deyilmiş və ukraynalı siyasətçilər bu faktı başa düşərək əldə olunmuş razılaşmadan imtina ediblər...***

***Xanım Nuland, bu müsahibəsiylə bir daha səmimi olmadığını sübut edir. Əslində bütün dünya bilir ki, İstanbul razılaşdırılması ABŞ-ın təkidiylə pozulub, çünki həmin vaxt razılaşma əldə olunması "Sem dayının" planlarına daxil deyildi. Həmin ərəfədə müharubənin dayandırılması, sülh yollarının axtarılması üçün danışıqlar masasına oturulması, Vaşinqtonun planlarının yarımçıq qalması demək idi.***

***ABŞ-ın bu münaqişə ocağını yaratmaqda yalnız bir məqsədi var idi, o da Rusiyanı çökdürüb parçalamaq. Hələ ki, buna da nail ola bilmir. Əvəzində isə, İstanbul razılaşdırılması pozulan müddətdən bəri, Ukrayna ərazilərini itirə-itirə gedir. İşğal olunan Krım yarımadası, Donetsk və Luqansk vilayətlətinə, daha sonra Xerson və Zaparyoje vilayətləti də əlavə olundu...***

## 3 ildir polietilen torbalar pulla satılır, Bakıda tullantı azaldı?

**Həmkarım Zaira Akifqızının maraqlı bir məqaləsinə rastladım. Mövzu tullantılardan qurtulmağın yolları haqqında idi.**

AMEA Coğrafiya İnstitutunun şöbə müdiri, ekoloq Ənvər Əliyev jurnalistin mövzu ilə bağlı sualına cavab verərkən bildirir ki, səfərdə olduğum Kanadada nə zibil yeşikləri gördüm, nə də tullantı. Bina sakinləri də məişət tullantılarını binada olan ümumi boru vasitəsilə atırlar. Artıq o zibil hara gedir, necə edirlər bilinmir. Hətta həmin binalarda qəti pis qoxu yoxdur.

Norveç və Kanada kimi ölkələrdə sellofan torbalar yalnız zibil atmaq üçündür. Hətta həftə sonları piknik edən şəxslərə də gətirib o torbalardan paylayırlar ki, ətraf mühiti çirkləndirməsinlər".

Şəhərimizin təmiz və səliqəli olmağını sidq ürəkdən arzulasam da deyəsən, yaxın gələcəkdə bu mümkün variant kimi görünməyəcək.

Çünki Kanada və bir sıra Avropa ölkələrində təmənnasız olaraq əhaliyə paylanan sellofan - polietilen torbalar bizim işbazların qazanc yeridir. Artıq 1 ildən də çoxdur ki, Nazirlər Kabinetinin qərarı ilə polietilen torbaların satışı artıq ödənişlidir.

Ötən il hətta "Azad İstehlakçılar Birliyi"nin sədri Eyyub Hüseynov bu qərara haqq qazandıraraq dedi ki, sellofan torbaların pulla satılması məsələsi "Azad İstehlakçılar Birliyi"nin hələ 10 il öncə qaldırdığı məsələdir. Bu, həm MDB, həm də dünya təcrübəsidir. Həmçinin bu, sellofan torbalardan istifadəni azaltmaq yollarından biridir.

Bir sözlə, sellofanların ödənişli olması ətraf-mühitin və insan sağlamlığının qorunması nöqteyi-nəzərdən çox düzgün bir addımdır". Əslində kiçik bir məbləğlə Bakı sakinlərini təmizliyə adət etməyi öyrətmək mümkündür. Mənzil Kommunal İstismar Sahələri aid küçə və prospektlərdə "təmiz bina" , "təmiz küçə" müsabiqələri elan edə, təmizliyə riayət edənlərə xırda hədiyyə və mükafatlar təqdim edə bilər . Binalardakı pəncərə və eyvanlarda dibçəklər, gül-çiçək və digər bəzək , yaşıllıq bitkilərinin bol olması ilə bağlı da müsabiqə keçirilə bilər. Bu , təbii ki, mənim subyektiv fikrimdir. Amma mümkün olsaydı.... kaş ki...

Qeyd edək ki, polietilen torba tullantılarının ətraf mühitə mənfi təsirlərini azaltmaq məqsədilə Nazirlər Kabinetinin 2021-ci il 2 fevral tarixli 25 nömrəli qərarına əsasən, elə həmin tarixdən etibarən, market kassalarında məhsulların yığılması üçün nəzərdə tutulan, ölçüsü 15-50 mikron olan polietilen torbalar, ayrıca məhsul növü kimi pulla satılır.

**Artıq ticarət şəbəkələri və mağazalarda iri ölçülü polietilen torbalar 5 qəpiyə, daha kiçik ölçülü torbalar isə 3 qəpiyə satılır. Bu isə o deməkdir ki, bizim şəhərimiz heç vaxt nə Kanada, nə İsveç nə də digər Avropa şəhərləri kimi təmiz, tullantısız, iysiz-qoxusuz olmayacaq...**

**Əntiqə Aslan**

## *Tramp və Harris debatı baş tutdu*



**Dünən gecə ABŞ-da prezident seçkiləri kampaniyası çərçivəsində, respublikaçı Donald Tramp, prezident seçkilərində demokratların namizədi Co Baydeni əvəz edən hazırki vitse-prezident Kamala Harris arasında debat keçirilib.**

Xatırladırıq ki, keçirilən sorğuların nəticələrinə görə, namizədlərin reytinqləri arasındakı fərq minimuma enib.

Rusiyanın xarici işlər nazirliyinin sözçüsü Mariya Zaxarova debatdakı mübarizəni "Titaniklə" "aysberq" arasındakı mübarizəyə bənzədib. "Aralarında 15 dəqiqəlik fərq qalıb. Nə fərqi var, depatda kim qalib gələcək?"

Tramp və Harris arasında debat, Pensilvaniyanın Filadelfiya şəhərində keçirilib. Məhz 19 seçicilik hüququ olan Pensilvaniyanın seçkilərdə əsas rol oynayacağı hər kəsə məlumdur. Bu ştatda 2020-ci il prezident seçkilərində Co Bayden bir faiz artıq səs toplamaqla prezident seçilmişdi. 2016- cı ildə Donald Tramp da Pensilvaniyada az fərqlə qalib gələrək prezident kreslosuna sahib çıxmışdı.

**Rüstəm Hacıyev**

## ABŞ Ermənistana sevgisini sübut etdi: Yardımı 120 milyondan 250 milyon dollara qaldırdı

**ABŞ hökuməti Ermənistana ayrılan maliyyələşmə həddini iki dəfə artırır.**

Adalet.az xəbər verir ki, Ermənistan Baş nazir vəzifəsini icra edən Mher Qriqoryan və ABŞ Beynəlxalq İnkişaf Agentliyinin Ermənistan missiyasının direktoru Con Alelo Ermənistan və ABŞ arasında inkişaf əməkdaşlığı qrant sazişinə düzəliş imzalayıblar.



Məlumatı erməni mediası yayıb.

Bildirilir ki, USAID sazişi çərçivəsində nəzərdə tutulan məbləğin həddi iki dəfədən çox artırılaraq 120 milyon dollardan 250 milyon dollara çatdırılır, həmçinin birgə layihələrin sahələri genişləndirilir.

Genişlənmiş saziş fəlakət risklərinin idarə edilməsi, kibertəhlükəsizlik, ərzaq və enerji təhlükəsizliyi, regional əməkdaşlıq və ticarət, demokratik proseslər və inklüziv iqtisadi inkişaf kimi əsas sahələri əhatə edəcək.

**Xatırladaq ki, bu ilin aprelində Avropa Komissiyasının Prezidenti Ursula von der Leyen Brüsseldə Aİ-ABŞ-Ermənistan üçtərəfli görüşündən əvvəl bildirdi ki, Avropa İttifaqı Ermənistana 270 milyon avro məbləğində qrant yardımı ayıracaq:" O qeyd edib ki, bu vəsait qarşıdakı 4 il ərzində ayrılacaq: "Biz Ermənistan iqtisadiyyatının və cəmiyyətinin şoklara dayanıqlı və güclü olması üçün investisiya qoyacağıq, eyni zamanda, Ermənistanda kiçik və orta sahibkarlığı dəstəkləyəcəyik".**

**Ə. Rəşid**

# Allahın bu dünyaya bəxş etdiyi Cənnət: Qənirsiz, təkrarsız Kəlbəcər!

**Məni tanıyanlar bilir, uşaqlığımın yay tətilləri düz 9-cu sinfi bitirənə qədər Kəlbəcər yaylaqlarında: Taxtabaşıda, Zülfüqarlıda keçib. Ona görə də o yerlərin daşından-çınqılından tutmuş meşələrinə, şəlalələrinə, bulaqlarına, çaylarına, yamaclarına qədər bütün gözəllikləri tər-təmiz uşaq beynimə əbədi həkk olub.**

Hələ birinci Qarabağ müharibəsi başlayarkən tabut-tabut ellərimizə gələn şəhidlərimiz haqqında "Yeri cənnət olsun" cümləsini eşidəndə elə bilirdim ki, böyüklərimiz həmin o cənnəti Kəlbəcər mənasında deyir.

Məsələn, "məkanı Kəlbəcər olsun". Çünki o günə qədər elə bilirdim ki, cənnət elə Kəlbəcərdir. Kəlbəcərdən gözəl yer , məkan yoxdur, olmayıb, ola da bilməz!

Sonra mənfur düşmənlərimiz havadarları ilə birgə bizi yurd -yuvamızdan perik saldı, qovdu bizi cənnətimizdən...

Hə, bax elə o vaxtdan çöllərə düşdük, qapılarda qaldıq, çadır şəhərciklərində, yataqxanalarda dəmir yollarında vaxtı bitmiş qırıq vaqonlarda yaşadıq. Əslində ölümə bərabər bir yaşam başladı. Amma o ölümə bərabər yaşamın içində itibatmadıqsa , deməli, səbəb cənnətlərimizə qovuşmaq ümidi oldu!

Jurnalist ixtisası üzrə təhsilimi bitirdikdən sonra işləməyə başladım. İşimlə bağlı bu günə qədər Azərbaycanın dağlıq rayonlarının demək olar ki, hər birində oldum. Quba, Daşkəsən, Gədəbəy, Göygöl, Qusar, Lənkəran, Masallı, Qəbələ, Oğuz, Şamaxı, Şəki, Ağsu və s. Hər bir rayonun öz gözəllikləri , öz özəllikləri unikallığı vardı.

Amma heç biri mənim körpə, tərtəmiz beynimə həkk olan Kəlbəcəri əvəz edə bilmədi. Özüm Ağdamda doğulub -böyüsəm də 30 illik vətən həsrətli,yurd nisgilli yazılarımın başında Kəlbəcər adı gəlib. Hətta Kəlbəcərlə bağlı 3 hissəli "Ömrümün köç günlüyü" povestimi belə o həsrəti, o nisgili xəfiflətmədi, azaltmadı.

Bu məqaləni oxuyanların bir çoxu soruşacaq ki, axı, Kəlbəcəri digər bir -birindən gözəl təbiəti olan dağlıq rayonlardan üstün edən nədir ? Axı, həmin rayonlarda da Kəlbəcərdə olduğu kimi uca dağlar, zümrüd meşələr, gurlayan şəlalələr, şaqraq səsli çaylar, zümzüməli bulaqlar, xalıya bənzər çəmənlər mövcuddur? Niyə axı, Kəlbəcər üstündür?!

Həə, indi gəlin nənimizdən- babamızdan eşitdiyimiz, gözlərimizlə gördüyümüz Kəlbəcərin üstünlüklərini sadalamağa!

Birincisi - and içərəm ki, sıx meşələri, zümrüdü yamacları, zəngin bitki örtüyü ilə nəinki Azərbaycanda , heç bütün Qafqazda Kəlbəcərə tay olacaq bir ərazi yoxdu. Çünki hələ sovet dövründə alimlərin tədqiqatları sayəsində məlum olmuşdu ki, Kəlbəcər ərazisində 2 mindən artıq bitki növü mövcuddur. Həmin bitki növlərinin böyük əksəriyyəti də Allahın möcüzəsi kimi bilinən dərmanlar, çarələrdən ibarət idi. Nənəm yuxusu ərşə çıxana, əsəbləri yerində olmayana dazıotu dəmləməsi içirərdi.

Nənəmin və anamın birləşib saç üstə bişirdiyi, barmaqlarımızın beşini də yaladığımız Qırxbuğum kətəsi başdan ayağa bir dərman deposu olduğunu böyüyəndən sonra anladım. Sən demə, mədə, onikibarmaq bağırsaq xoralarını, dizenteriyanı, qaraciyər, ağciyər vərəmini, dəri, malyariya xəstəliklərini, şişləri, podaqra və babasili həkimsiz -təbibsiz sağaldır. Bəli, Qırxbuğum bir çox rayonlarda yetişir, amma heç bir rayonun ərazisində bitən bu bitki Kəlbəcərdəki Qırxbuğum qədər effektə malik deyil. Yox e, çaşırın, baldırğanın, qatırquyruğunun, itburnunun, maralçiçəyinin, qantəpərin, gülxətminin, dəvədabanının, qoyunqulağının, quzuqulağının, kəkikotunun, zirincin zirənin, lilparın faydalarını yazmaq fikrim yoxdur.

Təsəvvür edin, 280 min hektar ərazisi meşələr olan bir rayonun havası necə olar? Hələ nəzərə alın ki, Kəlbəcər dəniz səviyyəsindən 1500-3800 metr yüksəklikdədir. Sözün həqiqi mənasında əsil dərman, əsil məcun!

Dağdan Arana enəndə yanaqlarımızın və burnumuzun lalə kimi qıpqırmızı rəngi uzun müddət solmazdı.

O meşələrin bal dadlı, xüsusi tamlı çiyələyini, moruğunu, armudunu, əzgilini, zoğalını, ayı fındığını ("Qırmızı kitab"a düşüb), fıstığını, qarelləsini və s. məcun kimi digər meyvələrini sadalamaqla bitən deyil ki... Hələ Kəlbəcər meşələrinin palıdının, vələsinin, cökəsinin gövdəsini qucaqlayarkən o xoş rahiyəni heç bir rayonlarımızdakı meşə ağaclarından duymamışam. O qoxuda bir sərinlik, bir nəmişlik, çiçəklə otun doğranıb bir-birinə qarışdırılmış ecazkar bir ətir vardı. Yəqin ki, bu cümləni oxuyan kəlbəcərli elə yazını oxuya-oxuya dediklərimi ürəklərində dəfələrlə təsdiq edəcək! Hələ meşədən ardıc sürüyüb gətirdiyim, nənəmin o ardıc budaqları ilə təndiri qalaması, çörək bişirməsi elə bilirəm dünən olub.

Maraqlıdır ki, o vaxt may ayının sonuna yaxın aran rayonlarının demək olar ki, böyük əksəriyyətinin qoyun-mal fermaları Kəlbəcər yaylaqlarına sürülürdü, amma bu köçlərin , bu sürülərin nə bitki aləminə ziyanı olurdu, nə yaşıllıq ərazilər azalırdı.Kəlbəcərin zənginliyi bitib tükənmirdi!

O da yadımdadır ki, babam biz uşaqların - nəvələrinin tez-tez meşəyə getməsini istəmirdi. Deyirdi ki, bir gün ayı sizi yeyəcək. Düzdür, heç vaxt meşədə qarşımıza ayı çıxmadı, amma çox sonralar oxudum ki, burda dağ keçisi də (bezuar - Qırmızı kitab"a düşüb ), cüyür də varmış hələ desən, qonur ayı da, bəbir də , canavar da çox imiş. (Hətta Kəlbəcərdə bir "Canavar" adlanan yüksəklik də var) Gecələr isə çaqqalların , tülkülərin ulartısı ətrafda əks-səda verərdi. Niyəsə o vaxt qarşımıza çıxmayıb.

Yadımdan çıxmamış onu da deyim ki, bizim Taxtabaşı yaylağında Qərvənd binəsinin gəncləri tez-tez ova gedərdilər. Qaban ovuna( çöl donuzu) hərdən keçi də, dovşan da, qırqovul da(ular) gətirərdilər.

Biz uşaqların ən çox qorxduğu isə Kəlbəcərin dağlarında cövlan edən qartallar idi. Guya bu qartallar uşaqları caynağına alıb qaçıra bilirmiş.

Sonradan öyrəndim ki, göydə görəndə iri daşların arxasında qaçıb gizləndiyimiz qartallardan başça toğlugötürəni də (Qırğı növü) qartal hesab edirmişik. Hələ orta ölçülü kəlzləri harda görürdüksə bir neçə gün o dağa, qayalığa tərəf hərlənmirdik. Elə ki, xof canımızdan çıxdı, bezuardan da beş betər qayalıqlara dırmaşardıq.

Qayalıq, dağ demişkən, "dəli" adlandırılan məşhur dağ bu rayonun ərazisindədir.

Babam gəncliyində, müharibə illərində ferma müdiri olduğu üçün kolxozun fermasını Dəli Dağa sürərmiş. Anamın da uşaqlığı Dəli Dağ yaylağında keçib. O deyir ki, o dağa ona görə "dəli" deyirdilər ki, 10 dəqiqənin içərisində Dəli Dağ ərazisində gah gün çıxar, gah dolu düşər, gah yağış yağardı. Həm də yayın cırhacırında! Dağın sinəsində qar əriməzdi, o qədər qalardı ki, hətta qurdlayardı.

Maksimum hündürlüyü 3,616 metr olan Dəlidağ Mıxtökən- Kiçik Qafqazda dağ silsiləsində yerləşir. Amma Murovdağ dağ silsiləsi haqqında da danışmamaq günah olar. Deməli, coğrafiyaşünaslar bildirir ki, silsilənin maksimal hündürlüyü 3,724 metr olan Gamışdağ zirvəsidir. Bəli, düşmənlərimizin, mənfur ermənilərin Murovdağda sinəmizə çəkdiyi dağlar heç vaxt unudulmayacaq.

Yüzlərlə şəhidimizin qanı o zirvəni hər zaman müqəddəs məkana çevirəcək. Rayon ərazisində hündür dağların demək olar ki, hamısın adı var. Hamısının adını yazsam uzunçuluq olar, inşallah özünüz o yerlərə səfər edib, o sıldırım, vahiməli qayalıqların, zirvəsi qar, duman olan dağların möhtəşəmliyini təkrarsızlığını öz gözünüzlə görərsiniz.

Bilirsiniz, Kəlbəcəri cəlbedici edən bir də hansı möcüzədir? Bulaqlar, şəlalələr, çaylar...Bu bütün Azərbaycanın möcüzəsidir. Dağda, qayada, meşədə, düzəndə, fərqi yoxdu, ayağını atdığın hər köşədən bumbuz, dumduru bulaqlar qaynayır, hər bir bulağın da özünə məxsus tamı- dadı.

Məsələn, bizim Qərvənd yurdu Taxtabaşı yaylağında idi və Sünbüllü yurd, Gülnazoğlu yurdu, Hacı Pənahın yurdu, Buzxana yurdu, Boğaz yurdu, Gicitkanlı yurd, Çala yurd, Şurabad yurdu, Çullu yurd, Solaxayıçala yurdu, Köhnə binələr yurdu, Mahmudun yurdu, Ləzgi yurdu, Məndilin yurdu, Səlim bəyin yurdu deyilən ərazilərin hamısı o Taxtabaşı yaylağına aid idi.

Hər yurdun da öz bulağları vardı: Qərvənd yurdunun adamları yurdlarına yaxın bulaqlara adlarda qoymuşdular: Vəli bulağı, Daşlı bulaq, Dəhnəli bulaq, Güllü bulaq, Şəkər bulaq... Bulaqlar böyüklərimiz tərəfindən gözbəbəyi kimi qorunurdu. Elatımız elə düşünürdü ki, bulaq qurusa, böyük fəlakət olar. Onların qorxusundan ora nəinki zibil atmazdıq, heç əlimizdə yediyimiz meyvənin gəzalını da orda qoyub gəlməzdik.



Bulaqlardan danışarkən, nənəm demiş, "ölü içsə dirilər" kimi epitetləri haqq edən mineral bulaqları unutmaq olmaz.El arasında "dirilik suyu "kimi ad çıxarmış İstisu! Alimlərin araşdırmasından məlum olub ki, Kəlbəcərin İstisuyu, adı dünya ilə bir olan Çexiyanın Karlovı-Varı bulaqlarından tərkibinə görə daha zəngin , daha müalicəvidir.

Yəqin ki, tarixlə maraqlananlar bilir. 1139-cu ildə 9 ballıq zəlzələ baş verir, Kəpəz dağın zirvəsi uçub Ağsu çayının qarşısını kəsir və gözəl Göy göl, Maralgöl , Ceyrangöl, Ördəkgöl, Zəligöl, Ağgöl, Qaragöl və Şamlıgöl yaranır haaa, bax, həmin vaxt Kəlbəcər dağlarının qabarması, çatlaması səbəbindən Yuxarı və Aşağı İstisu, Bağırsaq, Keşdək, Qoturlu İstisuyu, Turşsu və s. İstisu mineral bulaqları meydana gəlir. SSRi dönəmində İstisu mineral bulaqlarının üzərində istifadəyə verilmiş sanatoriyalara ölkənin hər yerindən əlacsız xəstələr gəlirmiş, amma evlərinə sağlam qayıdırmış.

Belə faktın birinə özüm şahidəm. O vaxt kəndimizdə bir Peykər nənə vardı. Heç kim onun xəstəliyinə görə, uzun yaşayacağına inanmırdı.

Günlərin bir günü Peykər nənəni oğlu Manaf qucağına alaraq maşına uzatdı və onu Kəlbəcərə apardı. Tam 1 ay sonra Peykər nənə kəndə yanaqları qıpqırmızı, həm də öz ayaqları ilə gəldi. O, köçkünçülük düşəndən sonra həyatla vidalaşdı. İstiliyi 58,8 0C olan o İsyi suyun tərkibində bilirsiniz nələr var? Deyilənə görə, cəmi mineralların sayı 6,7 qrama çatan 1 litr suyun tərkibi göstərir ki, litium, brom, yod, mərgümüş, fosfor, sink, med, nikel, maqnezium, dəmir və s. kimyəvi maddələrlə zəngindir.

Peykər nənə kimi milyonlarla xəstəni ölümdən qurtaran isti su haqqında danışan həkimlər onu da qeyd ediblər ki, me`də-bağırsaq xəstəliyinə, maddələr mübadiləsi pozğunluqlarına, sinir sistemi, hərəkət orqanları və ginekoloji, uroloji xəstəliklərə tutulanlar həmin suda davamlı çimərsə, o sudan içərsə olar anadangəlmə sağlam adam! Hələ deyirlər ki, İstisu mineral bulaqlarının suyundan alınan duzlar xronik qəbizlik, qaraiyər, öd kisəsi, qastrit xəstəliklərin müalicəsində də əsl loğmandır.

Yəqin ki, oxularımıza da aydındır ki, bulaqları, suyu bol olan Kəlbəcərin çayları və şəlalələri də həm çoxdu, həm də təkrarsızdı.

Biz Zülfüqarlı İstisuyuna yaylağa gedəndə orda çayın adın yerli əhali Tutxun çay deyirdilər. O vaxt-1986-cı ildə həmin çay məcrasından çıxmış, istirahətə gəlmiş xeyli adamı sularına qərq etmişdi.

Ölənlər çox olmuşdu deyə, əhalidən ölənlərin sayı gizlədilirdi. Deməyim odur ki, bir yerin ki, Dəli Dağı varsa, orada çaylar da heç "ağıllı" olmur. Ölkəmizin7-ci böyük çayı olan, mənbəyini bu dağlardan götürən, uzunluğu 200 km çatan Tərtərçay Kür çayının sağ qoludur, Tutxun çay isə Tətərçayın sağ qoludur. uzunluğu 35 km-dir.

Uzaq olsun, sel vaxtı ora düşən adamın sağ tikəsi çətin ələ gələr. Tərtər çayının sol qolu olan Levçay da36 km), Torağaçay (uz.35 km) elə Tutxun qədər dəli və bolsulu çaydır.

Ümumiyyətlə, Kəlbəcərdə Zəylik çayı, Keşdək çayı, Qaraağac çayı, Moz çayı, Qara su, Qaraxan çayı, Ağ çay, Söyüdlü çayı, Meydan çayı, Yanşaq çayı və s çaylar da daxil olmaqla 50-dən çox çaylar mövcuddur. Təbii ki, hündürlükdən axıb gəldiyi üçün bu çayların hər birində o qədər şəlalələr var ki, saymaqla bitməz.

Bir rayonda bu qədər su olarsa , dövlətimiz və xalqımız bundan niyə səmərəli istifadə etməsin . Uzun sözün qısası, Ağdərə, Ağdam, Bərdə, Goranboy, Yevlax və Ağcabədi rayonlarının susuzluqdan cadar-cadar olmuş 100 min hektarlarla torpaq sahəsini suvarma suyu ilə təmin etmək üçün 1976-cı ildə Tərtərçayın üzərində, Ağdərə ərazisində Sərsəng Su Anbarı yaradılır.

İndi də, təkrarsız Kəlbəcərin yeraltı sərvətlərindən sizə bilmədiyiniz məqamları anladacağam. Məsələn, siz bilirdiniz, Azərbaycanda ən böyük qızıl yataqları məhz bu rayonumuzun ərazisində yerləşir? Zod qızıl yatağı! Tarixçilərimiz iddia edir ki, hələ insanlar 4-5 min il əvvəl buralarda qızıl istehsal ediblər.

Amma qanuni şəkildə bu qızıl yataqlarının işlənməsi 1976-cı ildən başlayıb. İqtisadçı-alim Vüqar Bayramov da deyib ki, Söyüdlü yatağının qızıl ehtiyatları 115 tondan çox qiymətləndirilir.

**Eyni zamanda, Ağduzdağ və Tutxun qızıl yataqlarında 15 tona yaxın qızıl var. Çox təəssüf ki, uzun illər doğma Kəlbəcərimiz işğalda qaldığı üçün bu qızıl yataqlarından ermənilər daha çox faydalanıb. Təsəvvür edin, təkcə Zod mədəninin qanunsuz istismarı nəticəsində Ermənistan büdcəsi təkcə 2019-cu ildə 52 milyon ABŞ dolları qazanıb. Ermənilərin bu qazancını 30 ilə vurun...**

(ardı 6-cı səhifədə)

# Ətin kilosu 5 aydır 20 manatdırsa, o 4 faiz iqtisadi artım hardadır?

**Dövlət Statistika Komitəsindən bildirilib ki, iqtisadiyyatın neft-qaz sektorunda əlavə dəyər 0,2 faiz, qeyri-neft-qaz sektorunda isə 7 faiz artıb. Yəni, cari ilin yanvar-avqust aylarında ölkədə 80960,3 milyon manatlıq və ya əvvəlki ilin eyni dövrü ilə müqayisədə 4,3 faiz çox ümumi daxili məhsul istehsal olunub.**

Bir sözlə, əhalinin hər nəfərinə düşən ÜDM(ümum daxili məhsul) 7941,3 manata bərabər olub.

Oxucularımız üçün bildirək ki, ÜDM verilmiş zaman müddətində ölkə daxilində istehsal olunan əmtəə və xidmətlərin bazar dəyəridir. ÜDM, xüsusi zaman intervalı müddətində istehsal olunan mal və xidmətlər daxildir.







Xəbər verirsiniz ki, əhalinin hər bir nəfəri pərakəndə ticarət şəbəkələrindən orta hesabla ayda 456 manatlıq mal alıb. Hörmətli SK xahiş edirəm, 10 günlük bazarlıq siyahımızı oxuyasınız və cavab verəsiniz: 1 kq quzu əti, 1 kq mal əti, 1 kq Ankor yağı, 1 kq uzun düyü, 1kq yumru düyü, 1 balıq, 1 banka bal, 1 kq pendir, kartof-soğan , meyvə- tərəvəz, yuyucu məhsullar, sabun, şampun, "paraşok", 2 kq qatıq, süd və s. qiyumətini hesablayasınız. sonrada 2 ongünlüyü də onun üzərinə gələsiniz.

Əslində isə Azərbaycan xalqı ərzağa 456 manat yox , daha çox pul xərcləyir. Bu o demək deyil ki, ailəni təmin edə bilir, Xeyir! Sadəcə bütün ərzaqlar "od" qiymətinədir. Bizim evdə 3 nəfər var 456+456+456= 1368 manat.... Mən bu qədər pulu hardan alıram ki, ərzağa verim? Bir qarın ac, bir qarın tox yaşamaq yaşamaqdır ki?

Bəlkə bir dəfə doğru bir statistika yazasınız?

Daha sonra Dövlət Statistika Komitəsi digər məlumatında da bildirib ki, cari ilin avqust ayında əvvəlki aya nisbətən ayrı-ayrı qida məhsullarından daha çox bahalaşma uzun və yumru düyünün, mal və qoyun ətinin, kolbasa məmulatlarının, kərə və zeytun yağlarının, limonun, əriyin, xiyarın, sarımsağın, soğanın, kartofun qiymətində baş verib.

Quzu ətini 20-21 manatdan aşağı satan yoxdu e...

**O, 4 faiz artım nədə olub onu açıq deyin, bilək...**

**Əntiqə Rəşid**

# Bəşəriyyəti buxara çevirə bilən "Bütün Bombaların Atası"nın sınaq günü

**Bu gün bəşər tarixində 2-ci ən dəhşətli hadisənin il dönümüdür.**

Adalet.az xəbər verir ki, 2007 -ci il 11 sentyabr. Bütün bəşəriyyət həmin gün Rusiyanın sınaqdan keçirdiyi dəhşətli silahdan danışırdı Rusiya "Bütün Bombaların Atası" kimi tanınan ən böyük adi silahı sınaqdan keçirdiyini və bu silahla əbədi rəqibi olan ABŞ-a meydan oxuduğunu bir daha ortaya qoydu.

Məlumatlarda deyilir ki, Rusiyanın bu nəhəng bombası havada partlayır və oksigenlə reaksiyaya girərək daha da alovlanır və dağıdıcılıq qabiliyyəti bir az güclənir. Hərbi ekspertlər dağıdıcı gücünə görə bu bombanı taktiki nüvə silahları müqayisə edirlər. Məsələn, hərbi ekspert Ramil Məmmədli mediaya açıqlamasında bildirib ki, bu bomba ABŞ-ın Hərbi Hava Qüvvələrində vaxtilə ən güclü qeyri-nüvə silahı hesab edilən "Massive Ordnance Air Blast" başqa sözlə, "bütün bombaların anası" ləqəbli GBU-43 / B silahına qarşı hazırlanıb. Rusların "bütün bombaların atası" ləqəbini verdiyi "Vakuum bombası" hazırda dünyanın ən güclü qeyri-nüvə silahı hesab olunur. Yüksək dağıdıcı gücə malik bu bomba amerikalı həmkarı ilə müqayisədə çəkisinə görə daha yüngüldür, lakin nanotexnologiyanın istifadəsi sayəsində 4 dəfə güclüdür və bir dəfəyə 20 dəfə çox ərazini vura bilir. Maraqlıdır ki, son dövrlərə qədər bu hərbi sursat haqqında məlumatlar olduqca gizli saxlanılıb. Hətta bu yüksək öldürücü gücə malik bombanın həqiqi təyinatı, tərtibatçısı, istehsalçısı və istehsal sayı belə məlum deyil".








Ekspert bombanın öldürücü gücündən danışaraq bildirib ki, vakuum bombası insanın daxili orqanlarını məhv edir:" Havadakı oksigendən istifadə edərək yüksək istilik partlayışına səbəb olan bomba ətrafa daha böyük ziyan vurur. "Vakuum, başqa sözlə termobarik bomba istilik əsasında təzyiqlə işləyən qeyri-nüvə bombasıdır.

Neft və havanın birləşməsindən ibarət bombanın partlama mexanizmi yaratdığı təzyiqlə kiçik bir atom bombasına bərabər dağıdıcı gücə malikdir. Partlayış havada baş verir. Bombanın əmələ gətirdiyi kostik maddədən ibarət buludun partlaması nəticəsində isə çox yüksək temperatur əmələ gəlir. Təyyarədən atılan termobarik bombanın birinci kamerası müəyyən yüksəklikdə partlayır. Bu partlayışdan çıxan partlayıcı toz dağıdılmalı olan əraziyə düzülür. İkinci mərhələdə bombanın ikinci kamerasındakı partlayıcı aerozol alovlanır və ətrafdakı partlayıcı toz əmələ gəlir. Yaranan geniş vakuum dalğası məhv edilən ərazidə təzyiqi azaldır. Təsir zonasındakı bütün canlılar buxarlanır".

Qeyd edək ki, 2 il əvvəl İngiltərə mətbuatı Rusiya Ukraynaya qarşı "bütün bombaların atası" kimi tanınan 44 tondan çox TNT-yə bərabər silahdan istifadə edəcəyini yazırdı. Suriyada da istifadə edildiyi iddia edilən bombanın döyüşün əvvəlində ruh yüksəkliyini pozmaq üçün atılacağı iddia edilirdi.

**Əntiqə Aslan**

# Keşiş Baqrat yenidən Kirantsdan yürüş başladı: "Get, təzədən gəl" əmri

**Xatırlayırsınızsa, ötən ayın əvvəlində erməni keşiş, revanşistlərin yeni lideri Baqrat Qalstanyan Ermənistanda sentyabrın 4-də böyük mitinq olacağını elan etmişdi.**

O vurğulamışdı ki, hansı istiqamətə gedəcəyimizi mitinq zamanı müəyyən edəcəyik:" Mübarizəmizin alternativi yoxdur, bu itkilər zəncirini qırmaq üçün qalib gəlməliyik".Adalet.az xəbər verir ki, rəhbərlik etdiyi yürüş iştirakçıları İrəvana yaxınlaşır. Xəbəri erməni mediası və sosial şəbəkələr yayıb. Hetq.am yazır:"Baqrat Srbazanın başçılıq etdiyi "Vətən Uğrunda Tavuş" hərəkatı ötən gün, mayın 9-da Respublika meydanında mitinqin keçiriləcəyi Yerevana yürüş edir. Erməni Apostol Kilsəsinin Tavuş Yeparxiyasının rəhbəri, arxiyepiskop Baqrat Qalstanyanın rəhbərlik etdiyi bu hərəkat yepiskopun qeyd etdiyi kimi, həqiqət və ədalət naminə yalan və yalana qarşı mübarizədir. Hərəkat iştirakçıları Tavuşda gedən demarkasiya prosesinə son qoymaq istəyirlər. İrəvana yaxınlaşdıqca yürüş iştirakçılarının sayı artır". Görünən odur ki, Karentsdan Abovyana gedən yolun sonu Ermənistanın hökümət binasının qarşısına qədər olacaq.

Qeyd edək ki, yürüş mayın 4-də Tavuş vilayətinin Kirants şəhərindən başlayıb.

***P.S.** Politoloq Asif Nərimanlının dediyi kimi, Keşiş Baqratın "Vətən üçün Tavuş hərəkatı" siyasi korporasiyaya bənzəyir: kilsə, həm Qərbdə, həm Rusiyadakı diaspor, "Qarabağ klanı", Ermənistanda Moskvaya yaxın qüvvələr, bir sözlə Paşinyana qarşı olan hər kəs burada birləşir, lakin hələ də Nikolun taxtını laxladacaq gücdə deyil. Bir sözlə, Baqratı idarə edənlər, maliyyə verənlər tapşırıb ki, get, təzədən gəl, bəlkə bu gəlişinin içindən bir zad çıxdı.*

**Ə. Rəşid**

**Ötən gün 4-cü Krım Platforması sammitində Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan iştirakçılara videomüraciət edib.**

Ərdoğan deyib ki, Krımın Ukraynaya qaytarılması beynəlxalq hüququn tələbidir:"Türkiyə Ukraynanı və onun beynəlxalq səviyyədə tanınmış sərhədləri çərçivəsində onun ərazi bütövlüyünü dəstəkləyir.



Ukraynanın ərazi bütövlüyü, suverenliyi və müstəqilliyinə dəstəyimiz sarsılmazdır. Krımın Ukraynaya qaytarılması beynəlxalq hüququn tələbidir", - deyə Ərdoğan qeyd edib.

Türkiyə lideri Krım tatarlarına əlavə dəstəyi də istisna etməyib: "İnanıram ki, qarşıdakı dövrdə Krım tatarlarının hüquqlarının gücləndirilməsi üçün əlavə addımlar atılacaq".

# Ərdoğanın Krımla bağlı çıxışı ruslardan çox ermənilәri qəzəbləndirib

Əslində Türkiyə lideri videomüraciətində ermənilərə aid bir cümlə yox, heç bir söz belə işlətməsə də ruslardan daha çox ermənilər bu çıxışa əsəbləşib.

Hazırda ermənilər sosial şəbəkələrin erməni seqmentində Rusiyaya xoş getmək üçün Türkiyə dövlətinə və xalqına min bir böhtan atmaqla məşğuldur.

Hətta "Hraparak" nəşri bununla bağlı məqalə dərc edərək qeyd edir ki, Türkiyə prezidenti bu platformada ilk dəfə deyil ki, oxşar məzmunlu mesaj verir.

**Qeyd edək ki, xəstə ruhlu , oğru xislətə malik ermənilər Krıma da iddialıdırlar. Guya o ərazilər də qədim erməni torpaqları olub. Hətta ötən il Ermənistan prezidentinin milli təhlükəsizlik üzrə baş məsləhətçisinin sabiq köməkçisi Vladimir Poqosyan Noyan Tapan TV" YouTube kanalında çıxışı zamanı bildirmişdi ki, Ermənistan Krımı, Soçini və Armaviri ələ keçirməlidir:"Əgər sərhədlər yoxdursa, o zaman Armavir, Soçi və Krımı götürə bilərik. Krımın ümumən 70%-i ermənilərdən ibarətdir".**

**Əntiqə Rəşid**

## *Qarabağ Universitetində dərslər bu tarixdə başlayacaq*

**Qarabağ Universitetinə qəbul olan tələbələrin yerləşdirilməsi prosesinə sentyabrın 15-16-dan başlanılacaq.**




Adalet.az xəbər verir ki, bunu elm və təhsil naziri Emin Əmrullayev jurnalistlərə açıqlaması zamanı deyib.

O bildirib ki, Universitetdə ilk tədris ili olduğu üçün birinci həftə tanışlıq həftəsi olacaq, tədris isə sentyabrın 23-dən etibarən başlayacaq. Bu oxşar təcrübə Türkiyə-Azərbaycan Universitetində də tətbiq olunacaq: "Əlavə təqaüdlərlə bağlı tələbələrin qeydiyyatının başa çatmasını gözləyirik. Artıq 99 faiz tələbənin qeydiyyatı başa çatıb, imtina yoxdur. Tələbələrin hər biri təqaüdlə təmin olunacaq. Tədris ili başladıqdan sonra tələbələrə 100-150 manat arasında əlavə təqaüdlər veriləcək. Eyni zamanda, bəzi özəl şirkətlər də prosesə qoşularaq tələbələrə əlavə təqaüdlərin verilməsi təşəbbüsünü göstəriblər".

## *Lansberqis: "Ukrayna Rusiyanın hava limanlarını dağıtmalıdır"*

**Litvanın xarici işlər naziri Qabrielyus Landsberqis, özünün X sosial şəbəkəsində, Qərbi Ukraynaya Rusiyanın hava limanlarını dağıtmağa icazə verilməyə çağırıb.**



"Uzun müddətdir İrana qarşı sanksiyaların tədbiq olunmasına ayırdığımız vaxtda, Rusiyanın hava limanlarına qarşı da asanlıqla sanksiyalar tədbiq edə və Ukraynaya bu limanları məhv etməyə imkan yarada bilərik"- deyə litvalı diplomat yazır. Daha əvvəl isə, Radanın deputatı Aleksey Qonçarenko, Tehranın Moskvaya Ukraynaya zərbələr endirmək üçün yaxın məsafəli raketlər verməsi ilə bağlı yayılan xəbərlərə görə, İrana raket zərbələri endirməyə çağırmışdı.

İran tərəfi yayılan bu xərləri təkzib edərək, məlumatların əsası olmadığını bildirmişdi.

**Rüstəm Hacıyev**

# Allahın bu dünyaya bəxş etdiyi Cənnət: Qənirsiz, təkrarsız Kəlbəcər!

(əvvəli 4-cü səhifədə)

Alimlərimizin araşdırmasına əsasən qeyd edək ki, digər filiz (metal) yataqlarından Kəlbəcər ərazisində civə, sürmə (Ağyataq, Şorbulaq, Lev), xromit (Göydərə, Kazımbinə), mis-molibden (Teymuruçandağ) yataqları bu torpağın sözün həqiqi mənasında qiymətli olduğunu ortaya qoyur . Hətta perlit adlı qiymətli bir sərvət var ki, onun da yataqları Azərbaycan üzrə yalnız Kəlbəcərdə, daha dəqiq Keçəldağ deyilən ərazidədir!

Keçəldağ perlit yatağının ehtiyatları 4,5 mln.kub metrdir. İndi bir çoxunuz perlitin nə olduğunu təbii ki mənim kimi bilmirsiniz. Amma alimlərimiz deyir ki, Perlitin qeyri-adi şişmə







xassəsinə görə bir çox sahələrdə, o cümlədən sənayedə, tikintidə, kənd təsərrüfatında geniş istifadə edilir.

Bitmir, bitmir sərvətlərimiz! Geologiya-mineralogiya elmləri namizədi, dosent Rəşid Fətəliyev Kəlbəcərin yeraltı sərvətləri ilə bağlı bir məqaləsində deyir ki, Əlvan daşlardan gözəl görünüşə malik oniks və nefritoid yataqlarını, bir neçə üzlük və tikinti daşı yatağını, Keşdək gil, Çəpli qum-çınqıl və nəhəng ehtiyatlara malik (11 mln. kub m.) Kilsəli mişar daşı yatağını misal göstərə bilərik.

Bu tikinti materialları yataqlarının ehtiyatları təkcə Kəlbəcərin deyil, bütün Qarabağın bərpa-quruculuq işləri üçün çox önəmli yerli xammal mənbəyidir.

Mənim fikrimcə, Kəlbəcər Azərbaycanın turizm mərkəzinə çevrilərsə, Azərbaycan büdcəsinə neft və qaz yataqlarının istismarından daha çox gəlir gətirər.

Bilirsiniz niyə belə düşünürəm? Deməli, Kəlbəcərdə qədim insan məskənləri mövcuddur. Bu ərazi hələ qədimlərdən insanların yaşaması üçün əlverişli ərazi olub. Elə alimlər də bildirir ki, "Kəlbəcər" toponiminin mənşəyi qədim türk dilində "çay üstündə qala" deməkdir: Bu unikal təbiət möcüzəsinin yerləşdiyi qayada Tərtərçay çayı boyunca cərgə ilə düzülmüş qədim süni mağaralar mövcuddur. Kəlbəcərdəki oronomik toponimlərin hamısı türk mənşəlidir. Bir sıra qədim türk tayfalarının adı bu gün də bu toponimlərdə yaşayır."

Yəni, sözümün canı odur ki, əgər burda qədim insan məskənləri olubsa, o zaman qalalar, qəsrlər, məbədlərin də olması təbiidir.

Təsəvvür edin ki, burada son tunc ilk dəmir dövrünə aid abidələr mövcuddur.Misal üçün,Dovşanlı kəndində Dovşanlı nekropolu , Sırxavənd kənddə Balıqaya nekropolu ən qədim tariximizi təsdiq edən abidələrdir. Hələ Həsənriz, Vəng, Çərəkdar , Kolataq, Qocaqot, Dəstəgir, Qasapet kəndlərindəki məbədləri öz gözlərinizlə görsəniz mənim fikrimi təsdiqləyərsiniz.

Məşhur Xudavəng və Gəncəsər monastır - kompleksi Vəng kəndindədir və Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi tərəfindən dünya əhəmiyyətli abidə kimi qeydiyyata alınıb. Bundan başqa Kəlbəcər ərazisində 50-yə yaxın qədim abidə və tikililər var ki, hər birinin tarixi bir maraqlı hekayədir. Yeri gəlmişkən, Kəlbəcər ərazisində 3500-dən artıq "Qaya təsvirləri" qeydə alınıb.

Yazımı burada bitirmək istəyirəm, amma bu o demək deyil ki, Kəlbəcər haqqında olan fikirlərim, təəssüratlarım, xatirələrim bitdi. Xeyir ! Kəlbəcər mənim məskən kimi də, axirət kimi də cənnətimdir.İndən sonra 100 il oturub Kəlbəcəri vəsf etsəm də yorulmaram, duyğularımı bitirə bilmərəm! Bax, indi bu sətirləri yazıram , gözlərimin qarşısında Kəlbəcərin hər küncü-bucağı canlanır, həyəcanlanıram, sevinirəm, gözlərim parlayır, ürəyim çırpınır. Sanki gənc qızam və sevgilim haqqında yazıram, sevgilimə olan sevgimdən yazıram. Eşqimi izhar edirəm...

Yadıma düşmüşkən bunu da deyim: Bir dəfə redaksiyamızda yazıçı Aqil Abbasın Kəlbəcərlə bağlı söhbətini dinlədim. O söhbətdən sonra anladım ki, mənim kimi Kəlbəcəri cənnət görənlər , onun cənnəti kimi həsrətini çəkənlər çox imiş. Tanınmış yazıçı dedi ki, hansısa bir mütəfəkkir İtaliyanın gözəlliklərini vəsf edirmiş:" Deyib ki, Allah bütün dünyanı insanlar üçün yaratdı, amma İtaliyanı özü üçün yaratdı. Yəni, xüsusi güc sərf edərək, xüsusi sevgi ilə... Amma mən deyirəm ki, Allah Azərbaycanı azərbaycanlılar üçün, Kəlbəcəri özü üçün yaratd ..."

**Hə, mənim düşündüyümü çoxu düşünürmüş Cənnət və yaxud Kəlbəcər!**

**Əntiqə Rəşid**

## "İstisu", "Yesintuki" nə qədər istəsəniz için...



**Bu fikiri məşhur həkim, tibb elmləri namizədi Rəşid Mahmudov səsləndirib.**

Çünki bir çox ekspertlər, mütəxəssislər nə vaxtdır bar-baxırırlar ki, "İstisu" və digər müalicəvi əhəmiyyəti mineral suları içmək insan səhhəti üçün təlükəlidir. Qəribədir ki, bu , məsələlərə psixoloqlar qoşulub. Bax bu,ağlamalıdır,gülməli yox ha, məhz aglamalı. Bəzi psixoloqlar özlərini həkim hesab edirlər. Onlar nəinki həkim, heç yaxşı psixoloq da deyilər.

Rəşid müəllim fikrini davam etdirərək bildirir ki, böyrək xəstələri istənilən qədər " İstisu" içə bilər. O ki, qaldı " Yesintuki" yə ondan da mədə- bağırsaq xəstələri qəbul etsələr heç bir çətinlik yaratmaz.Eyni zamanda Kəlbəcərin " İstisu" yu dünyada oxsarı olmayan müalicəvi əhəmiyyətli mineral su mənbəyidir.

Onu ermənilər Avropaya şüşəsini 2 dollara satırdılar. Sadəcə olaraq sapı özümüzdən olan baltalar o suyu gözdən salmaq ü?ün hər bir vasitədən istifadə edirlər.Bu, isə qəbul edilən deyildir!

## Elektron resept, yoxsa...

**Biz uzun illər ona öyrəşmişik ki, həkimin yanına getmişik, həkim də bizə dədə- baba qaydasında müalicə olunmaq üçün bir resept yazıb.**



Həkimin yanından çıxıb gedərək o dərmanları axtarıb tapmışıq. İndi isə xeyli vaxtdır ki, ölkəmizdə yeni sistemə keçilib, yəni elektron reseptlər yazılar. Biz hər bir yeniliyi alqışlayırıq. Çünki yeni texnologiyalar artıq həyatımızın içindədir.Və bu gün əksər həkimlər elektron resept yazılar. Amma bunun da mənfi tərəfləri varmış.

Belə ki, yaxın vaxtlar da elektron reseptlərdən birini də həkim mənə yazmışdı. Necə oldusa, on gündən sonra telefonumun mesaj yerinə baxanda peseptin silindiyini gördüm. Gərək, yenidən həkimin yanına gedəm, növbəsində dayanım, xeyli vaxt itirəm.

Ona görə də həkimlər elektron reseptlər yazanda, ənənəvi resept də yazsalar yaxşı olar, yeni elektron reseptlər sistemdən silinəndə ənənəvi reseptlərdən pasiyentlər istifadə etsinlər və sonra da vaxt itirib əsəbləşməsinlər!

## Cərimələrdən şikayətlənən sürücülər...



**Bu gün əksər sürücülər onların cərimə olunmasından narazılıq edirlər.**

Məsələn, deyirlər ki, sərnişinə düşürən kimi, bizə elektron cərimə gəlir. Guya avtobus yoluna çıxmışıq! Halbuki heç bir yola çıxmamışıq. Hələ bu da hamısı deyil. Bulvarda, eləcə də digər məkanlarda maşını saxlayıb, elektron qayda da ödəniş etməlisən.

Bir çox sürücülər də texnologiyanı bilmədiyi üçün bunu edə bilməyəndə bir neçə dəqiqədən sonra onların mobil telefonuna mesaj gəlir ki, bəs sən qanunu pozduğuna görə, bu qədər cərimə ödəməlisən. Çıxış yolu ona qalır ki, hər bir sürücü qanuna əməl etsin və cərimələnməsin!

**EMİL FAİQOĞLU**



# İranın Ermənistana can yandırması: Sanki qonşuluqda iki erməni dövləti var

**Yəqin ki, xatırlaqyırsınız:Bu ilin aprelində İranın "IranAir" aviaşirkətinə məxsus "Boeing-747" yük təyyarəsi son üç gündə üç dəfəi, Tehrandan İrəvana gəldi. Həmin vaxt Rusiyanın "Telegram" kanallarında deyildi ki, təyyarə əvvəllər İran İnqilabı Keçikçiləri Korpusunun (SEPAH) istifadəsində olub və hava nəqliyyatı əsasən silah daşımaq üçün istifadə edilib.**

Əslində təəccüblənmədik. Çünki son 35 ildə İranın Ermənistana qucaq açması gözümüz qarşısında baş verir. Medianın xəbərlərində də deyildi ki, İran 600 ədədə yaxın "Dehlaviya" və "Almas" tank əleyhinə raket sistemlərini Ermənistana ötürüb. Sonuncu Qarabağ müharibəsində də İranın mövqeyi bizi heyrətə saldı. Ən son isə açılacaq Zəngəzur Dəhlizinə Ermənistandan çox İran qarşı çıxır. Bir sözlə adama elə gəlir ki, sərhəddimizdə əslində iki erməni dövləti var və o iki dövlətdən birinin adı İrandır. Çünki İran öz vətəndaşlarına da göstərmədiyi qayğını ermənilərə göstərir.

Adalet.az xəbər verir ki, ötən gün İranın "Qızıl Aypara" təşkilatı Lori Mərzdə baş verən təbii fəlakətdən zərər çəkənlərə maddi yardım edib.

Hökumətin saytında yer alan xəbərə görə, təşkilat "Ermənistan Qızıl Xaç Cəmiyyəti" QHT-yə təmənnasız paylanması üçün təqribən 22 507 ABŞ dolları dəyərində gigiyena vasitələri, mətbəx qabları, konservlər, xilasedici çadırlar, vedrələr, adyal, xalça, çadır örtükləri verib. İranın bağışladığı yardım Lori bölgəsinin daşqından zərər çəkmiş əhalisinə çatdırılıb.









**Qeyd edək ki, bir neçə gün əvvəl Ermənistanın Lori vilayətində İran şirkəti tərəfindən tikilən körpünün açılışı olub.**

**Əntiqə Aslan**

# Ermənistan ordusunun generalları korrupsioner imiş - Yeni faktlar

**Xəbər verdiyimiz kimi, Ermənistan Milli Təhlükəsizlik Xidməti Baş Qərargah rəisinin müavini Stepan Qalstyanın həbs edildiyini təsdiqlədikdən sonra onun, səlahiyyətlərindən sui-istifadə və xüsusi böyük həcmdə mənimsəmədə ittiham edildiyini də vurğulayıb.**

Adalet.az xəbər verir ki, Prokurorluq yüksək rütbəli hərbçilərin əmlakının mənşəyini araşdırır və növbəti dəfə Ermənistan Silahlı Qüvvələrin Aviasiya İdarəsinin sabiq rəisi Avetik Muradyanın əmlakı prokurorluğun diqqət mərkəzinə düşüb. Beləki, Avetik Muradyan və onunla əlaqəli şəxslər tanışlıq üçün, əmlaklarının qanuniliyinin araşdırılması ilə bağlı açıqlama vermək üçün həmin idarəyə dəvət olunublar. Onlar sentyabrın 11-də prokurorluğa gəlməlidirlər.





Qeyd edək ki, hələ 2021-ci ildə keçmiş müdafiə naziri David Tonoyanın axtarışa verilərək həbs edilməsi ilə bağlı qərar çıxarılandan sonra Avetik Muradyanın və Stepan Qalstyanın evində də axtarışlara start verildi .

**Erməni mediası onu da qeyd edir ki, Ermənistan Baş Prokurorluğu general-mayor Qriqori Xaçaturov barəsində də girov və inzibati nəzarət qətimkan tədbiri seçib.**

**Ə.Rəşid**

# Qəzalar, tıxac, sıxlıq, ölüm

## Bakının nəqliyyat problemlərini yalnız kənd təsərrüfatı mütəxəssisləri həll edə bilər

**Şəhərimiz yenə xoş olmayan xəbərlərlə açıldı. Bu gün Sabunçuda , Qaraçuxur qəsəbəsində 46 saylı marşrut avtobusu piyadanı vuraraq öldürüb.**

Belə ki, "Daevoo" markalı sərnişin avtobusu "Bakıxanov Ticarət Mərkəzi"nin yaxınlığında yolu keçən piyada 1971-ci ildə təvəllüdlü Elmidar Kazım oğlu Xudiyevi ehtiyatsızlıqdan vurub.Hadisə nəticəsində müxtəlif xəsarətlər alan piyada müalicə aldığı xəstəxanada ölüb. Yeri gəlmişkən, bu 46 saylı marşrutun ilk belə qəzası deyil. Ötən ilin dekabrında belə bir hadisə də 46 saylı marşrutun başına gəldi.

Bu ilin avqustunda da buna bənzər bir hadisə baş vermişdi Bakı-Sumqayıt yolunda...

Bakı-Quba yolunun 29-cu kilometrliyində 29 nömrəli marşrut avtobusu Bakı-Sumqayıt istiqamətində hərəkət edən avtobusla toqquşdu. Toqquşması nəticəsində 1 nəfər ( 2006-cı il təvəllüdlü Ağayeva Məryəm Maqsud qızı ) öldü, 18 nəfər yaralandı.

Ölümsüz olan qəzaları demirəm haaa....

Əslində hər gün olmasa da günaşırı baş verən, alışdığımız xəbərdir. Artıq qoynunda 5-6 milyon insanı saxlayan paytaxt Bakıda marşrut avtobuslarında qəza olmasına Məşədi İbad demiş "bir nöyi adətkərdə " olmuşuq .

Əlbəttə, nəticə başqa cür olası deyil. Çünki Bakının mərkəzini Avropa standartlarına uyğun abtobuslarla təmin edib, Bakı kənd və qəsəbələrinə istehsal müddəti bitmiş , təxminən 1970-ci ilin avtobusları verəndə qəzaya səbəbi araşdırmağa ehtiyac qalmır. Bir də rayondan gəlmiş ən ucuz qiymətə iş axtaran traktor, motosikl sürücülərinə avtobus etibar ediləndə mütləq bu xəbəri eşitmək məcburiyyətində qalırıq.

Artıq 8 ildir Bakıda "Çinar-Trans MMC" daşıyıcı şirkətinə məxsus olan 165 nömrəli marşrut avtobusu ilə bağlı şikayət yazmaqdan giley etməkdən yorğun düşmüşəm. Dəfələrlə yazmışam ki, bizim Lenin adına kolxozda belə bərbad avtobus olmayıb.

Amma 165 saylı marşrut sanki mələklər tərəfindən nəzarətə götürülüb. Qorunur, xətrinə dəyən yoxdu, kimsə "gözün üstə qaşın var" demir.

Səhərlər və axşamlar o avtobusdakı "vanöysə" sanki bir tamaşadır. Marşrut Yasamaldan hərəkətə başlayır və 20 Yanvar dairəsindən keçməklə Binəqədi rayonunun Mehdiabad qəsəbəsinə qədər gedir. Sərnişinlər avtobusun köhnə və dar olmasından, eyni zamanda sürücülərin avtobusu həddindən artıq doldurmasından şikayət edirlər, yox e, əməllicə üsyan edirlər. Bilirsiniz, bu marşrutda nə qədər qəzalar olur???

Deyilənə görə, 2022-ci ildə Bakı Nəqliyyat Agentliyi 165 nömrəli marşrut avtobusundakı neqativ hallarla bağlı daşıyıcı şirkət olan "Çinar-Trans MMC"yə xəbərdarlıq edib. Xəbərdarlıq məktubunda avtobusların əsaslı təmir olunması və nəqliyyat vasitələrinin iritutumlu avtobuslarla əvəz edilməsi, o cümlədən digər nöqsanların aradan qaldırılması barədə müvafiq tapşırıqlar verildiyi qeyd olunub.

Amma 2025-ci il 2-3 aydan sonra zühur edəcək, nə həmin avtobuslarda yenilik, təmirlik iş var, nə sərnişinlərdə razılıq hissi...

Belə olduğu halda qəzaların da sayı azalmayacaq. Bu gün qəza törədən 46 saylı, ötən ay aşan 29 saylı, Qobu Parka gedən 194 saylı, Novxanıya gedən 123, digər 79, 41, 206, 93, 585 və digər marşurut avtobusların görkəmi, ili "qəza-qəza" deyir.







Bəli, əsasən şəhərin mərkəzindən kənarda yaşayan (kasıb) əhalinin həyatı təhlükə altındadır. Axı, niyə ı 2006-cı il təvəllüdlü Ağayeva Məryəm Maqsud qızı qəzada ölməliydi? Niyə 1971-ci ildə təvəllüdlü Elmidar Kazım oğlu Xudiyev köhnə və xarab bir avtobusun qurbanı olmalıydı? Belə avtobuslardansa, metronu seçən əhalinin səhər və axşam saatlarında çəkdiyi əziyyət və zülüm dillə deyiləsi deyil. Çünki sıxlıqdan dəfələrlə vətəndaşların halı pisləşib, ürəkləri sıxılıb.

Bu gün səhər saat 08:50-də "Nərimanov" stansiyasından "Dərnəgül" xətti ilə hərəkət edən qatarda problem yaranıb. (publika.az)

Qatarda olan bütün sərnişinlər vaqonlardan düşürülüb.

Buna səbəb qapıda yaranan nasazlıq olub. Qatarın bütün qapıları bağlanmayıb. Yaranan problemə görə digər qatarlar dəqiqələrlə tuneldə qalıb, sərnişilər arasında narahatlıq yaranıb.

Bu gün səhər saatlarında həm də "Qara Qarayev" stansiyasında problem yaşanıb. Belə ki, sərnişin vaqon qapısının qəza açılıb-bağlanma kranından istifadə etdiyi üçün maşinist həmin qapıya baxış keçirib və kranı normal statik vəziyyətinə qaytarıb.

Deyilənə görə, həmin qatarın maşinisti qatar hərəkətdə ikən həmin qapının normal rejimdə işləmədiyi barədə dispetçerə məlumat verib.

Bu səbəbdən qatar baxış keçirilməsi məqsədilə "Nərimanov" stansiyasında xətdən çıxarılıb. Əvəzinə qatar verilib.

Paytaxtın kasıb təbəqəsi olaraq indi uzun-uzun düşünməyə vadar oluram: Görəsən , Bakıda yeraltı və yerüstü nəqliyyat sistemi bərbad vəziyyətdədir, yoxsa, şəhər həddindən artıq yükləndiyi üçün vəziyyət bərbad hala gəlib çıxıb.

**Vaxtında kəndlinin, rayonlunun kənd təsərrüfatı ilə məşğul olması normal şəkildə təmin edilsəydi, onlarda Bakıya bi9r loxma çörək qazanmaq ümidi ilə gəlməzdi. Əlbəttə, bu başqa bir yazının mövzusudur. Amma problem varsa , demək, problemlərin zənciri var. O problem zəncirini ortadan yox, başqa çözmək lazımdır. Məsələn, bu nəqliyyat probleminin həllini ilk öncə kənd təsərrüfatı mütəxəssisləri ilə məsləhətləşmək lazımdır.**

**Əntiqə Rəşid**

## Anar Eyvazov: "Bölmələrimizin 13 istiqamətdə irəliləməsi separatçı rejimin rəhbərliyini çaşdırdı"



**"Əvvəlki təcrübədən fərqli olaraq əməliyyatın günorta saatlarında və əlverişsiz hava şəraitində başlaması qəfilliyi təmin etdi. Həmçinin qoşunlarımızın sürətlə irəliləyərək Qarabağ iqtisadi zonasında əsas kommunikasiya yollarını, xüsusilə də Ağdərə-Xankəndi və Xocavənd-Xankəndi yollarını nəzarətə götürməsi düşməni manevr imkanlarından məhrum etdi, Xankəndi şəhərinin həm qərbdən, həm də şərqdən dövrələnərək mühasirəyə alınması düşmənin müqavimət gücünü azaltdı və əzmini tam qırdı".**

Adalet.az xəbər verir ki, bunu Müdafiə Nazirliyinin Mətbuat və İctimaiyyətlə Əlaqələr İdarəsinin rəisi polkovnik Anar Eyvazov 2023-cü ildə həyata keçirilən uğurlu antiterror əməliyyatının təfərrüatlarından danışarkən deyib.

"Antiterror əməliyyatını fərqləndirən, mən deyərdim ki, unikal edən faktorlardan biri də odur ki, kütləvi atəş zərbəsi zamanı qanunsuz silahlı qruplaşmalara məxsus bütün hərbi infrastruktur obyektlərinə, atəş və döyüş mövqelərinə həm eyni anda, həm də qarşılıqlı əlaqə şəraitində güclü atəş zərbəsinin endirilməsi düşməndə şok effekti yaratdı.

Əməliyyat zamanı arsenalımızda olan yüksək dəqiqliyə malik ən müasir silahların və REM vasitələrinin effektiv tətbiqini də xüsusi qeyd etmək istərdim. İlk növbədə düşmənin hava hücumundan müdafiə və REM vasitələrinin, idarəetmə orqanlarının və bütünlükdə idarəetmə sisteminin sıradan çıxarılması müqavimət göstərməyə çalışan qüvvələrin idarəetməsini iflic vəziyyətinə saldı ki, bu da bölmələrimizin sürətlə irəliləməsini və operativliyi təmin etdi.

Sadə dillə desək, düşmənə gözünü açmağa, başını qaldırmağa imkan vermədik.

Bölmələrimizin eyni vaxtda, güclü və dəqiq atəş dəstəyi ilə 13 istiqamətdə irəliləməsi Ermənistan silahlı birləşmələrinin qalıqlarının komandanlığını və separatçı rejimin rəhbərliyini çaşdırdı və qərarsızlıqlarına səbəb oldu. İdarəetməni itirən, əlavə güc və qüvvə cəlb etməyə imkan tapmayan düşmən qüvvələri isə döyüş ruhu yüksək olan Azərbaycan Ordusunun bölmələri tərəfindən ya zərərsizləşdirildi, ya da silah-texnikasını ataraq qaçmağa məcbur edildi. Sonrakı hadisələrdən isə ictimaiyyət məlumatlıdır".

## COP29-a qarşı hücum: Erməni katalikosu BMT katibi ilə görüşdə nə dedi?



**Ötən gün - sentyabrın 10-da bütün ermənilərin İkinci Ali Patriarxı və Katolikosu Qaryagin Birləşmiş Millətlər Təşkilatının Baş katibinin müavini, Sivilizasiyalar Alyansının ali komissarı Migel Anxel Moratinosu qəbul edib.**

Adalet.az xəbər verir ki, son günlər erməni din xadimləri Azərbaycana qarşı münasibətlərində daha aqressiv mövqe ilə çıxış edirlər. Beləki, erməni nəşrləri yazır ki, iclasda erməni katolikosu Qaregin BMT nümayəndəsinin diqqətini regiondakı çətin vəziyyətə və Ermənistanın üzləşdiyi təhlükəsizlik hallarına yönəldib. Qaryagin Azərbaycanın işğal etdiyi (erməni ancaq belə deyə bilər-red-ƏR) sərhədyanı rayonların problemlərinin həllinə, məcburi köçkün artsax ermənilərinin(Qarabağı könüllü tərk edən ermənilərin) hüquqlarının müdafiəsinə, Artsaxın erməni mənəvi-mədəni irsinin (Alban abidə monastırlarını nəzərdə tutur - red-ƏR.) mənimsənilməsi, eyni zamanda Bakıda saxlanılan (Bakıda həbsdə olan separatçı və terrorçu liderlər nəzərdə tutulur.red-ƏR) əsirlərə diqqət yetirməyi ondan xahiş edib.

**Hazırda Azərbaycanda keçiriləcək COP29-a dünyanın 190-dan çox ölkəsindən 80 mindən artıq qonağın gələcəyi gözlənildiyini bilən ermənilər hər vəchlə bunun qarşısını almağa , tədbiri baykot etməyə çalışır. Odur ki, erməni lobbisi, xüsisən din xadimləri məqsədlərinə çatmaq üçün bütün fürsətlərdən istifadə edirlər. erməni katolikosu Qareginin Birləşmiş Millətlər Təşkilatının Baş katibinin müavini, Sivilizasiyalar Alyansının ali komissarı Migel Anxel Moratinosu qəbul etməsində səbəb budur.**

**Əntiqə Rəşid**

## Rusiya XİN: "Rusiya hərbçilərinin bu ərazilərdən çıxarılması məqsədəuyğun deyil"

**Regionda vəziyyət tam normallaşmamış, Rusiya sərhədçilərinin İran və Türkiyə ilə sərhədlərindən çıxarılması Ermənistanın təhlükəsizliyi baxımından məqsədəuyğun deyil.**

Adalet.az xəbər verir ki, bunu Rusiya Xarici İşlər Nazirliyinin rəsmi nümayəndəsi Mariya Zaxarova bu gün keçirdiyi brifinqdə Ermənistan parlamentinin spikeri Alen Simonyanın Ermənistan hakimiyyətinin ölkənin Türkiyə və İranla sərhədində rus sərhədçilərinin yerləşdirilməsi məsələsi üzərində düşünməsi barədə bəyanatını şərh edərkən bildirib. "Ola bilsin ki, Alen Robertoviç Nikol Vovaeviçin mətbuat konfransını çox yaxından izləməyib. 1992-ci ildə Rusiya sərhədçilərinin Ermənistanda olmasını tənzimləyən əsas sənəd respublikada Rusiya sərhəd qoşunlarının statusu haqqında müqavilədir və bu, müddətsizdir. Rusiya sərhədçiləri mövcudluqlarının aktuallığını dəfələrlə sübut ediblər. Bu xətt üzrə məhsuldar genişmiqyaslı qarşılıqlı əlaqə qurulub və görünür, bu, İrəvandakı bəzi siyasətçiləri əsəbiləşdirir. Qonşularla qeyri-sabit münasibətlər şəraitində təhlükəsizlik haqqında düşünməyə dəyər. Mənə elə gəlir ki, yumşaq kresloda oturub ekspert olmayan adamlar mövzu ətrafında bu qədər sərbəst fikirləşəndə, bəlkə də sözü həyatını təhlükəyə qoyanlara vermək daha məqsədəuyğun olardı", - Rusiya XİN sözçüsü vurğulayıb.



Əbülfət MƏDƏTOĞLU
madatoglua@mail.ru

# DOST HAVASI

Bir anlıq bu dünyadan, ətrafımdan, lap elə özümdən də ayrılıb, çəkilirəm bir küncə. Və başlayıram düşünməyə Kiməm? Nəçiyəm? Və ən vacib kimlər üçün kiməm....

Bax bu sual o qədər ağırdır, o qədər tutumludur və o qədər də insanı məhşər ayağına çəkəndir ki, ona ağızucu ötəri, el dilində desək, miyanə cavab vermək xilas yolu deyil. Əksinə bu ağrırlığın kirkirə daşında ovulmaq və həmin prosesə də dözmək hünər istəyir.

İndi neyləyim ki, zaman xüsusilə, onun maddi tərəfi canımızda hünər qoymayıb qalsın. Hər addımda, hər təmasda bir- birimizə ünvanladığımız "necəsən" sualı bütünlüklə əhəmiyyətini itirib. Çünki mahiyyətcə hamımız eyni cürəyik. Hamımız eyni havanı oyanyırıq.

Amma nə yaxşı ki, hərdən Allahın bizə rəhmi gəlir. Bir udumluq təmiz hava qismət edir - Bu DOST havasıdır!!!

Səni sənin qədər duyan, səni özü qədər dəyərləndirən və səni özü kimi uca tutan dost! Hər zaman eşitdiyimiz, hətta məclislərdə masabəyilərin dil boğaza qoymadan dedikləri hecaya bölünməyən DOST sözü əslində bizim fərd olaraq ən böyük qazancımızdır.

Rəhmətlik şairimiz, professorumuz və müəllimimiz Famil Mehdinin məşhur bir şeiri var. Şeirin məzmunu belədir ki, ana oğlunu hamıdan güclü, hər şeyə qadir hesab edir. Az qala bütün Azərbaycanının onun içərisində Qarabağın, nəhayət yaşadığı kəndin problemlərini çözməyi oğlundan istəyir.

Sonda oğul etiraf edir ki, ana, bu dediklərinin içində yalnız bir məsələdə sənin istəyini gerçəkləşdirə bilərəm. O da dostuma deyə bilərəm ki, sənə mənim qədər yardımçı olsun. Səninlə maraqlansın, odununu doğrasın,təndirinə şax gətirsin Bax bu mənada mən öz tərcümeyi-halımı başdan-ayağa min dəfə də oxusam, həmişə bir nöqtədə dayanıram. O da dostdur. Məni mən edən dost, mənim mən olmağımda hava-su və ən vacibi mənəvi güc olan dost! Onlarla varam, onlarda var olduğuma özüm kimi ailəm də inanır.

Elə bu gün həmin dostlarımdan biri barəsində tələsərk olsa da ürəyimdəkilərin müəyyən cizgilərini ona pıçıldamaq istəyirəm. Demək istəyirəm ki, SƏNİ gec tapsam da, tapdığım ana şükürlər əbədidir.

Bu tanışlığın kökündə ədəbiyyat dayanır, poeziya dayanır. SÖZ dayanır. Mətbuatda qarşılaşmışam, oxumuşam və ağlıma da gəlməyib ki, günlərin birində bu qiyabı təmas əyani tələbata çevriləcək.Ürəyim, ruhum səni soraqlayacaq, səni axtaracaq. Görünür, ürəyin istəyi gec də olsa öz təsdiqini tapır. Yəqin bu istəyin mayasında Allahdan gələn halal, təmənnasız niyyət- məram əsas şərtdir. Ona görə də Allah o təmənnasızlığı, o halallığı dəyərləndirir

Günlərin birində şair dostum, ustad qardaşım İsmayıl İmanzadə ilə ötən günlərimizdən danışırdıq. Köçkünlüyün ağrılı və ağır zamanlarını çözürdük. İsmayıl müəllim dedi ki, həyatda sözə, ədəbiyyata qiymət verən adamlar olub və bu gün də var. Belə ki, Mingəçvirdə məskunlaşanda qarşılaşdığım bir məmur sözə o qədər həssaslıqla münasibət bildirdi ki, biraz çaşdım. Sonra əlaqələr genişləndi. Gördüm ki, Ramiz Göyüş təpədən dırnağa söz adamıdır. Azərbaycanın kalssik poeziyasından, aşıq yaradılığından tutmuş bu günə qədər olan ən ünlü isimlərin şeir nümunələrini elə xırdalayır ki, sanki bir filoloqalimlə söhbət edirsən.



Doğrusu bu məqamda söhbətimizə qoşşulan professor, alim ruh dostum Rüstəm Kamal da kimdən söhbət getdiyini eşidən kimi dedi:

-Ay qağa, Ramiz əsil söz adamıdır. Bizim dostumuzdur. Onda məmurluqdan əsər-əlamət yoxdur.

Bax həmin məqamda mən Ramiz Göyüşü qiyabi tanıdığımı, yazılarını oxuyub, imzasını izlədiyimi deyəndə şair qardaşım İsmayıl İmanzadə əlini çiynimə vurub gülə-gülə əlavə etdi:

-Qağa, bu axşam saat 6-da görüşümüz var. Sən də bizimlə gedəcəksən. Orda sizi bir- birinizə təqdim etmək missiyası bizim üzərimizə düşür

Bax beləcə başladı tanışlığımız. Saatlarla davam edən o görüşdə biz az qala bütün ədəbiyyatı vərəqlədik. Dünənin, bu günün söz adamlarını yada saldıq. Dünyasını dəyişənlərə rəhmət oxuduq. Həmin gecə bir dost qazamdığıma, bir dost tapdığıma daxilən inandım

O zamandan illər keçib. Dəfələrlə görüşmüşük. Həmsöhbət olmuşuq. Bir- birimizin sevincli-kədərli anında bir araya gəlmişik. Telefon söhbətlərimiz olub.. İnanın ki, bunların heç birində o tutduğu rəsmi vəzifəsini hiss etdirməyib. Yalnız sözün işıqlı tərəfini məharətlə, ustalıqla hopdurub canıma.

Hərdən öz- özümə düşünmüşəm ki, Ramiz Göyüş lap əzəldən söz yaradıcılığıyla, araşdırma ilə məşğul olsaydı, bəlkə də ədəbiyyatımız daha çox qazanardı. Təbii ki, bu şəxsi fikrimdir. Bunun nə Ramiz müəllimə, nə də kimlərəsə diktə etdə bilmərəm. Necə deyərlər, içimi gizlədə bilmədim, düşündüyümü dilə gətirdim.

Çünki, Azərbaycan oxucusunun , ədəbi-ictimayətin yaxşı tanıdığı Ramiz Göyüş özünün publisistik düşüncələri, eləcə də ədəbi yaradıcılığı yəni, ortaya qoyduğu hər bir yazı nümunəsi ilə dərhal diqqəti çəkir. Həmin nümunələrədə ürək var, səmimiyyət var... duyğu var. Və Ramiz müəllimi məhz həmin o qeyd etdiyim ürəyin, duyğunun, səmimiyyətin işığında özünün mükəmməl fikrlərini oxucuya çatdırır. Portret yazılardan tutmuş xatirə yazılara, eləcə də ictimai-siyasi mövzulara da Ramiz Göyüş yanaşması özəl baxışdır.

Ona görə də diqqəti çəkir və yadda qalır. Oxucu vaxt itirmədiyinə sevinir. Bax bütün bu nüansların hər biri mənimlə Ramiz Göyüş arasındakı dostluq körpüsünün dayaqlarıdır.

O körpüdən səmimiyyətlə, ürəklə, duyğularla eləcə də olduğun kimi keçmək, gördündüyün kimi olduğunu təsdiqləyən bir həyat gerçəkliyidir. Yəni harda, hansı şəraitdə, hansı əhvalda olmağından aslı olmayaraq, Ramiz Göyüş mənim üçün sinəsi sözlə dolu, ürəyi sevgiylə döyünən, əlləri isə bərk- bərk tutub dostluğu davam etməyə güc verən kişi əlidir.

Bu günlərdə Ramiz müəllimin 70 yaşı tamam oldu. Mən onun haqqında düşündüklərimi, içimdəki yaşantıları yazmağa özümü nə qədər köklısəm də istədiyimi ifadə edə bilmədim.

Çünki o mənim yazmaq istədiklərimdən çox yüksəkdədir. Elə həmin yüksəklikdə qalmanı Allahdan diləyərək, bir- birimizə olan səmimiyyətlə sadə bir söz demək istəyirəm:

- Sizi necə tanımışam, necə tanıyıram və necə də tanıdacam, elə də 100 yaşayın, Qardaşım Ramiz!



Adilə Səfərova

# Qumruların sevgi nağılı

(ESSE)

*İş otağında burkü cövlan etsə də , bayırda Gilavar əsir. Ara-sıra artan coşqusuyla açıq pəncərədən içəri dolub xəfif sərinlik gətirir. Bu xoş sərinlik təkcə otaq havasına deyil, üzə, vücuda yansıyır, qəlbdə duyğuya, düsuncəyə də sirayət edir sanki. Könüldə ılıq hisslər oyadıb xoş ovqat yaradır.*

*Otağa qəlb oxşayan rayihə gətirən Gilavarı daha yaxından duymaq üçün ayağa qalxıb pəncərəyə yaxınlaşıram.*

*Pəncərə önundə təbiətin əsrarəngizliyinə -Payız nəfəsinin yaşıl yarpaqlarına qızılı xal salmıs ağaclara boylanıram. Diqqətimi budaqların titrəyişi, bir- birinə çırpınışı, sığal çəkirmiş kimi toxunuşu çəkir. Elə bil, kövrək budaqlar , üzərlərində sıralanan xallı yarpaqlar da, məst olub meh nəvazişindən.*

*Onlar da bu oxşamadan, tumarlanmadan, sanki nazlanir, sevinclə titrəşib şənlənir, rəqs edirmiş kimi bir- biriylə qucaqlaşıb ayrılir və yenidən təkrarlayırlar bu oyunlarını.Yarpaqların bir- birinə toxunuşundan yaranan xışıltı səslərini dinləyirəm.Bu səs də həzin, kövrək nəğmə kimi hissə, duyğuya sirayət edib, üzdə təbəssüm yaradır.Və ixtiyarsiz icimdə kəpənək səssizliyi qədər sükutla dodaqlarımda pıçıltı qopur:*

*-- Qüdrətinə şükür,İlahi! Ana təbiətdə yaratdıgın bu ecazkar mənzərə ən sərt ürəkləri yumşaldar, kövrəldər, ruha qüvvət, duygulara təravət, insanlıga örnək, fikrlərə cəsarət gətirər.*

*Elə bu duygusal, isıqlı düşüncələr selində baxışlarım yaxın məsafədə olan tut agacının budağı "gizlin"ində cikkildəşən bir cüt Qumru quşuna yönəlir.Gördüyüm mənzərə önündə dönüb qalıram.Yenicə pərvazlandıqları hiss olunan bu qumruların davranıslarından, bir- birinə mehr- məhəbbətlərindən kövrəlirəm və düşünürəm ki, gilavarın həzin mehi deyəsən, onlari da duygulandırib; qumrular gah bir-birinə sığınır, gah uslubca dimdikləşir, gah göz- gözə gəlib baxışır, sonra başlarıni, boyunlarını bir birinə sürtüb sığallaşır, gah da biri digərinin qabaran sinəsinə baş qoyub qəlb çırpıntıların dinləyir kimi susurlar. Və qəfil budaqdan -budağa uçuşub yarpaqlar arasında gızlin oyunlarini təkrarlayıb xoşbəxtcəsinə qığıldaşırlar...*

*İçimdə yenə dillənirəm: -- İlahi, nə qəribə, nə ezazkar mənzərədir bu. ? Görəsən quş dilində nələr danışir onlar.? Yoxsa, körpə qəlblərinə yenicəmi düşüb sevgi atəşi!?.Bəlkə , bu quşlarin da qibtə ediləcək, dillərdə dolaşan əfsanəvi qumru məhəbbəti nagılları elə bu anlardan başlayır.?Bəlkə ,onlar quş dilində əhd bağlayıb, peyman edir, bir ömür boyu eşqlərinə sədaqətli olacaqlarına and içirlər ! Bəlkə, onların sevgi nağıllarının başlanğıcına mən də şahidlik edirəm.Bəlkə də...*

*Qumruları məhəbbət şahidi olmağıma sevinir və onların bir- birinə mehri, qeyri- adi bədən dilləriylə nəvazişləri, səmimi unsiyyətləri, vüsal sevincləri önündə duyğülanıb kovrəlirəm. Və inanıram ki,onların da sevgi nağılları əcdadlarınınkı kimi əbədi və sonsuz olacaq.*

*Çunki, Uca Yaradan Qumruları canlılara, o cümlədən, insanlara örnək timsalı olaraq Vəfa ,Sədaqət rəmzi, SEVGİ simvolu kimi yaradıb. Qumru qusları bir ömur boyu birgə yaşayır, bir an da ayrı qalmırlar.Qosa uçub, qoşa dolasırlar.*

*Ucaliqlarda, əlcatmazlıqlarda yurd salib yuva qururlar.Yaşam qayğilarina, zaman gərdişlərinə birlikdə sinə gərib, qısin ayazına, şaxtasına,yayın bürküsünə, tufanlarin sərtliyinə, yağışların nəmliyinə bir- birinə sığınaraq dözurlər. Hətta nəsil artımı dönəmində də belə zəhmətə bərabər qatlaşirlar. Yavrularinin qayğısını birgə çəkir,onların pərvazlanib özlərini yaşatmaq gücünə çatınca qoruyurlar. Ayrılıqsa onlar üçün intihar məqamı olur. Biri hər hansı səbəbdən yaşamını itirsə, ömür yoldaşı bu həsrətə tab etmir, hicran əzabına dözməyib xiffətdən ölür...*

*Bax, beləcə... bu kövrək düşüncələr isıgında baxişlarımı qumrulardan ayırıb, asağı-- yaşıl ağaclar əhatəsində, gul- çiçəyə bulənd olan parka baxıram. Bəlkə Gilavarın yaratdığı sərinlik səbəbindən park bir az qələbəlik görünür.*

*Qol- qola gəzişən,oturacaqlarda bir -birinə siğınan gənc cütlüklərə, orta yaslı, qocalıq cağininləngərliyini yaşayan qadınlara,kişilərə baxıram. Onlari qumrularla müqayisə edirəm.*

*Və fikirləşirəm ki, kaş qumrularin məhəbbət nagılını bütün insanlar yarada bilə. Adamlar da sevgilərində Qumrular kimi Vəfalı, Sədaqətli ola. Onda nə kirpiyinə od götürub ataliykən atasiz uşaq boyüdən ana, nə də tərk edilmiş kişi olmaz dünyamızda. KAŞ!!!*

# Sözlə musiqinin əkizliyi...

## Ustadım Seyran Səxavətin şeirini dinlədim

**Bu bir həqiqətdir ki, sözlə musiqi həmişə bir-birini tamamlayıb. Ona görə də söz olan yerdə musiqinin, musiqi olan yerdə sözün at oynatması təbiidir. Təbii olan isə həmişə ruh oxşayır, könül sevindirir. Bax, bu mənada hər dəfə kökləndiyim musiqinin sözünü də özümdən asılı olmadan gözüm, könlüm axtarıb tapır. Yəqin ki, siz də beləsiniz. Əgər bir anlıq gözümüzü yumub həmin musiqini dinləsəniz, o səsin də sizin yanınızda olduğuna, sizinlə çiyin-çiyinə dayandığına əmin olacaqsınız... Yəqin ki, Seyran Səxavətin xanəndələrimizin, müğənnilərimizin ifasında səslənən şeirləri dinləmisiniz. Və onun musiqiyə necə yatdığını da hiss edib yaşamısınız.**

Bugünlərdə Seyran Səxavətin ilk kitabı diqqətimi çəkdi. Əl boyda olan kitabı vərəqləyəndə, yəni "Mənim planetim"lə tanış olanda yenə həmin musiqinin kitabxanama axıb gəldiyini hiss etdim və elə həmin ovqatla da "Bir şairin bir şeiri" layihəmin mövzusunu tapdım. Bu mövzu da Seyran Səxavətin "Həzin-Həzin"i oldu. Şair yazır ki:

***Tarını götürüb düşdün canıma,***
***Nidalar gözümə göründü, qardaş.***
***Xallar damarımdan keçib qanıma,***
***Bütün bədənimi süründü, qardaş.***

Misralar tarın sədaları altında artıq mənim də içimdə sürünürdü, məni də çəkib aparırdı o simə tərəf, o barmaqlara tərəf, o avaza tərəf və elə bilirdim ki, həqiqətən o tarı sinəsinə sıxan adamla, o ifaçı ilə üz-üzə dayanmışam. Hətta onun başını tara necə söykədiyini, gözlərini necə yumduğunu hiss edirəm, görürəm. Və bu ovqat da məni sözün meydanına tərəf çəkir. Həmin an böyük xanəndəmiz, mərhum və unudulmaz İslam Rzayev yazılmış misralarımı düşünürəm. Elə bilirəm ki, o tarın sədasında bu misralar da ruha xoş gələr:

***mən bu səsin işığını görürəm***
***bu səs mənə təbiəti göstərir.***
***kol dibinə sığınaraq gizlənən -***
***toxunmadan, bənövşəni göz dərir...***

Bilmrəm, siz indiki anda nə düşünürsünüz, nəyi xatırlayırsınız. Amma mən elə bilirəm ki, Seyran Səxavətin misralarının yaratdığı ovqat, barmaqların simə verdiyi dəyər indi o qədər yerinə düşübdür ki, orada saatlarla oturub qalmaq, xəyala dalmaq mümkündür və xəyal da qanadlandıqca istər-istəməz İslam Rzayevin səsi də gəlib tapacaq səni. Çünki onu arzulayırsan, onun işığına üz tutmusan. Bunu təkcə mən demirəm. Bunu həm də Seyran müəllimin misraları deyir:

***Tar üstə xəyala elə daldın ki,***
***Babamın zilini, pəsini duydum.***
***Sən elə çaldın ki, elə çaldın ki,***
***Ötən əsrlərin səsini duydum.***

Mən təkcə bugünün səsini, bu anın ovqatını özümə kökləmişdim və özümü də ona təslim etmişdim. Amma Seyran müəllim ötən əsrin də səsini şeirə çevirib onu da yaddaşımızın qaranlıq guşəsindən çəkib çıxarıb işığa. Həm zili, həm pəsi nur olan o səs yolumuza səpələnib. Və biz də bu yolla həmin o səsin dalınca getmişik və gedirik. Ona görə də yazıram:

***mən bu səsin gözlərini görürəm***
***ovsunlayır qəmzəsiynən, nazıynan.***
***mən bu səsin izlərini görürəm -***
***vəsf eləmək çətindi bir yazıynan...***

İnanın ki, bu yaşadığım, bu şeirləşdirdiyim misralar bir reallığın, bir gerçəyin özüdü, əks-sədasıdı. Xüsusilə, böyük xanəndənin ifasında dinlədiyim bir az kədərli notlara köklənən "Mən dünyada olmayanda" nəğməsi məni əməlli-başlı özümdən alır. O səs də, o ifa da mənim üçün möcüzəyə çevrilib. Bu sirlər dünyasında həm səsin, həm musiqinin təsiri ilə axtardığın gözün, gülün, çiçəyin özünü görmək və bir də sənə o musiqini təqdim edənin baxışlarını oxumaq, qəlbinin döyüntüsünü duymaq, Segah, Şur ovqatı yaşamaq necə də gözəldir. Bunun da gözəl olduğunu bir az da dəqiqləşdirsəm, o gözəlliyi yaşanmasının zərurətini də Seyran Səxavət deyir mənə, eləcə də sizə:

***Gül, gülən gözündə şimşəklər çaxsın,***
***Mizrabı tellərə vur həzin-həzin.***
***Bu elin qəlbinə süzülsün, axsın,***
***Segah həzin-həzin, Şur həzin-həzin.***

Həqiqətən, Şurun da, Segahın da həzinliyində sözün gözəlliyi də, yatımı da adamın şah damarına qədər işləyir. Elə bilirsən ki, o sözü də sən yazırsan, sən deyirsən. Bax, bu balanslaşdırma, bu tarazlıq az qala adamın ayağını yerdən qoparır. Və sənin ruhunla bir-



likdə, cismin də fəzada ən gözəl bir məkanda qərar tutur. Orada səni işığına getdiyin səs qarşılayır. O səs də İslam Rzayevin səsidir:

***mən bu səsin əllərini görürəm***
***qarışdırır, sığallayır saçımı.***
***mən bu səsi köynək kimi geyirəm -***
***unutdurur kədərimi, acımı.***

Deyə bilərsiniz ki, burda mən bədii sözün gücünə söykənmişəm. Necə deyərlər, şairlik eləmişəm. Amma bütün hallarda yenə təkrar edirəm ki, İslam Rzayevi dinləyəndə, Dədə Süleymanın səsinin içərisində olanda mən həqiqətən səsin əlini, ayağını da, yəni bütün vücudunu görə bilirəm. Lakin bilmirəm ki, bunun səbəbi, nədəni nədir?! Ona görə də lap çox dinləyirəm. O nədəni tapmaq yolundan dönmürəm. Bu yolda Seyran müəllimin misraları da köməyimə çatır:

***Bir ölən həsrətim dirilib indi,***
***Fikirlər beynimi yormaq istəyir.***
***Sarı sim sərhədtək gərilib indi,***
***Mizrab o sərhəddi qırmaq istəyir.***

Yəqin ki, bu məqamda mənim niyə məhz Seyran müəllimin misralarının köməyimə çatdığını söyləməyimin açmasını tapdınız. Həqiqətən, bir sevgi həsrəti, bir ömür nisgili, bir sərhəd xətti kəsir yolumu. O yolu ancaq səs və musiqi keçib gedə bilir, bir də xəyalım. Elə həmin xəyalla da indiki anıma, yəni kitabxanamda baş-başa qaldığım dünyaya qayıdıram.

Misralar yenə öz axarı ilə sıralanır. Bu misralar İslam Rzayevdən, onun səsindən bəhrələnibdi:

***mən bu səsin özü ilə üz-üzə,***
***danışıram, illər düşür yadıma.***
***toxunanda ürəyimə kim isə -***
***simurq kimi gəlib çatır dadıma!***

İnsan ümidsiz olanda saman çöpünü də axtarır. Kül altdakı qoru da arıyır. Bu mənada səsi həmsöhbətim olan, nəğməsi ruhumu oxşayan unudulmaz xanəndəmizin yaratdığı ovqatla Seyran müəllimin misralarını təqdim etdiyi tarın işığı qovuşur bir-biri ilə. Həmin kəsişmə nöqtəsində yenə Seyran müəllimin şeiri dayanır. Özü də öz səsində, öz təqdimatında:

***Bu tarla insanı qardaş, mənə bax,***
***Oxşamaq da olar, yormaq da olar.***
***Tarçının ürəyi sinəsində yox,***
***Tarçının ürəyi barmaqda olar.***

Bu, bir həqiqətdir. Özü də Seyran Səxavətin möhürlədiyi həqiqət. Bütün musiqi bilənlər hər zaman vurğulayırlar ki, ifada barmaqlar şərtdir - barmaqlar danışa bilirsə, onda ifa dipdiri olacaq, canlı olacaqdır. Ona bir az da ürəyi, ruhu qatanda özgə bir aləm yaranacaq. Elə Seyran müəllim də həmin o məni duyğum fikri şeirinin sonunda möhürləyib. Həm mənim yaddaşıma, həm də oxucuların. Mən də ustada baxıb böyük xanəndəmizə hələ sağlığında yazdığım şeirin sonunu belə tamamlamışam:

***mən bu səsin əhatəsi içində***
***yaşayıram, düşən gündən tilsimə!***
***gördüyümü yaşadığım üçün də -***
***məni dəli saymağa heç tələsmə!***

Budur, sözün, səsin, musiqinin təməsindən doğulan yazı. Mən onu kağıza köçürəndə, daha doğrusu, bilgisayarımız Elnarə xanıma diktə edəndə həqiqətən o səsi də, o ifanı da, o məqamı da yaşayırdım. Yanımda tar, yəni onu ifa edən barmaqlar, başımın üstündə Seyran Səxavət, gözümün önündə İslam, Dədə Süleyman... Bir sözlə, musiqili, nəğməli bir an!..

***P.S.*** ***Bu yaşamda, nədə səhv etdimsə, ustadımdan üzr istəyirəm.***

**Əbülfət MƏDƏTOĞLU**

# Bir qucaq sevgi

**Şəxsiyyətinə və yaradıcılığına böyük rəğbət bəslədiyim Rəşad Məcidin öz avtoqrafı ilə mənə bağışladığı " Səbəbi sənsən" sevgi şeirləri kitabını sonsuz maraqla oxudum. 2019 - cu ildə Mutərcim nəşriyyatında işıq üzü görmüş bu topluda Rəşad Məcidin müxtəlif illərdə yazdığı, bir çoxlarına mahnılar bəstələnmiş sevgi şeirləri toplanıb.**

Təxminən 150 - ə yaxın şeirin yer aldığı bu toplu mən deyərdim ki, əsl məhəbbət çələngidir. Bu şeirlərin hər birində Rəşad Məcidin ürəyinin çırpıntılarını, sevgi hisslərini çox yaxından duyuruq. Ürəkdən yazanda, müqəddəs hissləri poeziyaya çevirəndə gözəl olur. Rəşad Məcid poeziya aləmində təzə adam deyil. 30 ildən çoxdur ki, o, bu yolun yolçusudur.

Onu duyğulandıran, təsirləndirən nəcib hissləri bir şair kimi oxucularına təqdim edir. Bu şeirləri oxuyursan, hiss edirsən ki, sanki sənin ömrünün müəyyən anlarını əks etdirir bu misralar. Çünki çox səmimi və təbiidir.

***Yaddaşımda nə qalıb ki,***
***Sirli kələkdən savayı.***
***Sinəmin altında nə var,***
***Təşnə ürəkdən savayı.***

Məhəbbət hər bir şair üçün əbədi mövzudur. Hər şair bu mövzunu bir cür hallandırır. Bir mahnıda deyildiyi kimi: "Bu məhəbbətki deyirlər, O sağalmaz bir azardır..." Rəşad Məcid də sevgi şeirlərində öz həyatını yazır:

***Ümidim qalıbdı səni görməyə,***
***O küncdə bir nərgiz topası kimi.***
***Açdım otağının qapısını mən,***
***Qırxıncı otağın qapısı kimi.***

***Mən gəlib çatanda getmişdin artıq,***
***Kimsə də hövsələ qalmayıb indi.***
***Bütün sualların cavabı aydın,***
***Cavabsız məsələ qalmayıb indi.***

Fikir adamı Rəşad Məcidin daşıdığı titullar və çalışdığı işlərlə tanış olduqdan sonra, məni heyrət bürüdü. Yazıçı, jurnalist, Əməkdar Mədəniyyət İşçisi, 525 - ci qəzetin baş redaktoru, Yazıçılar birliyində sədr



müavini, ondan əvvəl gənc yazarlar üzrə katib, nəhayət Mətbuat şurasının sədri.

Əslində sadalanan vəzifələrin hər biri adamdan həddsiz gərgin əmək, daim axtarışda olmaq kimi vərdişlər tələb edir.

Və Rəşad Məcid bütün bu işlərin öhdəsindən öhdəsindən layiqincə gəlmək üçün özündə güc, qüvvə tapır. Bəs Rəşad Məcid poetik hisslərin qələmə almağa necə vaxt tapır?! Axı, şeir elə - belə yaranmır. Şeir janrı istedadın, yuxusuz gecələrin, sərhədsiz zəhmətin bəhrəsidir. Nə yaxşı ki, Rəşad Məcid bu işə də lazımınca vaxt tapa bilir. İlham pərisi ilə poeziya aləmində də uğurlu addımlar atır.

***Yüz dəfə yu, min dəfə sil,***
***Hər yana, hər tərəfə sil***
***Yenə də sızıldayacaq***
***Yenə gələcək nəfəsi***
***Neyləsən də getməyəcək***
***Əlindəki öpüş yeri.***

***Çıxar bu fikri başından,***
***Küsüb dayanma qarşımda.***
***Gizləsən də görünəcək,***
***Neyləsən də getməyəcək***
***Əlindəki öpüş yeri.***

Rəşad Məcid üçün, bir şair kimi, mövzu qıtlığı yoxdur. Sanki böyük dramaturqumuz Cəfər Cabbarlının dediyi kimi, "mövzu özü onu tapır." Hamımız üçün adi bir hal olan hadisə Rəşad Məcidin baxışlarında poetik bir mənaya çevirilir, daha doğrusu, min dəfələrlə üzləşdiyimiz bu olaya Rəşad Məcid əsl poetik don geydirir.

***Sağ ol" demə, vida etmə,***
***Zamandısa, vaxtdısa, get.***
***Getməyinin gərəkliyi***
***Qalmağından çoxdusa, get.***

***Bir mən qalım, bir dərd-sərim,***
***Hədər oldu çəkdiklərim.***
***Pıçıltıyla dediklərim,***
***Yaddaşından çıxdısa, get.***

Rəşad Məcidin sevgi şeirləri bir daha göstərir ki, insan hər bir yaşda, lap 50, 60, 70 yaşda da sevə bilər. Yaş demişkən, bu ilin avqust ayında Rəşad müəllimin 60 yaşı tamam olacaq. Qoy bu kiçik qeydlərim də, daim qayğı və diqqətini üzərimdə hiss etdiyim sevimli yubilyarımıza gənc şair - jurnalistin yubiley hədiyyəsi olsun.

Səbəbi sənsən toplusu ilə adlı şəxsi kitabxanamdakı dəyərli kitablardan biri də artdı. Kaş belə kitablar çox olaydı.

İnsanı sevgi yaşadır. Sevgi varsa, həyat var. Siz də yüz yaşayın, Rəşad müəllim!!!

Həyat davam edir. Biz oxucuları isə Rəşad müəllimdən ürəkləri ehtizaza gətirən sevgi dolu şeirlər gözləyirik...

**Fuad Biləsuvarlı,**
**AYB üzvü, AJB üzvü,**
**Prezident mükafatçısı**

VAQİF YUSİFLİ

# YAŞAYAN SƏRDAR ƏSƏD



**1969-cu il iyunun 30-da Bakıda bir şair vəfat etdi. Qeyri-adi istedada malik olan bu şair həyatın adi qayğılarından, yaşayış əzabından, şeirlərinin ünvanına yağdıvrılan müxtəlif "izm"lərdən usanmışdımı? "Populyarlıq" azarına tutulmayan,şöhrətə aludə olmayan , özünü sevdirməyə çalışmayan bu şair Əli Kərim idi.**

*Tabutuma bir az kağız qoyun,*
*bir dənə də qələm.*
*Hayıf bu yaşda heç nə*
*heç nə deməmişəm.*

Amma o az ömründə Əli Kərim poeziyada öz şair varlığını təsdiq etdi. Çox söz dedi.Hərçənd ki, sağlığında o, layiqincə öz həqiqi qiymətini ala bilmədi. Yalnız ölümündən sonra Əli Kərim haqqında, onun poeziyamızda yenilikçi-novator bir şairliyi barədə məqalələr yazıldı və indi də yazılmaqdadır.

Altı il sonra, 1975-ci ilin iyunun 30-da Bakıda bir şair də vəfat etdi. "Vəfat etdi" cümləsini nekroloqda yazmışdılar, əslində o, intihar etmişdi o şair-Sərdar Əsəd. Onlar Əli Kərim və Sərdar Əsəd dost idilər. Bu dostlduq onların şeirlərində də davam edirdi. Yəni mahiyyətcə Sərdar Əsədin yazdğı şeirlər Əli Kərimin yazdığı şeirlərin müttəfiqi idi. Sərdar Əsəd də Əli Kərim kimi eynilikdənq, yeksənəkliklədən yorulmuşdu və hər şeirini ənənəfi hala keçən standart, şablon üsulda yazılan şeirlərin üzünə çırpmaq üçün yazırdı.

Sərdar Əsəd də sağlığında qiymətini, dəyərini almadı. O da ölümündən çox sonra yada düşdü. Məlum oldu ki, Sərdar Əsəd Azərbaycan poeziyasında bənzərsiz bir şairdir - onun şeirlərində yalnız öz şair fərdiyyəti duyulur, hər bir şeiri fikirlə hissin vəhdətini əks etdirir. Beləcə Sərdar Əsəd etiraf olundu.Və burada üç müəllifin daha çox rolu oldu, professor Qəzənəfər Kazımovun, şair-publisist, "Kredo" qəzetinin baş redaktoru Əlirza Xələfli, bir də bu sətirlərin müəllifi.

Keçən il məhz Qəzənfər müəllimin və Əlirza Xələflinin müəllifliyi ilə "Yaşayan Sərdar Əsəd" kitabı oxuculara təqdim olundu. Bu kitaba Sərdar Əsəd haqqında ədəbi-publisistik qeydlər, xatirlər, təəssüratlar və digər mətnlər daxil edilmişdir. Qırxa yaxın müxtəlif səpgili yazıda əsasən üç xətt diqqəti cəlb edir. Birinci xətt şairin keçdiyi ömür yolu, ikinci xətti-onun şəxsiyyəti, üçüncü xətt isə S.Əsədin yaradıcılığı. Təbii ki, bu xətlərin hamısı bir-birilə əlaqəlidir Şairin oğlu Yaşar Əsədovun "yaşam yolu" yazısı oxucular üçün daha maraqlıdır, çünki onun həyat yolu hamar və düzxətli olmamışdır, bir çox çətinliklərdən, sarsıntılardanvkeçmişdir. Şairin aitası Heydər kişi və onun həyat yoldaşı otuzuncu illərdə Sibirə sürgün edilmişdi, səbəb bu idi ki, Heydər kişi kollektivləşə siyasətini bəyənməmişdi, amma sonra yeni hökumət tərəfindən bağışlanılır. Sərdar Əsəd orta məktəbdə oxuyur, müharibənin ağır illərini görür. Orta məktəbi bitirdikdən sonra, Ağdam ikiillik Müəllimlər İnstitutunda təhsil alır, sonra isə APİ-nin dil və ədəbiyyat fakültəsinə daxil olur. Elə tələbəlik dövründə respublika mətbuatında şeirlərini dərc etdirir. 1957-ci ildə SSRİ Yazıçılar



İttifaqına üzv qəbul olunur. Elə həmin ilin mart ayında "Ədəbiyyat və incəsənət" qəzetində işə götürülür. Amma hansı səbəbdənsə az keçməmiş işdən çıxarılır və bir müddət işsiz qalır. Çətinliklə AEA-nın "Elm" nəşriyyatında əvvəl korrektor, sonra redaktor vəzifələrində çalışır. O, 1962-ci ildə ADPİ-nin aspiranturasına daxil olurnamizədlik dissertasiyası üzərində işləməyə başlayır. Amma buna nail ola bilmir, çünki yenə işsizsik, yenə çətin anlar "Sərdar Əsəd 70-ci illəri həqiqətən də sanki artıq bu həyatda deyilmiş kimi, yuxudaymış kimi yaşadı. Yox, işləyirdi-rayonlara yaradıcılıq səfərləri edirdi, mətbuatda dərc olunurdu, yazırdı, əsərlər yaradırdı, kitabları da çıxmışdı, iki ilə yaxın hətta "Azərbaycan gəncləri" qəzeti ilə ştatdankənar əsəkdaşlıq da etmişdi. Lakin bu artıq "fırtınalara qarşı üzən" Sərdar deyildi". Zəmanə dəyişmişdi amma Sərdar Əsəd dəyişmədi. Ölümündən 4 il əvvəl o, bir "vəsiyyətnamə" yazır: "Arxivim və əlyazmalarım - mən olmadıqda Məmməd İbrahim (Araz), Ələkbər Salahzadə, İsa İsmayılzadənin diqqətli qayğısı ilə açıla bilər". 1975-ci ilin iyunun 30-da isə öncə qeyd etdiyim kimi, Sərdar Əsəd intihar edir.

Əlbəttə, belə bir ömür yolunu-cəmi 46 illik həyatı rəsmi şəkildə, yalnız illərlə, aylarla nəzərə çarpdırmaq istəməzdik. O intiharın səbəbləri də çoxları üçün anlaşılmaz görünə bilər. Amma bu illərlə çətinliklər, sarsıntılar isində yaşayan bir insanın daxilində yaranan hisslərin fırtınaları idi. Amma maraqlıdır ki, onun şeirlərində ölüm qorxusunu görmədik.

Sərdar Əsəd onu xatırlayan bir çox insanların (Q.Kazımovun, İ.Tapdığın, Ə.Xələflinin) fikrincə, əqidəli bir şəxs idi, heç kimə boyun əyməyən, yeri gəldikcə haqsızlığa üsyan edən bir insan idi. Şəxsiyyət idi. Onun əsas işi, vəzifəsi şeiriyyət idi. Təbii ki, şairin şəxsiyyəti onun poeziyasında da əks olunur.

Burada iki müəllifin - Xalq şairi Məmməd Arazın və professor Qəzənfər Kazımovun fiuirlərinə itsinad edək.

"O deyərdi: "Mən balaca bir qələm sahibiyəm. Təzə şeir işləyəndə xəlvətə çəkilirəm ki, görən olmasın. Qələm sözümə baxmayanda elə bilirəm ki, onun düzgün şırım açmadığını kimsə görür, kimsə onu əlimdən qapıb sındırmaq istəyir. Qələmin də vəhmi var. O, canlıdır, o, xış kimi, kotan kimidir. Naşı əl torpağa xəyanət eləyir. Onun açdığı şumu malalamaq, toxum səpmək olmaz, olsa da cücərtir alınmayacaq. İlahi, gör hələ Füzuli olan şəxs nə sarsıntı keçirib . Onun yazılarını vərəqlədikcə çox aydın şəkildəı gözə çarpır ki, el ədəbiyyatı yaradıcılığının ən güclü bir qanadı oluğ Şairi əhatə eləyən canlı həyüat, ətraf mühit, müasir zamanın nəfəsi isə digər qanadı idi" (Məmməd Araz).

"Sərdarın mövzular aləmi isə çox genişdir. Həyatın yeniliklərini məhəbbətlə qələmə alırdıö Sevgi də, gəncliyin istək və arzuları da yaradıcılığında geniş yer tuturdu. Şeir texnikasına yakxşı bələd idi. Üslubu orijinal idi. Heç kəst təqlid etmir, heç kəsin yolu ilə getmirdi. Həqiqi xalq adamı idi. Zəhmət adamlarını poeziyaya gətirirdi" (Qəzənfər Kazımov).

Kitabda S.Əsəd poreziyasının özünəməxsusluğundan söz açan belə misallar çoxdur. Xüsusilə onun yaradıcılığına böyük məhəbbətlə yanaşan Çlirza Xələflinin yazılarında.Ona görə də təfərrüata varmayıb Sərdarın şeirlərindən bəzi nümunələrlə sözümüzü bitirək:

*Ana ağrısının sözü olaydım,*
*Titrəyib yanaydım tellərin üstə.*
*O yorğun ayağın izi olaydım-*
*Yataydım getdiyin yolların üstə*

***

*Bağladı günəşi dağın qarına,*
*Yaydı yalmanını atdı şəlalə.*
*Dözməyib düzlərin intizarına*
*Zirvədən özünü atdı şəlalə.*
*Dərələr söykənib o qayalara*
*Asılıb şəlalə sarmaşığından.*

***

*Fəsilləri qayğısında yaşapdar*
*İntizarı duman-duman dağlarım.*
*Doğma olar bahara da, qışa da,*
*Fikir-fikir, güman-güman dağlarım.*
*Güneyinə bənövşə baş qaldırar,*
*Çalmasına gül bağlamış dağlarım.*
*Qüzeyində kölgə yatar, qar durar-*
*Bir üzü yaz, bir üzü qış dağlarım.*

***

**Gedəni gəlməz olur**
**Hey fikir daşıyanlar.**
**Dünyada ölməz olur**
**Əzabla yaşayanlar.**

# Uğur olsun, Kapitan!

**İlk dəfə bir şeir məclisində görmüşəm Faiq Balabəylini. Mən şeir oxudum, deyəsən xoşuna gəlmişdi. Haralı olduğumla maraqlndı. Cəlilabdlı olduğumu deyəndə üzündə həm təəccüb, həm də sevinc hissini duydum. Çünki, o da Cəlilabadlı idi. Elə o dəqiqə özümdə ona qarşı bir doğmalıq duydum. Həm də gözlərindəki gülüş o qədər saf idi ki. Kəndimizin adını da soruşdu, hansısa əsgər yoldaşının adını çəkdi, dedi ki, sizin tərəflərdən olmalıdır. Amma dediyi adamı tanımadım.**

Həmin şeir məclisində o da şeir oxudu, məhbus həyatına həsr etdiyi şeir idi oxuduğu şeir. Mənə çox maraqlı gəldi, nisgilli bir şeir idi. O şeirdəki bir bənd o vaxtdan yaddaşımda ilişib qaldı...

***Axşamkı yağışdan sonra***
***küçələrdəki gölməçələrdə***
***qarışqa kimi***
***qaynaşacaq***
***çömçəquyruqlar.***
***Böyümək istəyəcəklər,***
***Böyüyüb qurbağa***
***olduğlarının***
***fərqində olmayacaqlar...***

Ən çox o "çömçəquyruq" ifadəsi mənə maraqlı gəlmişdi, şeirdə çömçəquyruq ifadəsini ilk dəfə eşidirdim.

Sonra getdiyim bir çox tədbirlərdə rastlaşdıq, salmlaşdıq. Mənim üçün onun yaradıcılığından əvvəl insanlığı daha da gözəldir, desəm zənn edirəm ki, yanılmaram. Bilirəm ki, belə insanlar daha etibarlı və güvənlidir. Axı hər adama inanıb, güvənmək olmur. Həyatda tutduğu mövqeyindən asılı olmayaraq insan öz sadəliyini qoruya bilirsə, deməli o adama dost demək olar. Məncə, Faiq Balabəyliyə güvəmnək olar!

Faiq Baləbəyli həm də dənizçi şairdir. Dənizi kənardan sevməyə nə var ki! Biz



dənizi kənardan seyr edirik, kənardan sevirik.Tufanına, küləyinə, həm də amansızlığına baxmayaraq. O isə tufanda, küləkdə dalğalarla çarpışır və dalğaların atıbtutduğu gəmidə hansısa şeirini yazır, əsərini yaradır. Və o, dənizin içindədir, dənizin özüdür! Ömrünü dənizə, ucsuz-bucaqsız sulara bağlayan kapitan şair... Səslənişi belə gözəldir!

Yaradıcılığından çox bəhs etmək istəmirəm, çünki görünən dağa bələdçi lazım deyii.

İstər şeirləri, istərsə nəsri çox gözəldir. Təkcə "Bayıldan bayıra" kitabı buna sübutdur. Çünki, şair "Bayıl" həbsxanasında yaşadıqlarını bu kitabda ətarflı əks etdirib. Ümumiyyətlə, hər bir yazıçının yaradıcılığında onun şəxsi həyatından nəsə var. Faiq müəllimin də yaradıcılığı onun yaşadıqlarıdır!

Onun şeirləri öz səsində elə gözəl səslənir ki..!

Məncə, kimsə o şeirləri Faiq müəllim kimi gözəl səsləndirə bilməz. Çünki, onun səsindəki nisgil, kədər şeirə bir gözəllik qatır.

Bir neçə dəfə qadın şairlərdən bir neçəsi Faiq müəllimlə bacı-qardaş olub olmadığımızı soruşub:

- Sən Faiqin bacısı deyilsən ki?

--Yooox!

-Amma o qədər bənzəyirsiniz ki...!

- Bəlkə də eyni torpağın yetirməsi olduğumuz üçün bənzərliyimiz ola bilər, həm də Faiq müəllim də sarışındır axı...))

Belə bir qardaşla, təbii ki, hər kəs fəxr edərdi, necə ki mən edərəm!

Arzu edirəm ki, onun ömrü və yaradıcılığı dəniz qədər əbədi olsun!

Qayıtdığı hər səfərdən yeni əsərlərlə qayıtsın!

**-Uğur olsun, Kapitan!**

**REYHAN KƏNAN**

# Bu şəxslərin ipoteka kreditlərinə maliyyə dəstəyi göstəriləcək



**Azərbaycan Prezidenti "Azərbaycan Respublikası Müdafiə Nazirliyinin strukturuna daxil olan Milli Müdafiə Universitetinin tabeliyindəki xüsusi təyinatlı təhsil müəssisələrində təhsil almış hərbi qulluqçulara verilən güzəştli ipoteka kreditlərinə dövlət tərəfindən maliyyə dəstəyi göstərilməsi" qaydalarını təsdiq edib.**

Adalet.az xəbər verir ki, bunu iqtisadçı deputat Vüqar Bayramov deyib. O bildirib ki, yeni qaydalara əsasən, hərbi qulluqçuların götürdükləri ipoteka kreditlərinə maliyyə dəstəyi göstəriləcək:

"Sənədə əsasən, 2024-2025-ci tədris ilindən başlayaraq xüsusi təyinatlı təhsil müəssisələrində təhsil alan və məzun olduqdan sonra Azərbaycan Ordusunda 5 il zabit və ya gizir (miçman) kimi həqiqi hərbi xidmət keçən hərbi qulluqçulara verilən güzəştli ipoteka kreditlərinə maliyyə dəstəyi veriləcək. Belə ki, güzəştli ipoteka kreditinin verildiyi tarixə ilkin ödəniş və aylıq annuitet ödənişlərinin bir hissəsi üzrə yalnız bir yaşayış sahəsinin satın alınması məqsədilə müddəti azı 15 il olan güzəştli ipoteka kreditləri üzrə maliyyə dəstəyinin göstərilməsi nəzərdə tutulur.

Maliyyə dəstəyinin həcminə gəldikdə isə yeni qaydalara əsasən, ilkin ödəniş üçün maliyyə dəstəyi ipoteka kreditinin maksimal məbləğinin 15 faizindən yuxarı olmamaq şərti ilə veriləcək. Annuitet ödənişləri üzrə isə maliyyə dəstəyi belə ödənişlərin 50 faizi həcmində olacaq.

Maliyyə dəstəyi almaq istəyən hərbi qulluqçularımız "Elektron ipoteka və kredit zəmanət" sistemi vasitəsi ilə müraciət edə bilərlər. Maliyyə dəstəyi göstərilməsi üçün Müdafiə Nazirliyinin bu məqsədlə açılmış bank hesabında vəsait saxlanılacaq.

Maliyyə dəstəyi daha konkret olaraq Müdafiə Nazirliyinin strukturuna daxil olan Milli Müdafiə Universitetinin tabeliyindəki Heydər Əliyev adına Hərbi İnstitutun bakalavriat səviyyəsində, o cümlədən bakalavriat səviyyəsinin hazırlıq kursunda, Bakı Hərbi Kollecində, Gəncə Hərbi Kollecində və Naxçıvan Hərbi Kollecində təhsil almış hərbi qulluqçulara verilən güzəştli ipoteka kreditlərinə veriləcək. Eyni zamanda, bu dəstək 2024-2025-ci tədris ilindən başlayaraq dövlətlərarası müqavilə əsasında xarici ölkələrin xüsusi təyinatlı təhsil müəssisələrində təhsil alan və məzun olduqdan sonra Azərbaycan Ordusunda 5 il zabit və ya gizir (miçman) kimi həqiqi hərbi xidmət keçən Azərbaycan vətəndaşları olan hərbi qulluqçulara da şamil edilir.

Azərbaycan Prezidentinin son fərmanı hərbi qulluqçularımızın sosial müdafiəsini gücləndirmək və mənzil təminatını daha da yaxşılaşdırmaqla yanaşı gənclərin hərbi sahədə təhsil almasını təşviq edəcək".

# RƏŞAD MƏCİDİN 60 İLLİYİNƏ HƏSR OLUNMUŞ KİTAB ÇAP OLUNUB




**Şair, yazıçı, jurnalist, Azərbaycan Respublikasının Əməkdar Mədəniyyət işçisi, "525-ci qəzet"in baş redaktoru, Azərbaycan Yazıçılar Birliyinin sədr müavini, Azərbaycan Mətbuat Şurasının sədri, Azərbaycan Respublikasının Prezidenti yanında Əfv Məsələləri Komissiyasının üzvü Rəşad Məcid (Məcidov Rəşad Museyib oğlu)in 60 illik yubileyinə həsr olunmuş "Ağ adam" adlı yeni kitab işıq üzü görüb.**

Kitab müstəqil ədəbi qurum olan "Yazarlar" jurnalı tərəfindən həyata keçirilmiş "Rəşad Məcid - 60" uzun müddətli layihənin yekunu olaraq, bu müddət ərzində müxtəlif mətbu orqanlarda yayımlanmış ən seçmə nəsr və nəzm nümunələri əsasında ərsəyə gətirilmişdir.

AMEA-nın prezidenti, akademik İsa Həbibbəylinin "Vətəndaşlıq və professionallıq nümunəsi" adlı giriş məqaləsində yubilyarın həyat və yaradıcılıq fəaliyyəti barədə tam dolğun məlumat verilib. Kitabda Rəşad Məcidin ömür yoluna işıq tutan Fəxri Uğurlunun, Vaqif Yusiflinin, Xalq şairi Nəriman Həsənzadənin və digər qələm adamlarının yazıları yer alıb. "Yazarlar" jurnalının baş redaktoru Zaur Ustac tərəfindən tərtib olunmuş "Ağ adam" kitabının redaktoru Günnür Ağayeva, naşiri isə Tuncay Şəhrilidir.

Kitab yaxın günlərdə yubilyara və geniş oxucu kütləsinə təqdim olunacaq.

## Azərbaycanda orta aylıq əməkhaqqı artıb

**Bu ilin yanvar-iyul aylarında Azərbaycan iqtisadiyyatında muzdla çalışan işçilərin orta aylıq nominal əməkhaqqı əvvəlki ilin müvafiq dövrünə nisbətən 8,3 % artaraq 1 002,4 manat təşkil edib.**

Adalet.az Dövlət Statistika Komitəsinə istinadən xəbər verir ki, iqtisadiyyatın mədənçıxarma sənayesi, maliyyə və sığorta fəaliyyəti, peşə, elmi və texniki fəaliyyət, informasiya və rabitə, eləcə də nəqliyyat və anbar təsərrüfatı sahələrində orta aylıq nominal əməkhaqqı daha yüksək olub.

Bu il avqustun 1-nə ölkə iqtisadiyyatında muzdla çalışan işçilərin sayı 1 759 min nəfər olub, onlardan 881,7 min nəfəri iqtisadiyyatın dövlət sektorunda, 877,3 min nəfəri isə qeyri-dövlət sektorunda fəaliyyət göstərib.

Məlumata görə, muzdla işləyənlərin 18,8 %-i ticarət; nəqliyyat vasitələrinin təmiri, 18,3 %-i təhsil, 12,8 %-i sənaye, 8,3 %-i əhaliyə səhiyyə və sosial xidmətlərin göstərilməsi, 7,1 %-i tikinti, 6,4 %-i dövlət idarəetməsi və müdafiə; sosial təminat, 4,3 %-i nəqliyyat və anbar təsərrüfatı, 3,8 %-i peşə, elmi və texniki fəaliyyət, 3,3 %-i kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq, 2,2 %-i maliyyə və sığorta fəaliyyəti, 14,7 %-i isə iqtisadiyyatın digər sahələrində məşğul olub.

## Sumqayıt sakinlərinə şad xəbər: Bakıdan yeni marşrut xətti açılır

**Bakıdan Sumqayıt şəhərinə yola düşmək istəyən vətəndaşlar paytaxtın müxtəlif ərazilərindən həmin istiqamətdə fəaliyyət göstərən avtobus marşrutlarından istifadə edə bilərlər.**

Azərbaycan Yerüstü Nəqliyyat Agentliyindən Adalet.az-a bildirilib ki, Sumqayıt şəhərinə daha tez çatmaq üçün vətəndaşlar "Avtovağzal" metrostansiyasından "Neoplan" avtobusların fəaliyyət göstərdiyi 595 nömrəli ekspres marşrut xətti, habelə Saray qəsəbəsindən keçməklə 503 nömrəli müntəzəm marşrut xətti ilə gedə bilərlər. Bakı-Sumqayıt şosesində yaradılan xüsusi hərəkət zolağı isə sərnişinlərin rahat və sürətli daşınmasını təmin edir.

"Bu həftənin sonundan etibarən isə Sumqayıta metronun "Azadlıq prospekti" stansiyasından da yola düşmək mümkün olacaq. Belə ki, "Azadlıq prospekti" stansiyasını Sumqayıt şəhərinin Sülh küçəsi ilə əlaqələndirən 123 nömrəli müntəzəm marşrut xətti üzrə gündəlik 15 avtobus sərnişinlərə xidmət göstərəcək. Eyni zamanda metronun "20 Yanvar" stansiyasının yaxınlığından və "Şamaxinka" adlanan ərazidən Xırdalan şəhəri və Masazır qəsəbəsinə müntəzəm avtobus marşrutları fəaliyyət göstərirlər. Bu ərazidən keçməklə Xırdalana 119 və 135, Masazıra isə 525 nömrəli marşrutlar hərəkət edir", - deyə AYNA-dan verilən məlumatda bildirilir.

**Qeyd edək ki, Bakı şəhərindən Sumqayıt şəhəri və Abşeron rayonunun müxtəlif ərazilərinə müntəzəm avtobus marşrutları ilə gündəlik təqribən 80 minə yaxın sərnişin daşınır. Hazırda Bakı şəhərinin istənilən ərazisindən avtobus və metro vasitəsilə "Avtovağzal" stansiyasına və Beynəlxalq Avtovağzal Kompleksinin Nəqliyyat Mübadilə Mərkəzinə (HUB) getmək mümkündür. HUB-dan Bakı və Sumqayıt şəhəri və Abşeron rayonunun müxtəlif istiqamətlərinə 27 marşrut üzrə 260-dan çox avtobusla sərnişin daşımaları həyata keçirilir.**

**Adilə Nəzərova,**
**Filologiya üzrə fəlsəfə doktoru**



# Poeziyamızın müəllim obrazı

### İbrahim Yusifoğlunun 70 illik yubileyinə

**Fransız şairi və sənətşünası Şarl Pyer Bodlerin bir fikri var: "Nə şeir öyrədir, nə də şair müəllimdir." Amma məncə bu fikirdə istisnalar var, çünki əksər müəllim-şairlərin yaradıcılığında az və ya çox öyrətmənlik hiss olunur. Əlli il müəllim fəaliyyəti göstərən şair-publisist İbrahim Yusifoğlu həm də yaşını - yaşadıqlarını obrazlı və poetik ifadə edən yazarlardandır ki, onun yaradıcılığı, ümumilikdə orijinal nəsr-poeziya üslubu ilə bir müəllim qələmini oxucuya hiss etdirir.**

*Ən parlaq ulduzdu, nur saçan aydı,*
*Dalğalı dənizdi, ləpəli çaydı,*
*Ömrü ömürlərə paylanan paydı,*
*Safdı, müqəddəsdi müəllim ömrü.*

Və ya:

*Bir insan ömründən söz açıram mən,*
*O, Günəş ömrüdü, sönməyəcəkdir.*
*Səadət verdiyi milyonlar qəlbən,*
*Onun haqq yolundan dönməyəcəkdir.*

Şairə görə müəllim işıq (təbii ki, burada işıq ziya - aydınlıq, elm, zəka anlamındadır) payladığı üçün günəş ömrü yaşayır. Bu yol haqq yoldur və haqqın yolu dönülməzdir, yəni, dünya - insan var olduqca davam edəcək yoldur - öyrənənlər öyrədəcəklər...

Bəlkə də şairin uşaq şeirləri yazmağında da peşəsinin böyük rolu olmuşdur. Uşaq şeirləri adətən uşaq psixologiyasını yaxşı bilməkdən və müəllim təcrübəsindən yaranır. Müəllimlər hətta valideynlərdən də çox uşaqların cəld, diqqətli və ya dalğın, qoçaq və ya tənbəl, səliqəli və ya pinti olduğunu müşahidə edirlər. Gördükləri, şahidi olduqları hər bir hekayə məzmunlu hadisəyə poeziya vasitəsilə müraciət etmək zərurəti, ən azı şair-müəllim kontekstində bir ehtiyacdır, daha maarifçi "şair müəllim"ə xas bir üstünlükdür, hətta bir məcburiyyətdir. Əlbəttə ki, uşaq poeziyası nağıl deyil, o mətnlərdə mütləq maarifləndirici amillər olmalıdır. Bu baxımdan, İ.Yusifoğlunun uşaq şeirləri bir çox jurnal və dərgilərdə yayımlanır, sevilərək oxunur. Onun sadə üslubda qələmə aldığı vətənə, bayrağa, valideynə, heyvanlara, quşlara və s. sevgi və duyğu dolu şeirləri şagirdlərin layiq bir vətəndaş kimi yetişməsi üçün önəmli olmaqla, həm də şair-müəllim üçün fərdin həyata, cəmiyyətə münasibətini, reaksiyalarını öyrənmək məqsədi daşıyır. Şair şagirdlərdə yaranan dəyişiklikləri izləyir, bu da onun həm müəllim fəaliyyətində, həm də yaradıcılığında önəmli, dəqiq material olur. İ.Yusifoğlu bu şeirlərilə eyni zamanda Azərbaycan uşaq ədəbiyyatının zənginləşməsinə xidmət edir.

İ.Yusifoğlu "insan təbiətin bir parçasıdır" həqiqətindən yola çıxaraq, bəzən təbiəti - ağacı, kolu, gülü- çiçəyi də müəllim obrazında görür.

*Uzaq dağ kəndində bir yaz günündə,*
*Təbiət qəlbimi ovsunlamışdı.*
*Çopur qayalar da gözüm önündə,*
*Günəşdən xoşlanıb yosunlamışdı.*

*Yamyaşıl dünyaydı yalı-yamacı,*
*Tanrı da nurunu gur ələmişdi.*
*Dağın döşündəki badam ağacı*
*Bənövşə çiçəyi çiçəkləmişdi.*

*...Bəlkə, müəllim ömrü yaşadığından,*
*Badam bənövşəyi al çiçəkləyib.*
*Yaqin, şagirdlərin barmaqlarından*
*Şehli çiçəklərə mürəkkəb dəyib.*

*... Şərur çuxurunda baharın tacı,*
*Gül-çiçək könlümü məst eləmişdi.*
*Gözlərim önündə badam ağacı*
*Bənövşə çiçəyi çiçəkləmişdi.*

Vətən hissi bəşər tarixi qədər qədimdir. Bu mövzu Azərbaycan poeziyasında daim işlənmişdir. Sovet dövründə, əsasən 70-80- ci illərdə çox müəllifin yaradıcılığında olmasa da, vətənin azadlığı, müstəqilliyi arzusu ilə yazan şairlər də vardı. İ.Yusifoğlu vətəni tanıyandan onun dərdi ilə yaşadığını açıq-aşkar yazmasa da dilə gətirir:

*Mənim nəyim vardı,*
*kənd uşağıydım,*
*Gəzirdim kədərsiz,*
*dolaşırdım şən,*
*Elə ki, göz açıb*
*səni tanıdım,*
*Dərdlərin belimi əydi,*
*ay Vətən!*




Sovet İttifaqının dağılması nəticəsində yeni dövrə qədəm qoyan digər ölkələr kimi, Azərbaycanda da inkişaf və dəyişikliklər baş verdi və təbii olaraq poeziyada vətən mövzu və ya alt motiv kimi, bəzən romantik, bəzən də realist perspektivdən işlənməyə başladı. Müstəqillik illərindən sonra tam mənası ilə azad vətən düşüncəsilə yazanların sayı artdı. Etiraf edək ki, o vaxtdan ta son illərədək ölkəmizdə heç səngiməyən müharibələrdə torpaq itirən, daim özünü müdafiə etməyə çalışan, özündən-özünə geri çəkilmək məcburiyyətində qalan, hətta bəzən əlində olanı da itirmək qorxusu yaşayan bir dövlətin şairləri xalqı ancaq güclü şəkildə təsirləndirən, onları mübarizəyə çağıran şeirlər yazmaqla yetindilər. Digər şairlər kimi bu hal İ.Yusifoğlunun da şeirlərində özünü göstərdi. Qarabağ Zəfərindən sonra isə bütün şairlər kimi o da Vətəni bir ayrı cür - ürəklə, həvəslə tərənnüm etməyə başladı.

*Döyüşlərdə dönər dəmir yumruğa,*
*Haya yetən xilaskar quş Simurqa,*
*Səslənəndə el qarışar xoş çağa -*
*Zəfər nəğməsi.*

*İgidlərlə o eyləyər yoxdan var,*
*Mərd əllərdə ilmələnər, toxunar,*
*Azad eldə, azad dildə oxunar -*
*Zəfər nəğməsi.*

İ.Yusifoğlunun demək olar ki, yaradıcılığının çox hissəsi tərbiyəvi əhəmiyyət daşıyır.

Vətən şeirləri də məhz uşaqlar üçün məqsədli yazılıbmış kimi, sadə və yaddaqalandır.

Şair ömrünün çox hissəsini doğulduğu Şərur rayonunda yaşadığı üçün əsasən, dogma yurdun tərənnümünü, tarixi abidələrini, çaylarını, dağlarını, eyni zamanda ağrı-acısını qələmə almışdır. "Şərurun" şeirində şərurluların milli kimliyi ilə yanaşı, qədim yurdun tarixində yaşanan fəlakətləri çox təsirli şəkildə çatdırır:

*Dədə Qorqud gəzən Oğuz elimdi.*
*Uludu torpağı, daşı Şərurun.*
*Dili Türkün dili - ana dilimdi,*
*Qədimdən-qədimdi yaşı Şərurun.*

*Burda arxalanıb dağlara dağlar,*
*Dərin dərələrdə çayları çağlar.*
*Torpağı göynəsə göyləri ağlar,*
*Arpaçay sayılır qaşı Şərurun.*

*Tanrı özü bilən dərd göndəribdi,*
*Neçə fəlakəti sərt göndəribdi,*
*Namərdin önünə mərd göndəribdi,*
*Bəlalar çəkibdi başı Şərurun.*

*Gəzdikcə görərsən barlı düzləri.*
*Zəhmətlə nurlanan gülər üzləri.*
*Tanrı yaradandan ta üzü bəri,*
*Yeyilir ellərdə aşı Şərurun.*

Sonuncu bənddə qafiyə olan "aşı" sözünə diqqət çəkmək istəyirəm. Burada sözü iki mənada qəbul etmək olar. Birinci mənada şair Şərur aşının-plovunun dadının fərqliliyini, ellərdə sevildiyini qeyd edir, ikinci mənada qədim türklər bişirilərək yeyilən bütün xörəklərə "aş" deyiblər. Bu da qədim türkcənin xüsusiyyətlərinin Azərbaycan dilinin tarixində və müasir mərhələlərində, həmçinin Şərur elinin dialektində qorunub saxlanmasını göstərir.

İ.Yusifoğlu 26 il erməni girovluğunda olan Şərur rayonunun Günnüt kəndinin azad olunması münasibəti Günnütü belə salamlayır:

*Salam, Oğuz eli - Vətən torpağı,*
*Salam, Dədə Qorqud gəzən Günnütüm.*
*Düşmən caynağında qalan çağları,*
*Halı qəlbimizi üzən Günnütüm.*

*Sən türk torpağısan, türk dillisən sən,*
*Babam Xətainin sevdiyi yersən,*
*"Koroğlu" zağalı tarixsən, sirsən,*
*Həm dağlı, təpəli, düzən Günnütüm.*

*...Salam, Naxçıvanın əzəl torpağı,*
*Salam, Xan çinarın solmaz yaprağı,*
*Ən uca zirvəndə Vətən bayrağı,*
*Düşməni köksündən əzən Günnütüm,*
*Qeyrəti dillərdə gəzən Günnütüm!*

İ.Yusifoğlu elə müəllimlik etdiyi dövrlərdən vətənpərvər, maarifçi, həyati, sevgi və s. mövzularda şeirlər yazsa da müəllimliyini daha öndə tutan düşüncəsini çatdırır. Bəlkə də, sual etsələr cavabı belə olmayacaq, amma şeir şairin daxili aləmini özü də istəmədən açır.

*Heç nə qalmayıbdı kövrəkliyimdən*
*Qaynayıb qurudu gileylərim də.*
*Bir xeyir görmədim söz əkməyimdən,*
*Yellərə sovruldu ay, illərim də!*

İ.Yusifoğlu həm müəllim, həm də şair kimi tanınır və sevilir.

Bu il şairin haqqında yazılan məqalələrdən ibarət "Ömür dastanının boyları" (İbrahim Yusifoğlu- 70) adlı kitab nəşr olunub. Geciksəm də, ömrünün 70-ci ilində Yubiley təbriki məqsədilə şeir, poema ilə yanaşı hekayə, povest, mənzum pyes və s. kimi nəsr kitablarının müəllifi olan İ.Yusifoğlunun yaradıcılığının müəllim-şair tərəfinə kiçik bir baxış etdim.

*Qırx ildir, qələmlə külüng çalıram,*
*Hələ Fərhad arxı qazmamışam mən.*
*Göylərdən, yerlərdən ilham alıram,*
*Hələ öz şerimi yazmamışam mən.*

-deyən İbrahim Yusifoğluna bundan sonra da yazıb yaratmağı, xüsusilə yazmağı nəzərdə tutduğu şeirilə 80 illiyində yenidən oxucularını salamlamağı arzulayıram!

Ülkər Veysəlli-Hacıyeva
Sənətşünaslıq üzrə Fəlsəfə doktoru, Azərbaycan Rəssamlar İttifaqının üzvü

# Vurğun insan



**1990-cı ildə Kukla teatrının direktoru Ələkbər Qasımovun (müəl: rəssam Məmməd Qasımovun oğlu) dəvətilə M.T.Sidqi adına Naxçıvan Dövlət Kükla teatrında baş rəssam kimi dəvət olundum. Mən Naxçıvan teatrında Xalq artistləri Zenfira Əliyeva, Məmməd Quliyev, Əyyub Haqverdiyev, Aydın Şahsuvarov, İbrahim Bənəniyarlı, Sofya Hüseynova, Əkbər Qardaşbəyov, Həsən Ağasoy, Kamran Quliyev və b. ilə çiyin-çiyinə çalışmışam. Və bu gün də fəxr edirəm ki, belə böyük sənətkarlarla birgə addımlamışam" fikrini rəssam Əli Səfərov qürurla səsləndirir. Beləcə bu notlarda rəssam düşüncələrini davam etdirərək söyləyir: "Naxçıvan teatrında işlədiyim vaxt Xalq artisti, teatrın baş rejissoru Vaqif Əsədov, Baxşı Qələndərli, quruluşçu rejissor, Naxçıvanın Əməkdar İncəsənət xadimi Əliqismət Lalayev və teatrın quruluşçu rejissoru Vəli Babayevlə 1983/1987-ci illər ərzində 16 tamaşaya səhnə tərtibatı və geyim eskizi vermişəm".**

Ümumilikdə teatr rəssamı kimi Əli müəllimin teatrda yaradıcılıq illərini aşağıda qeyd etdiyim dövlərə bölmək olar:

1983/1987-ci illər Naxmıvan Dövlət Musiqili Dram Teatrı;

1990/2012-ci illər Naxçıvan Dövlət Kukla Teatrı;

2009/2016-ci illər Babək rayon Xalq Teatrı.

Əli müəllimin 2009-cu ildə Babək rayon Mədəniyyət evində fəaliyyət göctərən "Buta" adlı dram dərnəyində Q.Fiqeyredunun "Ezop" tamaşasına verdiyi peşəkar səhnə tərtibatına görə Babək rayon Xalq Teatrı yaradılır.

Əli Səfərovun yaradıcılığı çoxşaxəlidir, bunun bariz nümunəsini indi sizinlə bölüşəcəm. Fırça ustası fitri istedada malik bir insandır, öz dəst-xəttini yaratmış rəssamdır, gözəl qələm sahibidir, həm də mahir ifaçıdır! Bəli, Naxçıvan Dövlət Kukla teatrında aktyor kimi təmənnasız bir çox rolların ifaçısıdır. İnsan, rəssam ruh gözəlliyini nə qədər incə duymalıdır ki, körpə fidanları səhnədə təmənnasız yaratdığı obrazları canlandıraraq sevindirsin. Rəssam və aktyor... İkisini də yaratmaq üçün ruh, ürək, qəlb gərəkdir. Adını çəkdiyim anlayışların vəhdətində Əli Səfərov ruhu ilə görən, qəlbi ilə duyan, ürəyi ilə hiss edən rəssamdır. Yəqin ki, buna görə rəssamın əsərlərini, tablolarını seyr edərkən nədənsə, su şırıltısı, yallı hayı, dağ harayı eşidirəm sanki...

Bir az öncə Əli Səfərovun qözəl qələmə malik olduğunu yazmışdım. O neçə-neçə məqalə və kitabların müəllifidir. Uzun müddət Naxçıvan Dövlət Radiosunda "İncəsənət radio proqramı" adlı müəllif verilişini aparmışdır. Bu zaman o, incəsənət aləmində baş verən yeniliklər, düşüncələr, tapıntılar, keçmişin və müasirliyin kəsişməsindən, ziddiyyət və təzadlarından, rəssamların yaradıcılığından, üslub və istiqamətlərdən bəhs edərək çox maraqlı məqamları işıqlandırmışdır. Verilişin efirə getdiyi müddər ərzində Əli Səfərov Bəhruz Kəngərli, Səttar Bəhlulzadə, Mikayıl Abdullayev, Tahir Salahov, Vəcihə Səmədova, Həsən Haqverdiyev, Şamil Qazıyev, Əyyub Fətəliyev, Çingiz Əzizov, Ülviyyə Həmzəyeva, Kamil Nəcəfzadə, Rafis İsmayılov, Nazim Bəykişiyevin yaradıcılığından, antik və intibah heykəltəraşlığı və rəssamlıq tarixindən, Azərbaycan xalça sənətindən, miniatür məktəbindən bəhs etmişdir.



Əli müəllim eyni zamanda bir sıra uşaq ədəbiyyatı kitablarına illüstrasiyalar vermişdir. Uşaq ədəbiyyatına üllüstrasiyalar işləyən rəssam haradasa qəlbində özü də uşaq olmalıdır. Rəssam yaradıcılığı boyu istər vətəndə, istərsə də xarici ölkələrin rəsm salonlarında, sərgi zallarında onlarla sərgilərin, beynəlxalq rəsm festivallarının iştirakmısı olmuş, əsərləri nümayiş olunaraq seyrçilərin ixtiyarına verilmişdir. Əli Səfərovun illər boyu sanki yaradıcılıq hesabatı olan ilk fərdi sərgisi 2012-ci il Naxçıvan Rəssamlar Birliyinin Bəhruz Kəngərli adına sərgi salonunda keçirilmişdir. Palitra ustasının ikinci fərdi sərgisi isə çox maraqlı anlarla yaddaqalan olmuşdur. İkinci fərdi sərgi 2014-cü ildə Əli müəllimin 60 illik yubileyinə təsadüf etmişdir. Elə həmin il növbəti yaddaqalan məqam o olmuşdur ki, Əli Səfərova Əməkdar rəssam fəxri adı verilmişdir.

Əli müəllimin yaradıcılığını xarakterizə edərkən sənətkarın həyat və yaradıcılığına həsr olunmuş şairə-dramaturq, Əməkdar İncəsənət xadimi Aybəniz Ağaqızının (Qeyd: A.Ağaqızı Ə.Səfərovun həyat yoldaşıdır) müəllifi olduğu "İşıqlı sənətkar ömrü" kitabından olan ifadənin təbirincə - "Tanrının bizə bəxş etdiyi bütün rəng çalarları" Əli müəllimin yaradıcılığına hakim kəsilib. Rəssamın "Çoban iti ilə", "Mənzərə", "Nağıllar aləmi", "İlanlı dağ", "Şərur yallısı", "Gülüstan türbəsi", "Xanəgah", "Qaçqınlar", "Şəhriyar", "Ayasofya", "Çayçı", "Şərur yolu", "Xan Araz", "Milli dəyərlərimiz" silsiləsindən "Rəqs" (Sudan gələn kuzəli qız), "Mirzə Cəlil", "Natürmort", "Naxçıvanda qış", "Azadlığa aparan yol, İlham və Fərizə", "Vayxır gölü", "İlk nübar", "Akvarium", "Dədə Qorqud harayı", "Düşüncə. Bəhruz Kəngərli", "Ağaclıq", "Gəzinti", "Nəhəcir dağı", "Qızıl payız", "Ordubad dağları", "Dağ kəndi", "Üzən ada", "Batabat", "Əlincə qalası", "Şahbuz yolu", "Yaz yağışı", "Naxçıvanda şənlik", "Biləv", "Qanlıgöl yaylağı", "Xalçaçı qız", "Qız alma ilə"... adlı əsərləri saymaqla bitmir. Əli Səfərov yaradıcılıq yolunda tək bir üsluba üstünlük vermir. Onun tablolarına nəzər yetirdikdə bir necə üslubun eyni anda iştirakının şahidi oluruq.

İncəsənətdə üslub və istiqamətlər müxtəlifdir. Vahid üslub anlayışı axtarışımız yanlış olar, çünki hər bir yeni üslub ondan öncəki üslubun davamıdır və bu üslub da özündən sonrakı mərhələyə ötürülərək rəvan şəkildə hərəkət edir. Bədii üslub çərçivəsində sənətə yenisi "doğulur". Bəzən bir üslubda bir neçə üslubun vəhdətinə, sintezinə, cəminə və mövcudluğuna rast gəlinir. Bunları yazmaqda əsas məqsədim incəsənətdə üslub və istiqamətlərin nəzəri hissəsindən bəhs etmək deyil, əsas qayəm söhbəti rəssam Əli Səfərovun dəst-xəttinin üzərinə gətirməkdir.

Yuxarıda qeyd etdiyim kimi, Əli müəllimin palitrasında müxtəlif üslublara müraciət edərək, həddən ziyadə təkrarsız, şux, rəvan, rövnəq dağ süxurlarını xatırladan rəng çeşidləri ilə seyrçini heyrətləndirməyə qadirdir. Rəssamın özünün dediyi kimi - "Özünü tapmaq üçün daim işləməlisən. Rəssam öz cığırını (müəl: bu ifadə nə qədər də doğrudur) tapmaq üçün illərlə yol getməlidir."

Rəssam yaradıcılığında zirvəyə çatmaq üçün özüözü ilə döyüşməli, mübarizə apararaq qalib gəlməlidir. Deməli sənət yolu mübarizə yolundan keçir. Rəssam üçün qalxaraq çatdığı bir zirvə növbəti zirvəyə aparan yolun astanasıdır. Beləcə rəssam əlində fırça və növbəti mübarizə yolu!

Ümumiyyətlə sənət, yaradıcılıq adamı hərtərəfli yüksək biliyə, geniş dünyagörüşünə malik olmalıdır. Malik olmalıdır ki, dövrünün, zamanının nəbzini tuta bilsin, çərxi fələyin dövranı ilə ayaqlaşa bilsin. Vizual sənətdə çox müxtəlif üslub və istiqamətlər var. Çox vaxt onların dəqiq müəyyən edilmiş sərhədləri yoxdur və davamlı inkişafda, qarışıqlıqda və müxalifətdə olmaqla bir-birindən oynaq şəkildə hərəkət edirlər. Bir tarixi bədii üslub çərçivəsində həmişə yenisi doğulur və o da öz növbəsində axarıncısına keçir. Eyni vaxtda bir çox üslublar mövcuddur və buna görə də ümumiyyətlə "təmiz üslub" anlayışı yoxdur. Üslubların vəhdəti, sintezi və harmoniyası var.

Əli Səfərovun yaradıcılığının ovsunlayıcı xüsusiyyəti ondadır ki, rəssamın əsərlərini seyr edərkən onun iş zamanı nəticə yox, aksionizmdə olduğu kimi iş prosesindən zövq alaraq sənət yaratmasıdır. Güclü bədii təfəkkür və təxəyyülə malik sənətkar, palitra ustası Əli Səfərovun dediyi kimi, sevərək çalışdığı miniatür janrı onun yaradıcı fəaliyyətində əsas qollardandır. Rəssamın əsərlərində miniatürsayağı ab-havanın olması Naxçıvanın sirli, məftunedici, nağılvari, əfsanəvi dağlarının təsiri və vurğunluğudur.

Həzrəti Nuhun adı ilə hallanan, dünyavi və qeyri dünyavi anlayışa malik cazibə qüvvəsi ilə bəşəriyyəti heyrətləndirən Əshabü Kəhf, əzəmətli, qürurlu duruşu ilə məğrur, Naxçıvanın mərd gözətçiləri Haçadağ, Nəhəcir dağı! Dünya tufanınadək və sonrakı mərhələdə bəşəri tarixdə səmavi kitablardan tanınan qədim Nəqşi Cahan torpağının, havasının, suyunun qoxusunu və tamını düşünürəm ki, ancaq sənət insanı incəsənət vasitəsilə mənəviləşdirərək çatdıra bilər, necə ki, istedadlı rəssam Əli Səfərov dağın, havanın, suyun, küləyin, torpağın, rəngini kətan üzərinə fırçasına xas şəkildə köçürməyin sirlərini tapıb palitrasında təsvir edir.

Qayıdaq qaldığımız yerə... Əli müəllimin dediyi kimi-"Hələ tələbəlik illərindən miniatür janrını bəyənirdim". Rəssamın bu janrda yaratdığı tablolardan "Nağıllı dünyam", "Azərbaycan", "Doğma diyar", "Nizami", "Dədə Qorqud harayı", "Füzuli", "Dahilər diyarı", "Mirzə Cəlil", "Sabir və zəmanəsi", "Şəhriyar", "Səttar", "Düşüncə. Bəhruz Kəngərli" və s. sadalamaq olar.

**"Dədə Qorqud harayı" tablosu süjet və kompozisiya, rəng çalarları və yaxı ustalığı baxımından seyrçini heyrətləndirməyə bilməz. Əsərə baxarkən rəğbət və məftunluq hissi insanı bürüyür. Miniatür janrına xas təsvir olunmuş burma-burma buludların arasında Türk, Altay və Oğuz rəvayət və dastanlarındakı el ağsaqqalı, ozan Qorqud Ata əlində qopuz günəş şüalarının döşündə bərq vuran dağların başı üzərindən oğuz elinə xeyirdua verir. Tabloda Dədə Qorqud ümumiləşdirilmiş obraz şəklində verilmişdir. Əsərdə Odlar Yurdunun demək olar ki, bütün adət-ənənələri, folklorumuz, dekorativ-tətbiqi sənət nümunələrimiz, nağıllarımız, "Dədə Qorqud" dastanlarımızın boyları süjet və kompozisiya baxımından yüksək təxəyyül və təfəkkür inikasıdır.**

# "ÇAĞDAŞ QƏRBİ AZƏRBAYCAN AŞIQLARININ MUSİQİ REPERTUARI" ADLI AUDİODİSKİN TƏQDİMATI OLUB



**2024-cü il sentyabrın 5-də Azərbaycan Aşıqlar Birliyində Azərbaycan Respublikasının Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyinin maliyyə dəstəyi ilə Birliyin həyata keçirdiyi "Qərbi Azərbaycan aşıqlarının musiqi repertuarı" adlı layihə çərçivəsində hazırlanmış audiodiskin təqdimatı olub.**

Azərbaycan Aşıqlar Birliyinin sədri, Əməkdar elm xadimi, professor Məhərrəm Qasımlı tədbiri açaraq layihənin həyata keçirilməsinin əhəmiyyətindən söz açıb, hazırlanmış audiodiskin aşıq sənətinin tədqiqatçıları və gənc aşıqlar üçün dəyərli bir vəsait olduğunu qeyd edib, Qərbi Azərbaycan aşıq mühitlərinin öyrənilməsinə və təbliğinə bundan sonra da böyük diqqət yetirləcəyini vurğulayıb. Layihənin həyata keçirilməsində göstərdikləri maliyyə dəstəyinə görə Azərbaycan Respublikasının Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyinə rəhbərlik etdiyi qurumun adından minnətdarlıq edib.



Aşıqlar Birliyinin katibi, layihənin rəhbəri, Əməkdar mədəniyyət işçisi Musa Nəbioğlu öz çıxışında qeyd edib ki, layihədə əslən Qərbi Azərbaycandan olub, ötən əsrin sonlarında öz dədə-baba yurdlarından didərgin salındıqdan sonra respublikamızın müxtəlif guşələrində məskunlaşmış aşıqlarımızın musiqi repertuarına diqqət yetirilib, onların ifalarından ibarət audiodisk hazırlanıb. Bu zaman Qərbi Azərbaycanda yaradılmış və bu bölgənin aşıq mühitləri ilə bağlı olan havalara, mətn seçimində isə Vətən və vətənpərvərlik, Qərbi Azərbaycandakı yer-yurd yerlərimizlə bağlı şeirlərə üstünlük verilib, Qərbi Azərbaycanın Göyçə, İrəvan, Zəngəzər, Dərələyəz, Ağbaba, Loru-Pəmbək kimi bütün aşıq mühitlərinin əhatə olunmasına xüsusi diqqət yetirilib: "Audiodiskdə 24 müxtəlif aşıq havası yer alıb ki, bunları da əslən Qərbi Azərbaycandan olan Əməkdar mədəniyyət işçiləri Fətulla Göyçəli və Bəhmən Göyçəli, eləcə də Faxfur Ağbabalı, Ələddin Musaoğlu, Xanlar Xəlilov, İmran Xəlilov, İxtiyar Qocayev, Vaqif İbrahimov kimi ustad aşıqlarla yanaşı, Rəfiqə Göyçəli, Nərmin Salahova, Familə Göyçəli, Elməddin Bayramlı, İmralı Fikrətoğlu, Ləman Mirzəyeva, Ayaz Əzizoğlu və digər gənc istedadlı aşıqlar ifa ediblər".



Qeyd olunub ki, hazırlanmış audidisklər əsasən aşıq sənətinin tədris olunduğu universitet və kolleclərə pulsuz olaraq veriləcək ki, bu da sənətə yeni gələn yeniyetmə və gənclərin Qərbi Azərbaycan aşıqlarının musiqi repertuarına daha yaxından bələd olmalarına imkan yaradacaq. Layihədən eləcə də aşıq sənətinin tədqiqatçıları və musiqişünaslar da bəhrələnə biləcəklər. Moskvada yaşayıb fəaliyyət göstərən professor, əslən Göyçədən olan Şakir Səmədoğlu, ADMİU-nun dosenti, ustad aşıq Altay Məmmədli və Göyçədən olan digər ziyalı Yusif Ağbulaqlı bu layihənin Qərbi Azərbaycan aşıq mühitlərinin öyrənilməsində və bu mhitlərin sənət ənənəsinin qorunub yaşadılmasında müstəsna rol oynayacağını vurğulayıblar.

Sonra aşıqlardan İmran Xəlilov ("Göyçəgülü"), Toğrul Ataxallı ("Qədim Naxçıvanı"), Urmiyadan qonaq gəlmiş Qurban Əliyar ("İrəvan çuxuru") və onun oğlu Səhənd Əliyar ("Meydan divanisi"), Ləman Mirzəyeva ("Hüseyni"), Xanlar Alqayıt ("Kərəm gözəlləməsi"), Faxfur İsgəndəroğlu ("Köşəbaşı"), Sumqayıt şəhərindəki Bülbül adına 2 saylı Uşaq incəsənət məktəbinin şagirdləri Nuran Məhərrəmov və Röyal Məmmədov ("Dubeyti") və Əməkdar mədəniyyət işçisi Gülarə Azaflının rəhbərlik etdiyi "Çeşmə" folklor qrupunun ifasında ("Gəraylı" və "Cumagülü") müxtəlif aşıq havaları səsləndirlib.

**Sonda iştirakçılara "Qərbi Azərbaycan aşıqlarının musiqi repertuarı" adlı audiodisk hədiyyə olunub.**

**EMİL FAİQOĞLU**

## "Bakcell" "Vodafone Group"la əməkdaşlıq edəcək

**Ölkənin ən böyük özəl mobil operatoru "Bakcell" dünyanın aparıcı telekommunikasiya şirkəti "Vodafone Group"dan strateji tərəfdaşlıq dəstəyi alacaq.**

Bakıvaxtı.az xəbər verir ki, bu il "Vodafone" "Azerconnect Group" ilə tərəfdaşlıq müqaviləsi imzalayıb.

Müqaviləyə əsasən "Bakcell", qrupa bağlı şirkət olaraq, xidmət təkliflərini artırmaq məqsədilə süni intellekt əsaslı həllər və qabaqcıl məhsullar da daxil olmaqla, "Vodafone" şirkətinin təcrübəsindən istifadə edəcək.

"Vodafone" 15 ölkədə 330 milyondan çox müştəriyə mobil və sabit şəbəkə xidmətləri təqdim edir, daha 45 ölkədə isə mobil şəbəkələrlə əməkdaşlıq edirik. Şirkət dünyanın ən böyük IoT platformalarından birinə malikdir. Afrika qitəsində "Vodafone" şirkətinin maliyyə texnologiyaları müəssisələri hazırda 7 ölkədə 79 milyondan çox müştəriyə xidmət göstərir. Bu da digər provayderin əməliyyatlarından daha çoxdur.

"Bu əməkdaşlıq "Bakcell"in telekommunikasiya bazarında mövqelərini daha da gücləndirəcək və müştərilərimizə ən son innovativ həll yolları təqdim etməyimizə imkan verəcək. "Vodafone"la tərəfdaşlıq, həmçinin ölkədə rəqəmsal transformasiyanı sürətləndirəcək və yeni texnologiyaların tətbiqinə əhəmiyyətli töhfə verəcək", - deyə "Bakcell"in baş icraçı direktoru Klaus Müller bildirib.

"Vodafone"un Tərəfdaş Bazarları üzrə baş icraçı direktoru Petr Dvorjak isə öz növbəsində əlavə edib: "Biz telekommunikasiya şəbəkəsinin təkmilləşdirilməsi, əməliyyatların səmərəliliyi və müştəri xidmətləri sahəsində ən yaxşı təcrübələri bölüşmək məqsədilə dünyada bir sıra telekommunikasiya operatorları ilə əməkdaşlıq edirik. Biz qarşıdakı illər ərzində "Bakcell"lə birgə işləməyi səbirsizliklə gözləyirik.

Əminik ki, bu əməkdaşlıq "Bakcell"in fərdi və korporativ müştərilərinə böyük fayda gətirəcək".

"Bakcell" haqqında

"Bakcell" Azərbaycanın ilk və ən böyük özəl telekommunikasiya şirkətidir. Hazırda "Bakcell" üç milyondan çox müştərini yüksək keyfiyyətli və sürətli telekommunikasiya xidmətləri ilə təmin edir. Şirkət süni intellektə əsaslanan innovasiyalar və həllər vasitəsilə Azərbaycanın davamlı inkişafına töhfə verməyə çalışır və Azərbaycan iqtisadiyyatının qeyri-neft sektorunun ən böyük investorlarından biridir.

**"Bakcell" müxtəlif ölkələrdə enerji, telekommunikasiya, yüksək texnologiyalar və tikinti sahələrində fəaliyyət göstərən "NEQSOL Holding" beynəlxalq şirkətlər qrupunun tərkibinə daxildir.**

Fazil SƏNAN



# CƏLƏ

*Hekayə*

Qapıda ağacın kölgəsində qoyulmuş stolun arxasında əyləşmiş Tahirə arvada yaxınlaşan Günəş "Məni çağırırdın, ana?" - dedi.

- Hə, qızım, səni çağırırdım. Aşağı otur, sözüm var.

Anasının qarşısında əyləşən Günəş - "Qonağın var, qapı-bacanı təmizləmək lazımdır?", - deyə təbəssümlə anasına baxdı.

Qarşısında əyləşmiş qızını yeni görürmüş kimi, ah çəkərək, öz-özünə danışırmış kimi "Dünyada ana olmaqdan pis şey yoxdur" - dedi.

- Nolub, ana? Niyə gileylənirsən? Allaha şükür, oğlun-qızın, nəvələrin, pis də dolanmırıq. Nədən narazısan? De, bəlkə qızın Günəş sənin dərdinə bir dərman tapdı.

- Eh, ay qızım, mənim dərdim elə dərddi ki, ona çətin dərman tapıla.

- Ana, fikir eləmə, qızın Günəş ölməyib ki. Sənin dərdinin dərmanı qaranlıq dünyada devlərin əlində olsa belə, Məlikməmməd kimi devlərlə vuruşub Zümrüd quşunun köməyi ilə sənə çatdıraram. Amma bir şərtlə ki, sən dərdini de, dərmanı tapmaq qızın Günəşin boynuna.

- Çox inamla danışırsan, qızım.

- Ana, sən qızını yaxşı tanımırsan.

- Qızım, qaranlıq dünyaya getməyə ehtiyac yoxdur. Mənim dərdimin dərmanı bu dünyadadır.

- Lap yaxşı, ana. - Günəş durub anasının boynunu qucaqlayıb üzündən öpüb saçını sığallayaraq yanında əyləşdi və - hə, indi dərdini söylə görüm, ana. O necə dərddi ki, mənim anama ah çəkdirir? - söylədi.

Tahirə arvad qızının üzündən öpərək - "Mənim dərdimin dərmanı sənin əlindədir, qızım." - dedi.

- Ana, bəs niyə demirsən? Canım lazımdırsa, heç fikirləşmədən sənə qurban verməyə hazıram.

- Qızım, məni fikrimdən çox uzaqlaşdırdın. İndiyə kimi ana-bala aramızda pərdə olub. Amma indi məcburam açıq danışam.

- Danış, ana, qurban olum, danış. Ananın dərdini qızı bilməyəndə, bəs kim bilməlidir? - deyən Günəş maraqla baxışlarını anasının ağzına dikdi.

- A bala, o biri qardaş-bacıların ailə-uşaq sahibidirlər. Pis də dolanmırlar. Uşaqlarımın gözü sənsən. Allaha şükür, boy-buxun, gözəllik, ağıl, düşüncə səndə. Heç fikirləşirsən, sənin yaşıdların hamısı çoxdan köçüblər, ev-eşik, uşaq sahibi olublar. Bir belə gələn elçilərin birinə "hə" demirsən. Gizlətmə qızım, istədiyin varsa, utanma, de, anan da bilsin. Axı mən anayam, uşaqlarımı xoşbəxt görmək istəyirəm. Qonşuların "Günəşi istəyən yoxdur?", "Günəş nə yaxşı getmir?" və s. suallarına cavab verməyə utanıram. And içirəm ki, elə yerlərdən elçi gəlirlər ki, eşidəndə adamın inanmağı gəlmir. Ayrı evi-eşiyi, vəzifəsi, altının maşını olan neçə-neçə oğlanlar elçi düşüb, amma qız getmir. O günü qonşu Əsmər, o qoca kaftar bilirsən üzümə nə desə yaxşıdır?

- Nə deyir, ana?

- Deyir ki, Tahirə, xətrinə dəyməsin, sayılıb-seçilən yerlərdən elçilər gəlir, amma qız getmir. O gözəllikdə qız niyə ərə getməsin? Elçi gələn oğlanlara it dəyib, birini bəyənə bilmir? Arvadlığımla Günəşə mənim tamahım düşür. Əgər o gözəllikdə qız bir belə gələn elçilərdən birinə "hə" demirsə, demək torbada pişik var. Görünür qızın dəhnəni su-ya verib. Kaftarın sözü ortamdan güllə kimi keçdi. Dedim "Əsmər, o nə sözdü danışırsan, utanmırsan? Neçə ildir qonşuyuq, indiyə kimi Günəşin hansı pis hərəkətini görmüsən ki, mənim qızım haqqında axmaq şeylər düşünürsən?" Nə desə yaxşıdı?

- Nə dedi ana? - Günəş anasının əsəblərini sa-kitləşdirmək üçün təbəssümlə anasına baxdı.

- Dedi ki, bunu mən demirəm, Tahirə, qızının hə-rəkətləri deyir. Boylu-buxunlu, gözəl-göyçək, ağıllı bir qız gələn elçilərin birinə "hə" demirsə, demək qız işləri korlayıb. Qorxur ki, razılaşsa, sonra da toy gecəsi biabırçı vəziyyətdə ata evinə qaytarıla. Elə bir biabırçılıqdansa, qız adı ilə evdə qarımaq daha yaxşı deyilmi? Mən olanını dedim, Tahirə. Bir ana kimi get papağını qoy qabağına, yaxşı-yaxşı fikirləş, gör bu qoca Əsma düz deyir, yoxsa yalan.

Hə, bala, bizi dost-düşmənin ağzına söz eləmə. İstəsən də, istəməsən də, qızım, çoxları sənin haqqında Əsmər kimi fikirləşəcək.

- Ana, arxayın ola bilərsən, sənin qızının əlinə bir oğlan əli də dəyməyib. Düz deyirsən, mənim yaşıdlarımın çoxu ər evinə köçüb, mənsə hələ taleyimə çıxası "Ağ atlı oğlan"ı gözləyirəm. Ana, məni oğlanın var-dövləti, əsli-nəcabəti, vəzifəsi, maşını, evi maraqlandırmır. Mənə elçi gələn oğlanlar evlənmək, arvad-uşaq sahibi olmaq xatirinə gəlirlər. Ana, mən sevmədən, sevilmədən ailə qura bilmərəm. Ərə getmək xatirinə gedib, bir-iki ildən sonra yanımda uşaq ata evinə qayıdıb anama əlavə dərd ola bilmə-rəm.

Əsmər kimi arvadlar nə düşünür düşünsün, onların öz işləridir. Mən o oğlanla ailə quracağam ki, oğlan hara baxsa, ancaq məni görsün, məni düşünsün, məni göydən enmiş mələk hesab etsin və qəlbimə, ruhuma hakim olsun. Oğlandan ayrı keçən hər dəqiqəm bir ilə bərabər olsun.

Ana, bu söylədiklərimin adı sevgidir. O hiss, duyğu ilahi tərəfindən göndərilir. Heç özün də bilmədən görürsən ki, onsuz darıxırsan, dinclik tapa bilmirsən. Ona qovuşmaq üçün hər şeydən keçməyə belə hazırsan.

- Nə deyim, qızım. Sən elə danışdın ki, daha sənə deməyə sözüm olmadı. Təki, Allah o sevgi dediyin "bəla"nı sənə tez göndərsin, mən də ana kimi dünyadan rahat köçüm.

- Arxayın ol, ana, gözləmədiyin halda bir də gördün qızın həmin bəlaya tuş gəlməyi ilə anasının da dərdinə dərman tapdı. - deyən Günəş anasının üzündən öpüb saçını sığalladı.

- Nə deyim, a bala. Allah hansı xeyirdi, ona calasın. Ananın ən böyük arzusu övladını xoşbəxt görməkdir.

***

Anası ilə söhbətdən sonra Günəş istər-istəməz evlənmək barədə düşünməli olurdu. Tanıdığı oğlanları yaddaşının köməyi ilə gözü önünə gətirsə də, heç biri könlünə yatmırdı. Birdən, yaxınlarda keçirilən tədbir zamanı rəfiqəsi Solmazın onu "Günəş, tanış ol, bu Emin Etibardır. Gözəl qələmi var" dediyi zaman "Biz tanışıq" deyə Günəşin cavab verməsini eşidən Emin Etibar çəkinə-çəkinə, - "Bağışlayın, mən sizi tanıya bilmədim", - deyərək qarşısında dayanmış uzun boylu, kəsik qara saçlı, yumru ağ sifətli qızı nəzərdən keçirməyə başladı.

Bir neçə il bundan əvvəl feysbuqda bir şeir pay-laşmışdım. Sizin şeirə yazdığınız rəy çox xoşuma gəldi. Dostluq atdım, qəbul etdiniz. Düzdü, əlaqəmiz olmasa da, həmişə sizi yaxından görməyi arzulamışam.

Etiraf edim ki, bu tanışlıq üçün Solmaz xanıma minnətdaram, deyən Günəş nazik ağ əlini Emin tərəfə uzatdı.

Qızın əlini sıxan Emin, - "Sizin kimi gözəl şair bir qızla tanış olmaq məni çox məmnun etdi", - deyərək minnətdarlığını bildirdi.

Təsadüfən Solmaz xanımın Eminlə Günəşi basqa yoldaşlarla birgə bir masa arxasında əyləsdirməsi Eminin ürəyincə oldu.

Məclis boyu Günəş Eminin baxışlarını öz üzərində hiss edirdi. İlk baxışdan çoxdan görmək arzusunda olduğu bir adamın diqqətini cəlb etdiyi üçün içində öz gözəlliyi ilə öyünür və kinayəli şəkildə, - "Deyəsən gözəl olmağım ağlını başından aldı. Fikir verirəm, gözünü məndən çəkə bilmirsən. Sənin kimi çox oğlanlar qarmaq atsalar da, qarmaqlarını boş görüb kor-peşman qayıdıblar. Emin, sizin də o biri oğlanlar kimi qarmağınız boş qalacaq. Papağını ha-vayı yerə günə yandırma." - fikri ancaq özünə məlum idi.

Düzdü, sonralar bir neçə tədbirdə qarşılassalar da Eminin ona qarşı göstərdiyi diqqət və qayğıya etinasız yanaşmışdır. Bunları yenidən xatırlayan Günəş, "Düzdü, yaxşı oğlandı. Tanıyan yoldaslar da onun haqqında hörmət və ehtiramla danışsalar da məndə ona qarşı elə bir hiss yoxdur. Heç özüm də bilmirəm, bunu nə üçün xatırladım?" - düşüncələri ilə paltarını dəyişib qapıdan çıxdı. Avtobusdan düşüb parka doğru addımladı. Saata baxdı. Vaxta hələ xeyli var idi. Kölgədə qoyulmuş boş skamyada yenicə əyləşmişdi ki, qarşısında bir qaraçı qızının dayandığını gördü. Qaraçı qızını başından eləmək üçün əl çantasını açıb əlinə keçən bir neçə qəpiyi qaraçının ona tərəf uzadılmış ovcuna tökdü. Bu zaman qaraçı qızının ona zillənmiş qaragiləyə bənzər baxışları ilə qarşılaşdı.

Qaraçı qızı ovcundakı qəpiklərin dəyərini sürətli bir baxışla nəzərdən keçirib, "Sən yaxşı qızsan. Əlini ver falına baxım", dedi.

- Yox, lazım deyil. Yalandan əzbərlənmiş sözləri deyəcəksən. Hamısı da boş sözlərdi.

- Mən yalan söz demirəm. Səndən xoşum gəldi, çox gözəlsən. Elçin çox olsa da bəyənib ailə qurmamısan. Pul lazım deyil, əlini ver, taleyini üzünə oxuyum. - deyən qaraçı qızının onun taleyi barədə söylədiyi iki cümlənin düz çıxması marağına səbəb olduğu üçün özündən asılı olmayaraq əlini qaraçı qızının ona tərəf uzadılmış ovcuna qoydu. Diqqətini toplayaraq daxili bir həyəcanla nə söyləyəcəyini dinləməyə hazırlaşdı.

Qaraçı qızı ovcunda Günəşin ağ yumşaq əlinin içindəki xətləri sığallaya-sığallaya nəzərdən keçirərək sözləri aramla bir-bir sapa düzməyə başladı:

- Xanım, sizin yaşıdınız olan qızların çoxu ailə qurub, amma siz hələ də subaysınız. Varlı, pullu, vəzifəli çox oğlanlar sizə elçi düşsələr də, siz razı olmamısınız. Qonşuluğunuzda yaşayan qoca bir arvad sizin haqqınızda, ərə getməməyiniz barədə ananıza söylədiyi axmaq fikirlər ananızı bərk narahat edib. Bu haqda ananızın sizinlə olan söhbətində "Kim nə söyləyirsə, öz işidi. Mən sevmədən, sevilmədən ərə gedən deyiləm" cavabınızla qəti qərarınızı bildirməyiniz qarşısında ananız məcbur olub sizinlə razılaşıb.

- Bir dayan görüm, qız, sən məni hardan tanıyırsan? - deyən Günəş gözlənilmədən qaraçı qızının sözünü kəsdi.

- Mən sizi tanımıram. Birinci dəfədir sizi görürəm. Mən hər adamın falına baxmıram. Ancaq xoşuma gələn adamların falına baxıram. Siz çox gözəl olduğunuz üçün xoşuma gəldiniz. - deyən qaraçı qızı Günəşin ovucunun içərisindəki xətləri sığallaya-sığallaya davam etdi.

- Xanım, taleyinizdə bir oğlan var. Çox yaxşı oğlandır. Yaxınlarda tanış olmusunuz. İlk tanış olduğunuz andan oğlan sizə vurulubdur. Siz bunu hiss edirsiniz, amma etinasız yanaşırsınız. Yaxın günlərdə həmin oğlanın cələsinə düşəcəksiniz.

- Dayan bir, nə dedin, başa düşmədim.

- Cələ sözünü deyirsiniz? - Qaraçı qızı oynaq qaragiləyə bənzər gözlərini Günəşin təəccüb və sevincli qonur gözlərinə zillədi.

- Hə. O cələ nə deməkdir?

- Xanım, ovçular yaxşı, xoşa gələn quşları tutmaq üçün quşun yuvasının ağzında möhkəm ipək sapdan kiçicik tora bənzər bir şey qururlar. Quş yuvasına qayıdanda, yaxud yuvasından çıxanda həmin tora düşür. Həmin tora cələ deyirlər.

- Hə, belə de. Belə yerdə deyiblər ki, qulaq gündə bir söz eşitməsə kar olar. Günəş təbəssümlə qaraçı qızını süzdü.

- Xanım, sən yaxın vaxtlarda həmin oğlanın cələsinə düşəcəksən və "xilas" ola bilməyəcəksən. Çünki o sizi bütün varlığı ilə sevir. Siz də onu elə sevəcəksiniz. Eşidib bilənlər sizin sevginizə həsəd aparacaq.

Günəş çantasını açıb bir onluq çıxardıb qaraçı qızına uzatdı və dedi:

- Mən fala-zada inanan deyiləm, amma siz elə danışdınız ki, mən sizə inanmaya bilmədim. Siz hətta, mənim ürəyimdə hamıdan gizli olanlardan da xəbər verdiniz.

- Sağ olun, xanım. Əvvəlcədən dedim ki, mənim xoşuma gəldiyiniz üçün sizin falınıza baxacam, özü də pulsuz.

- Mən ilk dəfədir ki, qaraçının puldan imtina elədiyini görürəm. Götür, bu onluq sənə haladır. Sən əməlli-başlı ekstrasenssən. - deyən Günəş əlindəki onluğu qaraçı qızının ovcuna qoydu.

- Çox sağ olun, xanım. Sizi ürəyinizcə olan bir xosbəxtlik gözləyir. - deyən qaraçı qızı yavaş-yavaş uzaqlaşdı.

Günəş skamyada bir xeyli qaraçı qızının söylədiyi fikirlərin təsiri altında qeyri-ixtiyari düşünməyə başladı. Birdən qolundakı saata baxdı. Kursun başlanmasına lap az qalmışdı. Cəld skamyadan qalxaraq tələsik yola düzəldi.

Kompüter kursunu bitirməsi haqqında sertifikatın şəklini çəkib sosial şəbəkədə paylaşım edən Günəşin məqsədi Eminin necə reaksiya verməsi idi. Qaraçı qızının sözündən sonra istər-istəməz Emin barədə düşünən Günəş unudulmadığını bilmək istəyirdi.

Bir az keçmiş Eminin ürək dolusu təbriklərini oxuyan Günəş zəng etdi.

- Salam Emin. Xoş sözləriniz üçün sağ olun. Görünür məni unutmamısınız.

- Salam Günəş. Kursu bitirməyiniz münasibəti ilə sizi bir daha təbrik edirəm. Sizin kimi gözəli heç unutmaq olarmı?

- Yaxşı, az tərifləyin. Elə danışırsınız ki, elə bil məndən başqa gözəl qız yoxdu.

- Var, amma Günəş kimi gözəl yoxdu. Mənim gözümlə baxsan, Günəş heç kimə bənzəməyən bir gözəldi. Uca boy, qara saçların çiyinlərinə tökülməsi, yumru ağ sifət, qonur gözlər, sivri burun, al yanaqlar, təbəssüm əksik olmayan nazik dodaqlar, mənalı baxışlar, təmkinli davranış, az danışan, utancaq, danışanda həyadan yanaqlarına qızartı çökən elə bir gözəl varmı? Elə gözəl var. Bir nəfərdi, o da Günəşdir.

- Yaxşı, yaxşı, məni lap utandırırsınız.

- Mən olanını söylədim.

- Zəng etməkdə sizdən bir xahişim var.

- Buyurun.

- Bir sənəd var, onu doldurmaq lazımdır. İmkanınız varsa, səhər gələrdiniz, sənədin düzgün doldurulmasında mənə kömək edərdiniz.

- Gələrəm.

- Onda, səhər saat on birdə sizi Mərkəzi Kitabxananın qarşısında gözləyəcəyəm.

- Oldu. Həmin vaxtda orda görüşərik.

- Hələlik, sağ olun.

- Siz də sağ olun, - deyən Emin telefonu öpərək stolun üstünə qoyub səhərki görüş barədə düşünməyə başladı.

Marşrutdan düşən Günəş hiss etdi ki, ürək döyüntüsü artır, bədənini tər basır, ayaqlarını hara atdığının fərqini dərk edə bilmir. Yolun kənarında məhəccərə söykənib dayandı və dərindən nəfəs aldı. "Bu nədi? Mən niyə belə oluram? Özüm özümdən baş aça bilmirəm", - özünə toxtaqlıq verən Günəş yavaş-yavaş vədələşdikləri yerə çatmışdı ki, gözlənil-mədən Emini qarşısında gördü və görüşmək üçün titrəyən əlini Eminə tərəf uzatdı.

Qızın titrəyən əlini ovcunda saxlayan Emin göz-lənilmədən Günəşi özünə tərəf çəkib pörtmüş yanağından öpərək, "Bir daha səni təbrik edirəm", - dedi.

- Günəş incimiş halda, "Nə iş görürsünüz, görən olar". - dedi.

- Görsünlər də, bəs təbrik necə olur? - Emin güldü və qızın üzünə çökmüş həya qızartısını görcək, belə bir qızla qarşılaşdığı üçün içində qürurlandı.

Yaxşı, bir şey xahiş edim, - Emin baxışlarını ondan yayındıraraq yerə baxan Günəşə dedi.

- Yoxsa bəs eləmədi? İndi könlünüzdən nə keçir? Utanmayın, nə istəyiniz varsa, söyləyin, ürəyinizdə qalmasın. Bir də belə imkan əlinizə düşməyəcək, - deyən Günəş kinayəli şəkildə incikliyini bildirdi.

- Heç nə istəmirəm. Xahiş edirəm, düz gözlərimə baxın.

- Bu nəyə lazımdır? Tanıyan, bilən görər.

- Baxışların yadımda qalsın.

Qız özündən asılı olmayaraq uzun qara kipriklərini qaldırıb qonur gözlərini Eminin ona zillənən gözlərinə dikdi. Atəşli baxışdan içinə süzülən anlaşılmaz duyğular getdikcə bütün bədənini sarmağa basladı. Təkrar olmayan xoşbəxt anlarını yaşayan Günəş hardansa qulağına gələn "Bu gün ömrümün ən gözəl, yaddan çıxmayan bir günüdür. Çünki sə-nin gözlərində öz əksimi görə bildim. Demək sevirsən", sözlərindən özünə gəldi və handan-hana: "Qaraçı qızı düz deyirmiş", - dedi.

- Qaraçı qızı nəyi düz deyirmiş? - deyən Emin maraq qarışıq təəccüblə Günəşə baxdı.

- Cələ, - Günəş təbəssümlə Eminin gözlərinə baxdı.

- Başa düşmədim. Nə cələ? Cələ nədi? - Emin maraqla cavab gözlədi.

- Ovçuların sevdikləri quşlara yuvaları ağzında ipək sapdan qurduqları tor.

İndi mən sənin qurduğun cələyə düşdüm Emin. İndi bildin cələ nə deməkdir? - deyən Günəş qaraçı qızının söylədiklərini Eminə danışmağa basladı.

Emin Günəşin əlindən tutaraq xoşbəxtcəsinə parka doğru addımlamağa başladılar.




# BAYAT

№ 21 (881)






*Ədalət Əsgəroğlu*

Deyilənlər gerçəkdimi
Könül onu göyçək saysın?
Yazılara qələm çalan
Gülün vursun, çiçək saysın

Alqışam söz qarasında
Haqq qaşla göz arasında
Düz düzdümü sırasında
Sonrasını fələk saysın.

Əsgəroğlum halım duysun
Boy verin boylanıb dursun
Qanadlanan eşqim olsun
O da özün mələk saysın.

***

Gün-güzarım pozuq düşüb,
Görün rüzgar nə istəyir?
Pərdə çəkib üz -gözünə
Özü aşkar nə istəyir?

Can istəyir, canım peşkeş,
Qəm istəyir, mənəm qəmkeş.
Versin üç-üç, alsın beş-beş,
Özgə nə var, nə istəyir?

Əsgəroğlum, ayrılıq var,
Yol bitirməz haça yollar.
Gedənə yar, gələnə yar,
Mənəm zəvvar nə istəyir?

***

Tərsə düşən yazıların
Zavalı bir navaldı ki
Surətin gör binəvanın
Görsən demə xəyaldı ki

Yar yaxasın çəkə yana,
Amansız qala divana.
Aşiq ki, qıymasın cana
Cavabı yox, sualdı ki

Şeh düşüb könül xalına
Gəl, indi döz məlalına
Əsgəroğlum xoş halına
Halın zurna qavaldı ki.

***

Sığınıb Tanrı eşqinə,
Hürr olan, hürr olum necə?
Könül, odun bəs eyləmir
Bu odnan, kül olum necə?

Cana məlhəm sözü yoğur,
Ələ düşmür belə uğur.
Olumdan bir ölüm doğur,
Ölümdən bir olum necə?

Əsgəroğlum çox yanası
Tikansızdı gülxanası.
Eşqin dəli divanası,
Deməz ki, pir olum necə?

***

Zalım fələk şah deyibən,
Mat qoyub dondurma məni.
Gərdişinlə at oynadıb,
Boşuna qandırma məni.

Səni deyirlər adilən,
Zəkirlər ahı dadilən.
Qalanırmı od odilən,
Yanıram yandırma məni.

Əsgəroğlu dara düşüb,
Hardan gəlib, hara düşüb?
Sınmıramsa zora düşüb,
Zülümnən sındırma məni.

***

Sığınıb Tanrı eşqinə,
Hürr olan, hürr olum necə?
Könül, odun bəs eyləmir
Bu odnan, kül olum necə?

Cana məlhəm sözü yoğur,
Ələ düşməz belə uğur.
Olumdan bir ölüm doğur,
Ölümdən bir ölüm necə?

Əsgəroğlum çox yanası...
Tikansızdı gülxanası.
Eşqin dəli-divanası,
Deməz ki, pir olum necə?

***

Şükür, Tanrım şükranədi,
Rəhmdildi, aman eylər.
Nə verərsə, gözüm üstə,
Nə eylərsə, yaman eylər.

Sevdirər qəddi-qaməti,
Can bahası əmanəti.
Möhürlüdü qiyaməti,
Asilər nə güman eylər?

Əsgəroğlum, kəs ahları,
Özündə gəz günahları,
Sev ki, gerçək sabahları,
Səni əhli iman eylər.

***

Tanrım, könlüm aşiqanə,
Bir aman ver, dözüm, durum.
Nuş eyləyim şirin-şirin,
Düyün-düyün çözüm, durum.

Yozulurmu naşı deyən,
Ağlın kəssə başdı yiyən.
Mən gerçəyin aşiqiyəm,
Gerçək olub özüm, durum.

Əsgəroğlum mərd haraylar,
Sinəsi gülşən saraylar.
İtkin düşməz haqqı-saylar,
Bədirlənsin sözüm, durum.

***

Qəlb deyəni ağlım dedi,
Mən də dedim, düz vaxtında.
Görən gözlərimə şükür!
Gördüm nəzərin, haqqın da.

Qan-qadalı nələr varmış,
Can sökən nalələr vermiş.
Al üzlü lalələr varmış,
Bu, allı-güllü baxtımda.

Əsgəroğlum, haqq eylədim,
Eşqimi çıraq eylədim.
Çox böyüdü, şah eylədim.
Əyləşdi könlüm taxtında.

***

Əhdinə vəfalı dünya,
Könlümdü hüsnün heyranı.
Bir gedişə şah deyibsən
Mat qoyubsan Süleymanı.

Ay sinəsi dağlı gəzən,
Haqqını çıraqlı gəzən.
Bir ömürlük sağlıq gəzən,
Olur gözlərin qurbanı.

Umud dolu xanimansan,
Həm yanansan, həm yamansan.
Sən özün sultansan, xansan,
Neynirsən özgə fərmanı.

Əsgəroğlum, ağam, paşam,
Gerçəyəm əhvalı xoşam.
Tək sənə aşiq olmuşam.
Sevmərəm ayrı dünyanı.

***

Sözün özü güldü, balam!
Ruzigar əssə, solmaz ki...
Bu ömür beş gündü, balam!
Beşi də qara olmaz ki...

Umudlar sabaha uyar,
Barsız şair qəm buduyar.
Bağrı tıncıxan quyular,
Su tökmək ilə dolmaz ki...

Durdum üz-üzə fələknən
Mən qələmnən, o ləléknən.
Bəyaz donlu bir mələknən,
Gəlib canımı almaz ki...

Əsgəroğlum, olur nələr?
Yazılar qanlı namələr.
Binası küskün xanələr,
Düzlənər, izi qalamaz ki...

***

Ötər rüzgar acı-acı,
Özündən ötürməz məni.
Karvan-karvan yüküm bəlli,
Körpələr götürməz məni.

Şahə qalxar and-amanlar,
Silkələnər xanimanlar.
Sinəmi didər aslanlar,
Tülkülər bitirməz məni.

Köçündən yayınan quşun,
Köksündə dayanar qurşun.
Çinar kimi şah duruşum,
Diz üstə gətirməz məni.

Əsgəroğlum,ölüm yalan,
Bu söz ki, çürüməz balam!
Dan yerində sevdalanan,
Sabahlar itirməz məni.

***

İçindən sovrulub durur,
Mən olan, məndə olmayan.
Bir gün düşür ayaqlara,
Zil olan, bəmdə olmayan.

Boğur özünü öz köpü,
Bilməz nədi yaxşı, kötü,
Bom-boşun gəlib ötür,
Doğulan, bəndə olmayan.

Oluma, ölümə doğru,
Bir "ol"!-dan olanlar doğdu.
O nədir ki, Əsgəroğlu!
Həm olan, həm də olmayan.

Muradımı sirr saxladım,
Saxladım ki, gerçək ola.
Pərvazlana şahin kimi,
Qanad çala sağa-sola.

Gülüm güllər gülüşüdü
Güllərin könüllüsüdü.
Naz etməyin ölüsüdü,
Çətin ki, gətirəm yola.

Əsgəroğlum, söz dərmişəm,
Eşqi deyilən dərvişəm.
Deməlisin çox demişəm
Yazdım ki, yazılı qala.

***

Eşq dəlisi, düş çöllərə,
Məcnundan da lap betər ol!
Ya dillərdə dastana dön,
Ya da çürü, dərbədər ol!

Aynasında qəm butası,
Qan çiləyər tər yaxası.
Gülöyşədi narxanası,
Get, dənələ - bəxtəvər ol!

Yanağında lalə xalı
Yanğısında Ney misalı.
Bu nişanda xoşdur halı
Gör halımı bixəbər ol.

Əsgəroğlum qara gedər,
Gerçəklər aypara gedər,
Saylar itər, sıra gedər,
Sözün qalsın, gəl, gedər ol!

***

Ağam, məni sınağa çək,
Suallar siir olan yerdə!
Alın yazım möhürlənir,
Mövlanə pir olan yerdə.

Sevənlər eşqdən bayılır,
Qumrusu erkən ayılır.
Tikanlar güldən ayrılır,
Aşiqlər bir olan yerdə.

Əsgəroğlu, haqqın qulu
Sevdalıdır ömür yolu,
Qansızlar qan tökmür, durur,
Könüllər hürr olan yerdə.

***

Yaxası açılıb gülün,
Xal üstündə xan havası.
Havalanan gözəl budu.
O da gerçək binəvası.

Qana həris bu hay-həşir,
Cana can deyib dirəşir.
Alması, narı titrəşir
Amanabənddi heyvası.

Əsgəroğlum dillər tökər,
Pərdə-pərdə sədlər sökər.
Dartışması uzun çəkər
Görünməyəndi davası.

***

Mənəm, mənəm deyən fələk,
Gör, mənimlə bölər nələr?
Bir üstə birini gəlməz,
Qoşa-qoşa gələr nələr?

Tellənən ürəyim olsun!
Qızılsa, dirəyim olsun!
Bir məsum mələyim olsun!..
Sonra olsun, nələr, nələr?

Əsgəroğlum qara tirdi,
Həmi aşkar, həmi sirdi,
Olum-ölüm özü pirdi,
Olar nələr, ölər nələr?

***

Nur qona qara gözlərə,
Bir cüt ala göz üzündən.
Nişangaha göz eyləyib
Vura ovu düz gözündən!

Halı dildən-dilə düşə
Ümidi get-gələ düşə
Eşqə düşən belə düşə,
Alov tuta öz-özündən.

Əsgəroğlum, arzun sıcaq,
Dada gələ bu dil-dodaq
Ha deyəsən nazı burax
Xoşallana naz sözündən.

***

Oxu, gözəl məndən oxu!
Divanələr oxunsa, zor.
Millənib yazılan könül.
Ilmə-ilmə toxunsa, zor.

Beş gün, sıralanıb gedər,
Bir-bir qaralanıb gedər.
Birdən aralanıb gedər
Əhd-kamın yoxunsa, zor.

Əsgəroğlu, andım qələm,
Sultanımdı, eylər kərəm.
Nura dönüb vəcdə gələn,
Sarı simə toxunsa, zor.

Azərbaycan Respublikasının dünya birliyinə inteqrasiyası, region ölkələri və digər dövlətlərlə, beynəlxalq təşkilatlarla əməkdaşlığının inkişaf etdirilməsi

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

№ 34 (2408) 13 sentyabr 2024-cü il

# AZƏRBAYCAN ÇOX SÜRƏTLƏ DÜNYA İQTİSADİYYATINA İNTEQRASİYA OLUNUR



**Dünyada Azərbaycan yeganə ölkələrdəndir ki, heç bir kənar qüvvələrin köməyi və yardımı olmadan zəngin iqtisadiyyat qura bilmişdir. Təbii ki, bu iqtisadiyyat da birdən-birə yaranmamışdır.**

Heç kimə sirr deyil ki, Azərbaycanın 20 faiz ərazisi düz 30 ilə yaxın erməni işğalı altında qalıb. Belə bir mürəkkəb siyasi-hərbi durumda ölkəmiz həm müdafiə qabiliyyətini yüksəltməli, həm də iqtisadiyyatını yüksək səviyyədə qurmalı idi. Təbii ki, bütün bunları həyata keçirmək üçün Azərbaycana çox güclü, uzaqgörən və müdrik bir siyasətçi lazım idi. Bu siyasətçi də xalqın tələbi ilə hakimiyyətə gətirildi. Yəni Ulu Öndər Heydər Əliyev Azərbaycan dövlətinin sükanı arxasına keçəndən sonra ölkəmizin siyasi, iqtisadi, hərbi və sosial problemləri zaman-zaman həll edilməyə başlandı.

Bir çox dövlətlər elə təsəvvür edirdilər ki, Azərbaycan iqtisadi böhrandan, müharibə şəraitindən öz gücü ilə çıxmağı bacarmayacaq. Amma Ümummilli Lider Heydər Əliyev Azərbaycanın gələcəyini bütün dünya siyasətçilərindən, iqtisadçılarından daha yaxşı görürdü. O görürdü ki, ölkəmizin çox zəngin yerüstü və yeraltı sərvətləri və digər dünyanın ehtiyac duyduğu məhsulları var. Sadəcə bu məhsulları emal etmək, hazırlamaq və sonra da dünya bazarına çıxarmaq lazım idi. Heydər Əliyev Əsrin müqaviləsi neft kontraktına imza atmaqla çox ağıllı bir siyasi gediş etdi. Yəni Bakı-Ceyhan neft kəmərinin çəkilməsi, İngiltərənin BP şirkəti ilə birgə Azərbaycan xam neftinin çıxarılması, emalı və dünya bazarına inteqrasiya olunması çox önəmli bir əhəmiyyət kəsb etdi. Artıq 1993-cü ildən başlayaraq Azərbaycan iqtisadiyyatı iri addımlarla inkişaf etdi. Uzun müddət istehsalını dayandırmış fabrik, zavod və bir çox müəssisələr ölkə rəhbərliyinin verdiyi göstəriş əsasında yenidən işləməyə başladı. Avropa ölkələri gördülər ki, Azərbaycan nə Ermənistandır, nə də Gürcüstan, ən azından ona görə ki, Azərbaycan nefti və qazı kəmər vasitəsilə Avropaya göndərilir və bundan isə həmin ölkələr istifadə edirlər.

Heç şübhəsiz, ölkəmizdə iqtisadiyyatın daha yüksək sürətlə inkişafının təmin edilməsi üçün yeni-yeni investorlara, sərmayəçilərə böyük ehtiyac vardı. Düzdür, elə sahələr vardır ki, həmin sahələrdə Azərbaycan dövləti və iş adamları yatırımlar edirdi və yüksək məhsuldarlıq da əldə olunurdu. Belə bir durumda İtaliyanın, Fransanın, Macarıstanın, Bolqarıstanın, Türkiyənin, Rusiyanın onlarla şirkəti Azərbaycanda sənayenin, iqtisadiyyatın və kənd təsərrüfatın müxtəlif sahələrinə sərmayələr qoymağa başladılar. Hər bir şirkət və iş adamı öncə onu düşünür ki, qısa zaman kəsiyində qoyduğu sərmayəni əldə edə bilsin və bundan sonra izafi dəyər qazansın. Məhz həmin şirkətlər də gördülər ki, Azərbaycana yatırılmış milyonlarla dollar vəsaitlərini az bir müddətdə geri qaytardılar və üstəlik də əlavə gəlir əldə etməyi bacardılar.



Təbii ki, bütün bu iqtisadi addımların uğurla nəticələnməsi Azərbaycanın dünya iqtisadiyyatına daha sürətlə inteqrasiya olunmasına bir təkan verdi. Məhz o təkanın nəticəsi idi ki, 2000-ci ildən sonra Avropa ölkələri, xüsusən İtaliya, Türkiyə və Rusiya Azərbaycanda iqtisadiyyatın müxtəlif sahələrinə daha böyük yatırımlar etdilər. Bu da onunla əlaqədar idi ki, Azərbaycanın 20 faiz torpağının işğal edilməsinə baxmayaraq, onun iqtisadiyyatı hər cür imkana malik idi. Əlbəttə, belə bir mövcud şəraitdə sərmayəçiləri ən çox düşündürən əlavə izafi dəyər idi. Və bu izafi dəyər də müəyyən zaman kəsiyindən sonra əldə edildi. Ölkəmizdə yaranmış sabitlik, əmin-amanlıq xarici investorların Azərbaycana gəlişini bir qədər də sürətləndirdi. Onlar tək Bakı şəhərində deyil, başqa sözlə demiş olsaq, neft sənayesində deyil, həm də yeni-yeni fabrik və zavodların tikintisinə də vəsait ayırdılar. Xüsusən Sumqayıt şəhərində Çin Xalq Respublikası bir neçə müəssisənin yenidən qurulmasına və Azərbaycan xammalı hesabına yeni məhsulların istehsal edilməsinə xüsusi diqqət yetirdi. Bu isə o deməkdir ki, artıq Çin kimi böyük bir dövlət Azərbaycan iqtisadiyyatına yatırım etməkdən çəkinmir, bu sahədə öz maraqlarını təmin etmək üçün sərmayəni daha da artırırlar.

Azərbaycanın ikinci böyük şəhəri olan Gəncə şəhərində həm iqtisadiyyat, həm sənaye, həm də tikinti sektoruna xaricdən gələn şirkətlər kifayət qədər investisiya yatırdılar. Bu investisiyaların yatırılması ona zəmin yaradırdı ki, Azərbaycan iqtisadiyyatı çox zəngindir və ölkəmizin qapısı xoş məramla məmləkətimizə gəlib iş görmək istəyən şirkətlərin üzünə açıqdır.

Elə ölkələr var ki, uzun illərdir müstəqillik qazanıb, böyük ərazisi var, amma zəngin iqtisadiyyatı yoxdur. Azərbaycan isə balaca bir ölkə olmasına baxmayaraq, həm dünya siyasətində, həm iqtisadiyyatında, həm də müdafiə sahəsinin yenidən qurulmasında önəmli addımlar atır. Bu heç də asanlıqla başa gəlməyib. Ulu Öndər Heydər Əliyevdən sonra 20 ilə yaxın hakimiyyətdə olan prezident İlham Əliyev də Azərbaycan iqtisadiyyatının dünyaya inteqrasiya olunması üçün çox böyük işlər görüb. Bunun nəticəsi kimi Azərbaycanın beynəlxalq iqtisadi konfranslarda, eləcə də digər mötəbər təşkilatlarda öz mövqeyini sərgiləməsi və dünyanın məşhur şirkətlərinin Azərbaycana dəvət edilməsi xüsusi əhəmiyyət kəsb edib. Bu gün tam məsuliyyətlə deyə bilərik ki, Azərbaycanda elə bir siyasi-iqtisadi, sosial mühit formalaşıb ki, hər bir xarici dövlət burda sərmayə qoymaq üçün böyük maraq göstərir. Eyni zamanda 2020-ci il sentyabrın 27-də başlayan 44 günlük İkinci Qarabağ savaşı və 2023-cü il sentyabrın 19-20-də Qarabağda antiterror əməliyyatının uğurla aparılması ərazi bütövlüyümüzü tamamilə təmin etdi və bundan sonra məşhur şirkətlərin ölkəmizə marağı bir qədər də artdı.

**Artıq Azərbaycan həm İslam, həm də Türk dünyasında öz yerini daha da möhkəmləndirib. Çünki Türk dünyası da, İslam dünyası da yaxşı bilir ki, ölkəmiz ümumbəşəri dəyərlərə və insanlığa çox yüksək dəyər verməklə öz iqtisadiyyatını ən yüksək səviyyədə təşkil etməyi bacarıb. Heç də təsadüfi deyil ki, bütün bu dəyərlərimiz həm Türk dünyası, həm də İslam dünyası tərəfindən yüksək qiymətləndirilir. Eyni zamanda prezident İlham Əliyev Türk və İslam dünyasını birləşdirən çox böyük siyasətçilərdən biridir. Bu gün dünyanın gözü Azərbaycana tikilib, çünki Azərbaycan zəngin dövlət olmaqla yanaşı, həm də bəşəri dəyərlərə, beynəlxalq hüquq normalarına və insan hüquqlarına çox böyük hörmətlə yanaşır.**

**EMİL FAİQOĞLU**

**AZƏRBAYCAN RESPUBLİKASININ MEDİANIN İNKİŞAFI AGENTLİYİNİN MALİYYƏ YARDIMI İLƏ**



Aydın Bağırov

## Avazın yaxşı gəlir, oynatdığın futbol olsa...

*Yaxud bu fikri təhrif eləmədən, atalar sözlərimizin orijinalında olduğu kimi də qeyd etmək olar: "Avazın yaxşı gəlir, oxuduğun Quran olsa..."*

*Güman edirəm, bu sözlərin mənasını Azərbaycan millisinin baş məşqçisi Fernando Santuşa izah edən tapılacaq. O səbəbdən ki, Santuş Azərbaycana ayaq basandan yalnız sadəlövh azarkeşin ürəyinə yağ kimi yayılan açıqlamalar verir, böyük turnirlərdə oynamaqdan dəm vururdu.*

*Böyük turnirlərdə.*

*Avropa və dünya çempionatlarında.*

*Amma bu, əlbəttə, ucuz populizm idi.*

*Buyurun, bu da həmin boşboğazlığın rəsmi möhürü: milli komandamız Millətlər Liqasında evdə İsveçə 1:3, səfərdə isə Slovakiyaya 0:2 hesabı ilə uduzub.*

*Əlbəttə, kiçik komandalarla "böyük turnirlər" nağılı qurmaq təqdir oluna bilər. Amma axı, bu nağılı gerçəkliyə çevirmək üçün sənin öz beynində ideyaların, planların olmalıdır. O planı da meydanda həyata keçirən 11 futbolçun.*

*11 futbolçu...*

*Dünən Slovakiya ilə oyunda o 11 futbolçudan biri Amin Seydiyev idi. Cəmi 4 dəqiqəyə oyunun taleyini həll edən "qəhrəman". Əvvəl qapımıza təyin edilən penaltiyə səbəb oldu ki, oyunda hesab açıldı, sonra da onun cinahdakı səhvi ucbatından daha bir qol buraxdıq. Həmin vaxt topun yanında olan Aleksey İsayev isə komanda yoldaşını sığortalayıb rəqibə mane olmalıydı. Lakin o, deyəsən, bərk yuxuya getmişdi. Yoxsa məntiqlə o epizoda o cür etinasız münasibət olmamalı idi.*

*37-ci dəqiqədə Amin Abbas Hüseynovla əvəzləndi. İndi Santuşdan soruşmaq lazımdır ki, Abbas elə əvvəldən əsas heyətdə oynaya bilməzdimi? Bir halda ki, İsveçlə görüşdə də normal oyunu olmuşdu.*

*İlk 45 dəqiqə bitən kimi Santuş daha 2 oyunçu dəyişdi. Onlardan ikisi cağ cinahın oyunçuları (Seydiyev və Gökçü) idi. Yəni "ölü zona"nın...*

*1-ci hissə və 3 dəyişiklik. Bu, sanki oyuna 11 deyil, 8 nəfərlə çıxmağın acınacaqlı etirafı idi.*

*Amma bu və digər əvəzetmələr də nəticəni dəyişmədi. Bir oyunda komandanın ən etibarlı oyunçusu qapıçısı (Mehdi Cənnətova bravo) olursa...*

*Onda Santuş özünə sual verməlidir ki, bəs yaxşı, mənim qol vurmalı olan hücumçularım, o hücumçulara kömək etməli olan yarımmüdafiəçilərim hanı? Hardaydı bu komandanın oyun quruculari? Cinahlar nə işə yarayırdı?*

*Meydanda 90 dəqiqə ərzində komanda oyunu, sistem yoxdursa, bunun məsuliyyəti kimin üzərinə düşür? Hamı sanki məhəllə futbolundakı kimi özü üçün oynayırdı. Xətlərarası bərbad əlaqədən isə danışmağa dəyməz. Elə buna görə idi ki, oyunun gedişatında biz bir neçə dəfə futbolçularımızın bir-birinə narazılığına şahid olduq...*

*Belə komanda olarmı?*

*... Amma Santuş böyük hədəflərdən danışır. O hədəflərə olmayan oyun sistemi ilə getmək olmur.*

*Ən son bu penalti olayında bir daha məsuliyyətsizliyini göstərən şeydayevlərlə, bu məsələdə ona qahmar çıxan mahmudov xarakterli "kapitanlarla" Avropaya, dünyaya çıxışımız yalnız turist-komanda kimi ola bilər.*

*Bir də milli komandaya məsuliyyətlə yanaşı həm də Vətən təəssübkeşliyi lazımdır və bunu qətiyyən pafos kimi qəbul etməyin.*

*Dövlət himnimizi oxumayan neçə oyunçumuzu gördünüz dünən? Dadaşov, İsayev... İllərdir guya Azərbaycanı təmsil edirlər, amma bu dövlətin ali rəmzlərinə hörmət qoymurlar - onun himnini öyrənməyi özlərinə əskiklik sayırlar sanki. Bəs Ramil Şeydayevə nə deyəsən? Hələ də Azərbaycan dilində 3 cümlə danışdığını görən olmayıb.*

*Və Santuş bu "vətənsevər" futbolçularla, özünün meydanda görünməyən "oyun sistemi" ilə dünya və Avropa çempionatına getməkdən danışırdı...*

*Bəli, avazı yaxşı gəlir, oynatdığı futbol olsa...*

*... AFFA-nın yeni prezidenti və İcraiyyə Komitəsinin üzvlərini isə təbrik edirəm.*

*Yaxşı başladınız!*

# Kapadokiya – Türkiyənin nağıl dünyası və tarixi incisi

**Kapadokiya, Türkiyənin mərkəzində yerləşən və turistlərin diqqətini çəkən bir turistik bölgədir. Bölgə, öz bənzərsiz təbii xüsusiyyətləri, tarixi və mədəni irsi ilə tanınır. Kapadokiya, müxtəlif dövrlərdə yaşanan tarixi hadisələr və mədəni təsirlərlə zəngin bir tarixə sahibdir. Bölgənin qeyri-adi təbii və tarixi xüsusiyyətləri, onu tarixi tədqiqatçılar və turistlər üçün maraqlı bir yer edir.**

Kapadokiya, təbii olaraq meydana gələn məşhur "peri bacaları" ilə tanınır. Bu unikallıq, vulkanik fəaliyyətdən yaranan yumşaq tufa və bazalt daşlarının eroziyası nəticəsində formalaşıb. Bu maraqlı daş formaları turistlər və fotoqraflar üçün cazibə mərkəzidir. Bölgənin tarixi çox qədim dövrlərə gedib çıxır. Kapadokiya, erkən xristian dövrlərində gizli sığınacaq olaraq istifadə edilən geniş mağara kompleksləri ilə də məşhurdur. Bu mağaralar, erkən xristianların dini fəaliyyətlərini həyata keçirmək və düşmənlərdən qorunmaq məqsədilə inşa edilib. Bölgədəki bəzi mağaralar, kilsələr və monastırlar hələ də yaxşı qorunmuş vəziyyətdədir.

### *Kapadokiyanın əsas turistik yerləri*

**Peri Bacaları (Fairy Chimneys):** Kapadokiyanın ən tanınmış təbii strukturlarıdır. Vulkanik fəaliyyətdən yaranmış bu qeyri-adi daş formaları, ərazinin simvolu sayılır. Eroziyadan yaranan bu formalar turistlərin diqqətini cəlb edir.

**Goreme Açıq Hava Muzeyi:** Bu muzey, qədim xristian monastırlarının və kilsələrinin olduğu bir kompleksdir. Mağara içi kilsələr, freskalar və dini sənət əsərləri ilə zəngindir.

**Uçhisar Qalası:** Kapadokiyanın ən yüksək nöqtəsindən biri olan bu qala, ətrafın panoramik mənzərələrini görmək üçün ideal bir yerdir. Qala, qədim dövrlərdə strateji bir mövqeyə sahib olub.



**Derinkuyu və Kaymaklı yeraltı şəhərləri:** Bu yeraltı şəhərlər qədim dövrlərdə sakinlərin düşmən hücumlarından qorunmaq üçün istifadə etdikləri geniş bir labirent sistemidir. Bu şəhərlər, müxtəlif səviyyələrdə mağaralar, yaşayış sahələri və ehtiyat yerləri ilə diqqət çəkir.

### *Tarixi və mədəniyyət*

**Göreme Milli Parkı:** Kapadokiyanın ən tanınmış parklarından biridir. Bölgənin qeyri-adi geoloji formaları və tarixi dəyərləri ilə UNESCO-nun Dünya İrsi Siyahısında yer alır.

**Çavuşin Kəndi:** Tarixi kilsələri və mağara evləri ilə tanınır. Əsasən erkən xristian dövrlərinə aid olan bu məkanlar ziyarətçilərə keçmiş həyat tərzini yaxından görmək imkanı verir.

**Avanos:** Kapadokiya'nın şirin suyu ilə tanınan şəhəridir. Ənənəvi keramika və pota ustalığı ilə məşhurdur. Burada keramika atelyeləri və emalatxanaları ziyarət etmək mümkündür.

### *Unikal fəaliyyətlər*

**İsti hava balonu uçuşları:** Kapadokiya'nın ən məşhur fəaliyyətlərindən biri olan isti hava balonu uçuşları, gün doğumunda həyata keçirilir və bölgənin möhtəşəm mənzərələrini yüksəkdən görmək imkanı təqdim edir.

**Atla gəzinti:** Kapadokiya'da atla gəzinti, bölgənin qeyri-adi təbii mənzərələrini, tarixi yerlərini və unikal landşaftını kəşf etmək üçün mükəmməl bir yoldur. Atla gəzintilər, Kapadokiyanın gözəl vadilərini və dağlarını təbii şəkildə araşdırma imkanı təqdim edir. Bu fəaliyyət, həm macəra sevərlər, həm də təbiət sevərləri üçün ideal bir seçimdi.

**Dağ yürüşləri:** Bölgənin müxtəlif vadilərində və dağ yollarında yürüyüş etmək, təbiətin və tarixin içində səyahət etməyə imkan verir.

Kapadokiya, ziyarətçilərinə təbii gözəlliklərdən tarixi kəşflərə qədər geniş bir təcrübə təqdim edir. Bu bölgə, həm romantik, həm də macəra dolu bir səfər üçün ideal bir yerdir.

## *Bu hadisədən sonra bir daha filmə çəkilmədi*



**Məşhur Azərbaycan filmi "Əhməd Haradadır" 1963-cü ildə ərsəyə gəlib. Filmin yaddaqalan obrazlarından biri də Ceyran rolunu ifa edən Gürcüstan SSR xalq artisti Nona Paçuaşvili idi. Bu filmin çəkilişləri zamanı ən böyük faciəni də məhz bu aktrisa yaşayır. Yəni təzə ailə qurduğu gənc həyat yoldaşı, nazir oğlu Tamazini İnturist mehmanxanasında elə aktrisanın gözü önündə tok vurur və ölür. Həmin vaxt gənc qadın dörd aylıq hamilə imiş. Lakin işini yarımçıq qoymayan xanım, filmə çəkilməyə davam edir.**

Sonradan bir oğlu olan aktrisa oğlunun adını Tamazi qoyur. Uzun illər Bakıya gəlməyən Nona Paçuaşvili teatrlarda rol alsa da, bir daha kinoya çəkilmir.Yəni "Əhməd haradadır" filmi aktrisanın çəkildiyi ilk və son film olur.

Nona Paçuaşvili sonralar öz müsahibələrində deyirdi:

"Məni bu rola dəvət edəndə həyat yoldaşım Tamazi ilə yeni evlənmişdik. Həm zahirən, həm də daxilən çox gözəl insan idi. Mən institutun 3-cü, o isə 5-ci kursunda oxuyurdu. Filmin çəkilişləri vaxtı Tamazi məni görmək üçün Bakıya gəldi. Mehmanxanada səs valları ilə işləyən vaxtı mikrofonun düyməsini basanda qəfildən onu elektrik cərəyanı vurdu. Yoldaşım gözümün qarşısında canını tapşırdı. Onda mən hamiləliyimin dördüncü ayını yaşayırdım. Çəkilişlərdən imtina eləmək istəyirdim, çünki çox ağlayırdım. Amma elə o vəziyyətdə də işimi davam etdirdim. Sonra oğlum dünyaya gəldi, adını elə atasının şərəfinə Tamazi qoydum".

Aktrisa "Əhməd haradadır" filminə ilk dəfə filmin 40 illiyində, Bakıda baxır. Yəni 40 il sonra!

Ömrü boyu Rustaveli teatrının akrtisası çalışan 81 yaşlı N. Paçuaşvili ailəsi ilə Birlikdə Tiflisdə yaşayır.

**Əntiqə Kərimzadə**

## *Müğənni proqramı tərk etdi*

**Müğənni Əbdül Xalid qonaq olduğu proqramı yarımçıq tərk edib.**



Adalet.az bildirir ki, o, proqramda qonaq olarkən mahnı ifa edib. Mahnı yarımçıq şəkildə dayandırılıb. Bu addımı özünə hörmətsizlik kimi qəbul edən müğənni efiri tərk edib. Lakin aparıcı müğənninin tdığı addıma görə onu qınayıb. Və baş verən texniki xətanın səbəbkarı o olmadığını söyləyib.

## *Ofelya Şabanova: "Ərə qulluq etmək canımda-qanımda var"*



**Sənətindən çox ailəsi və həyat yoldaşı ilə gündəmi zəbt edən Ofelya Şabanova bu dəfə də eyni mövzu ilə dillərdə əzbərdir.**

Adalet.az bildirir ki, müğənni oxşar fikirləri ilə yenə də diqqət çəkməyi bacarıb:

"Mənə deyirlər ki, yoldaşının corabını geyindirirsən. Sən neykləyirsən, Ofelya?! Bu belə də olmaldır, mənim əzizlərim. Mən bunu anamdan görmüşəm.

Ərə qulluq etmək canımda-qanımda var. Başqa müğənnilər kimi evimdə 5 qulluqçum var demirəm. Evə gəldimsə evimin xanımıyam. Səhnədə müğənniyəm evdə uşaqların anası, həyat yoldaşımın xanımıyam. Evdə bütün işləri özüm görürəm. Bu belə də olmalıdır məncə. Böyük- böyük danışan müğənnilər görəndə ətim tökülür. Onların sayəsində kökələ bilmirəm (gülür).

**Əntiqə**


Təsisçi və baş məsləhətçi: Aqil ABBAS

Baş redaktor: İradə TUNCAY

Qəzet "Ədalət" qəzetinin bilgisayar mərkəzində yığılıb səhifələnmiş və "Son dakika" MMC Nəşriyyatında ofset üsulu ilə çap edilmişdir.

Müəlliflərin mövqeyi ilə redaksiyanın mövqeyi üst-üstə düşməyə bilər.

KAPİTAL Bankın 1 saylı Nəsimi rayon filialı.
kod: 200112 h\h
Müxbir hesab: 0137010001994
S.W.I.F.T. Bik: AIIBAZ 2xhesab N: 38070019411100451111 VÖEN: 1300456161
İndeks:0107 Qeydiyyat nömrəsi 100

Ünvan: Bakı AZ.1073 Mətbuat prospekti, 529-cu məhəllə, "AZƏRBAYCAN" nəşriyyatı, 6-cı mərtəbə.
Telefon: 538-05-50, 538-51-31. 534-55-98 Faks: 539-80-26
adaletqezeti@rambler.ru
adaletqezeti@mail.ru, adaletqezeti@box.az

Tiraj: 1500
Sifariş: 196
Çapa imzalanmışdır: 12.09.2024